AZƏRBAYCAN SSR ELMLƏR AKADEMİYASI TARİX İNSTİTUTU

ŞAHİN FƏRZƏLİYEV

# AZƏRBAYCAN XV-XVI ƏSRLƏRDƏ

(Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə)

"Elm" nəşriyyatı
Bakı - 1983

Azərbaycan SSR Elmlər Akademiyası
Redaksiya-Nəşriyyat Şurasının qərarı ilə çap olunur

Redaktoru tarix elmlər doktoru O. Ə. Əfəndiyev

© "Elm" nəşriyyatı, 1983.

# GİRİŞ

Azərbaycanın orta əsrlər ictimai-iqtisadi və siyasi tarixini öyrənmək tarixşünaslıq elminin qarşısında duran vacib vəzifələrdən biri kimi geniş elmi-tədqiqat işi tələb edir.

XVI əsrdə yaranan Azərbaycan Səfəvi dövlətinin və vilavasitə ondan qabaqkı dövrdə - XV əsrdə mövcud olmuş feodal dövlətlərinin tarixini əks etdirmək üçün dövrün yazılı abidələri əsas götürülməli, hərtərəfli tədqiq edilməlidir. Bu işin öhdəsindən gəlməkdən ötrü yeganə vasitə marksizm-leninizm metodologiyası və tarixi materializmdir.

Tarixi tədqiqatın əsasını təşkil edən mənbələrin öyrənilməsi tarixçilərin qarşısında duran zəruri bir vəzifədir. Mənbələrdə olan məlumat müəyyən dövrün ictimai-iqtisadi, siyasi və mədəni həyatı ilə əlaqəli sürətdə, başqa mənbə və faktlarla müqayisəli şəkildə araşdırılmalıdır. "Mənbəşünaslıq tarixi mənbələr, onların aşkar olunması, öyrənilməsi və tarixçinin əsərində istifadə edilməsi haqqında elmdir"[1].

Mənbəşünaslıq sahəsində Azərbaycanda artıq ilk addımlar atılmışdır. Ə.Ə. Rəhmaninin "İsgəndər Münşinin "Tarix-i aləm aray-i Abbasi" əsəri Azərbaycan tarixinin mənbəyi kimi", R.Ə. Hüseynovun "XII – XIII əsr Suriya mənbələri Azərbaycan haqqında", İ.P. Behzadinin "Ravəndinin "Rahətüs-südür və ayətüs-sürür" əsəri tarixi bir mənbə kimi", M.İ. Şəmsinin "Şərəf xan Bidlisinin "Şərəfnamə" əsəri kürd xalqının tarixi mənbəyi kimi" adlı tədqiqat əsərlərində müvafiq mənbələr hərtərəfli tədqiq edilmişdir.

Orta əsr tarixi mənbələri arasında azərbaycanlı tarixçi Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" ("Tarixlərin ən yaxşısı") əsəri də xüsusi yer tutur. Fars dilində yazılmış bu mənbənin dövrümüzə qədər gəlib çatmış son iki cildində Şirvan, Şəki və Azərbaycanın cənub vilayətlərinin tarixi təsvir olunmuşdur. Qeyd etmək lazımdır ki, Həsən bəy Rumlu dövlət quruluşu, iqtisadi vəziyyət, feodal münasibətləri, ordu və siyasi tarix haqqında qiymətli məlumat verən müəllifdir. Onun qələmə aldığı bir sıra məsələlər dövrün başqa tarixçilərinin kitablarında ya tamamilə öz əksini tapmamış, ya da çox ötəri qeyd edilmişdir.

Bizim məhz "Əhsənüt-təvarix" əsərini bir mənbə kimi araşdırmağımızın bir neçə səbəbi vardır: azərbaycanlı tarixçinin yaratdığı salnamənin hərtərəfli tədqiq edilməsi tariximizin iki mürəkkəb əsrinin öyrənilməsində olduqca səciyyəvidir, ona görə ki, bu əsərdə hələ az araşdırılmış dövrlərdən biri olan XV – XVI əsrlərə dair bol material vardır; salnamədə qaraqoyunlu-ağqoyunlu, ağqoyunlu-səfəvi münasibətləri yaxşı işıqlandırılmış, Şirvan və Şəkinin tarixinə dair zəngin məlumat verilmişdir; müəllif 1405 – 1578-ci illərdə Azərbaycana qonşu dövlətlər haqqında da orijinal material vermişdir ki, bunlar Azərbaycanın

---

[1] Источниковедение. Теоретические и методические проблемы, М., 1969, səh. 14.

həmin dövlətlərlə olan münasibətini aydınlaşdırmağa imkan yaradır; Həsən bəy Rumlu orta əsr tarixçilərinə xas təmtəraqlı ibarələr işlətmək ənənəsindən nisbətən uzaq olduğundan quru sözcülüyə az uyur və hadisələrin konkret ifadəsinə çalışır; əsər dilinin sadəliyinə görə də başqa mənbələrdən fərqlənir; hadisələrin təsvirində xronoloji ardıcıllığa riayət olunmuşdur; mənbədə məşhur şəxsiyyətlər, o cümlədən şairlər, tarixçilər, alimlər haqqında bioqrafik qeydlər edilmişdir; dünyanın bir çox şərqşünasının "Əhsənüt-təvarix"ə dönə-dönə müraciət etməsi faktı da onun əhəmiyyətini göstərən amillərdən biridir; ancaq salnamənin tarixşünaslıqda çoxdan bəlli olmasına və ondan geniş istifadə edilməsinə baxmayaraq, indiyədək bu mənbənin həqiqi qiymətinin verildiyi monoqrafik elmi-tədqiqat işi yoxdur. Məhz bu səbəblərə görə həmin əsər bizim tərəfimizdən xüsusi tədqiqat obyekti kimi seçilmişdir.

Həsən bəy Rumlu öz dövründən qabaq baş verən hadisələri qələmə alarkən, özündən əvvəlki tarixçilərin kitablarından kor-koranə istifadə etməmiş, əxz etdiyi kiçik bir əhvalatı belə diqqətlə öyrənmiş, hadisələrin təsvirinə əsasən tənqidi yanaşmış, yeri gəldikcə, bəzi müəlliflərin diqqətsizliyini də göstərmişdir. O, hətta mümkün qədər keçmiş döyüşçülərlə də görüşmüş, onların məlumatlarından səmərələnmişdir. Həsən bəy Rumlu görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini işıqlandırarkən, tutduqları mövqedən asılı olmayaraq, onların bəlli müsbət və mənfi xüsusiyyətlərini obyektiv təsvir etməyə çalışır. Məsələn, I Şah Təhmasibin adət və xasiyyətindən bəhs edən müəllif onun xəsisliyini də göstərməkdən çəkinməmişdir. Həsən bər Rumlu II Şah İsmayılın qəddar, sərt və rəhmsiz bir şəxsiyyət olduğunu da nəzərə çatdırır.

Həsən bəy Rumlunun yaşadığı dövrdə Azərbaycanda nisbətən qüdrətli Səfəvi dövləti yaradılsa da, sinfi mübarizə kəskinləşir, feodal araçəkişmələri yenə də davam edirdi. Hələ XV əsrdə Teymuri və başqa yadellilərin Azərbaycana tez-tez etdikləri yürüşlər nəticəsində, onsuz da, var-yoxdan çıxarılan xalq, eyni zamanda yerli əyan və ruhanilər tərəfindən soyulurdu. Lakin göstərmək lazımdır ki, Həsən bəy Rumlunun bilavasitə fəaliyyətdə olduğu vaxtlarda başqa dövlətlərin, xüsusilə Osmanlı dövlətinin Azərbaycana hücumları dayandırılmış, 1555 – 1557-ci illər nisbətən sakitlik dövrü olmuşdur. Ancaq I Şah Təhmasib yerli qüvvələri səfərbərliyə alaraq, vaxtaşırı ətraf vilayətlərə hücum edir, nəticədə saysız-hesabsız tələfat baş verir, şəhər və kəndlər dağıdılır, yandırılırdı. Qızılbaşların kürdlər və gürcülər üzərinə etdiyi qarətçi yürüşlər və Həsən bəy Rumlunun şəxsi müşahidələri əsasında onun sonradan qələmə aldığı salnamədə öz əksini tapmışdır.

"Əhsənüt-təvarix"in öyrənilməsində hələ indiyədək tam həll olunmayan bəzi mübahisəli məsələlər vardır. Onlardan biri vaxtilə salnaməni təşkil etmiş cildlərin sayını və dövrümüzə qədər gəlib çatmayan 8 cildin həqiqətən də bir zamanlar olduğunu aydınlaşdırmaqdır. Eyni zamanda Həsən bəy Rumlunun bir tarixçi kimi yaxşı üslubu, dünyagörüşü, həyatı haqqında məlumat vermək də bu sətirlərin müəllifinin məqsədlərindən biridir.

İctimai vəziyyətinə görə Həsən bəy Rumlu yüksək feodal təbəqəsinə mənsub olmuşdur. Buna görə də, təbiidir ki, "Əhsənüt-təvarix" əsərində, əsasən, feodal sinfinin mənafeyi müdafiə edilmiş, xalq kütlələrinin apardığı mübarizəyə mənfi münasibət bəslənilmişdir. Müəllif buna görə də, mənbənin tədqiq edilməsinə sinfi baxımdan yanaşmağı qarşısında duran əsas məsələlərdən biri hesab etmişdir.

Monoqrafiya üzərində işlənərkən Azərbaycanın XV – XVI əsrlər tarixinə aid əksər tarixi mənbələrdən də səmərəli şəkildə istifadə edilmişdir. Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Şirvan və Şəki hökmdarlarının şəcərə cədvəlləri, müxtəlif tayfa və qəbilə adları, bir çox islahatlar və Həsən bəy Rumlunun işlətdiyi Azərbaycan sözlərinin siyahısı kitabın sonuna əlavə edilmişdir.

Əsərin yazılması və çapa hazırlanmasında Azərbaycan SSR-in əməkdar elm xadimi, Azərbaycan SSR EA-nın akademiki Ə.Ə. Əlizadənin, prof. İ.P. Petruşevskinin, tarix elmləri namizədi O.F. Akimuşkinin, Azərbaycanın XIII – XVIII əsrlər tarixi" şöbəsinin əməkdaşlarından tarix elmləri doktorları O.Ə Əfəndiyevin, Ə.Ə. Rəhmaninin, M.X. Heydərovun, tarix elmləri namizədləri S.M. Onullahinin və V.Z. Piriyevin bir sıra qeyd və arzuları nəzərə alınmışdır. Müəllif onlara öz dərin minnətdarlığını bildirir.

# I FƏSİL

## HƏSƏN BƏY RUMLUNUN HƏYATI VƏ ONUN "ƏHSƏNÜT-TƏVARİX" ƏSƏRİ

Azərbaycanın tarixçisi Həsən bəy Rumlunun həyatı haqqında məlumat olduqca azdır. "Əhsənüt-təvarix" və onun müəllifinin fəaliyyəti ilə B.A. Dorn [105, 227 - 278], V.Xanıkov [104, 26], Ç.Riyö [117, 36 - 37], Ç.N. Seddon [120, 307 - 313], V.Minorski [111, 449 - 455], Ç.A. Stori [121, 306 - 308], Məhəmməd Möhsün [100, 287], A.A. Romaskeviç [42, 8 - 10], İ.P. Petruşevski [39, 27 – 30; 40, 249], M. Abidova [25,5], M.X. Nemətova [10, 62], O.Ə. Əfəndiyev [52, 17 - 18], C. İbrahimov [30, 9], S. Nəfisi [85, 223 - 224], Ə. Hayeri [86, 1069] kimi onlarca şərqşünas alim maraqlanmış və fikirlər söyləməyə çalışmışlarsa da, özü barədə müəllifin yazdıqlarından əlavə bir şey əldə edə bilməmişlər. Lakin Həsən bəy Rumlunun tərcümeyi-halını ətraflı işıqlandırmağa səy edən İran tədqiqatçısı Ə.H. Nəvayinin "Əhsənüt-təvarix"in Tehran nəşrinə yazdığı "Müqəddimə" xüsusilə qeyd olunmalıdır [66, 13 - 32].

İstər Həsən bəy Rumludan əvvəl, istərsədə sonra yaşamış bir sıra orta əsr tarixçiləri, o cümlədən də "Əhsənüt-təvarix" əsərinin müəllifi barədə ətraflı məlumatın olmaması heç də təəccüb doğurmamalıdır, çünki o dövrün ədəbiyyatında əsasən hökmdarların həyatı qələmə alınır, fəaliyyəti hərtərəfli işıqlandırılırdı. Məhz bu səbəbdən də, başqaları haqqında cildlərlə əsər yaradan bir

çox tarixçinin tərcümeyi-halı kölgədə qalır, onlar haqqında yalnız kiçik qeydlər edilirdi.

Azərbaycanın rumlu qəbiləsindən olan və sonralar bu qəbilənin adı ilə tanınan Həsən bəy Rumlu hicri 937-ci ildə (1530/31) Qum şəhərində anadan olmuşdur [65, 238][2]. O, ehtimal ki, hələ kiçik ikən atasını itirmişdir. Müəllif əsərinin heç bir yerində atasının kimliyi, onun cəmiyyətdəki mövqeyi və s. cəhətləri barədə danışmamış, ancaq dəfələrlə babası Əmir sultan Rumlunu xatırlamışdır. Belə ki, 943 (1536/37)-cü ildə I Şah Təhmasibin (hakimiyyət illəri: 1524 – 1576) fərmanı ilə Gilana hakim təyin edilən Bəhram Mirzə (I Şah Təhmasibin kiçik qardaşı) gilanlıların ona qarşı müxalifəti nəticəsində məğlub olaraq Qəzvinə gəldiyi vaxt Həsən bəy Rumlu öz anası ilə "Əmir sultan Rumlunun əcdadına tiyul[3]" kimi verilən həmin şəhərdə yaşayırdı [65, 278]. Əgər o zamanlar öz yaşlı Həsənin atası sağ olsaydı, oğlu onu xatırlar və sonralar qələmə alacağı salnamədə adını çəkərdi. Şahzadə Bəhram Mirzənin Qəzvində öz ailəsi tərəfindən qarşılanması barədə Həsən bəy Rumlu belə yazmışdır: "Bu sətirlərin müəllifi Həsən bəy Rumlu o vaxtlarda Qəzvində idi... Anamla onu qarşıladıq və şahanə çadırlar, pul, yaxşı atlar və qiymətli mallar verdik" [65, 278]. Həsən bəy ailəsinin səfəvi şahzadəsinə verdiyi zəngin əşyalara bu nəslin varlı təbəqəsinə mənsub olduğunu göstərir.

946 (1539\40)-cı ildə Həsən bəy Rumlunun həmişə adı ilə fəxr etdiyi babası vəfat etdi [65, 278]. O, vaxt hələ yeniyetmə olan gələcək qorçi (xüsusi şah alayının döyüşçüsü) və tarixçi, Əmir sultan Rumlunun vəfatına qədər heç bir mülki, ya hərbi xidmətdə olmamış, baba və anasının himayəsində yaşamışdı. Babasının ölümü isə onun sakit həyatında mühüm dəyişiklik yaratdı və o, özünün dediyi kimi, "qorçilik möhnətinə giriftar oldu" [65, 295].

Gənc Həsən bəyin hərbi xidmətdə keçirdiyi iki ildə elə bir mühüm hadisə olmamış və onun bu vaxt ərzində fəaliyyəti əsərdə xatırlanmamışdır, lakin 948 (1541/42)-ci ildə I Şah Təhmasibin qorçiləri sırasında o, səfəvi qoşununa tabe olmaqdan boyun qaçıran Xuzistan valisi Əlaüddövlə İsmayılın cəzalandırılmasından ötrü Dizful şəhərinə tərəf hərəkət etmiş və 980 (1572/73)-ci ilədək səfərlərdə "əzəmətli ordu ilə getmiş və hadisələrin çoxunu şəxsən müşahidə etmişdir" [65, 301].

I Şah Təhmasib hərbi səfərlərini davam etdirdikcə Həsən bəy Rumlu da onu müşayiət edir, qorçilər sırasında döyüşürdü. 953 (1546/47)-cü ilin qışında I Şah Təhmasib Gürcüstana hücum etmək fikrinə düşdü. Həsən bəy Rumlunun göstərdiyi birinci igidliklə bu yürüş vaxtı tanış oluruq. "O vaxt Əmir sultan Rumlunun nəvəsi Həsən bir dəstə rumlu və çəpəni (tayfa adıdır – Ş. F) qorçiləri ilə

---

[2] Ç.N. Seddon, Ç.A. Stori, İ.P. Petruşevski və O.Ə Əfəndiyev yuxarıda adları çəkilən əsərlərində Həsən bəy Rumlunun h. 938-ci ildə doğulduğunu qeyd etmişlər. Halbuki müəllifin özü h. 937-ci ildə doğulduğunu bildirmişdir.

[3] Bu qeyri-irsi feodal torpaq mülkiyyəti forması haqqında aşağıda məlumat veriləcəkdir.

amansız kəbrlər dəstəsinə düçar oldu. Bu həqir[4] Şahqulu adlı bir çəpəni qorçi ilə hücum etdi. Onları dağıdıb bir hissəsini yaraladıq və öldürdük. Bir neçə əsir tutub qayıtdıq" [65, 316].

Həsən bəy Rumlunun göstərdiyi ikinci hünər bu hadisədən 4 il sonra baş vermişdir. 957 (1550/51)-ci ildə Kürdüstanın Şəhrizur şəhərinin valisi Bəgə Ərdalan bir dəstə döyüşçü ilə qızılbaşların əlində olan Sürxab qalasının yaxınlığına gəlib çıxmışdır. Bunu eşidən I Şah Təhmasib Bəgənin üstünə qoşun yollayır. "Əhsənüt-təvarix"də oxuyuruq: "O gün bu sətirlərin müəllifi olan Həsən Rumlu Zülm (?) qalasına yaxın olan bir təpədə bir dəstə kürdlə vuruşdu... Bir kürd... Şahverdi bəyi tutmaq istədikdə, bu həqirin yoldaşı Hüseynqulu xəlifə fəryad etdi: "Ey cavanlar, ya döyüşün, ya da qadın paltarı geyinin". Ancaq onlar elə qorxmuşdular ki, atlardan düşüb, özlərini yüz məşəqqətlə dağdan atdılar. Bu fəqir Hüseynqulu xəlifə ilə hücuma keçərək kürdləri dağıtdı və Şahverdi bəyi ata mindirib geri qayıtdı. Qorçiləri təqib etməkdə olan 40 nəfər kürdlə vuruşa-vuruşa aradan çıxdıq [65, 345 - 346]".

"Əhsənüt-təvarix" salnaməsini yüksək qiymətləndirən tarixçi İsgəndər bəy Münşi Hindistan padşahı Hümayunun (hakimiyyət illəri: 1530 - 1555) 951 (1544/45)-ci ildə səfəvi sarayına gələrək, I Şah Təhmasibə qiymətli hədiyyələr təqdim etdiyi vaxt Həsən bəy Rumlunun da həmin məclisdə iştirak etdiyini bildirir [59, 99], lakin bizim müəllif nədənsə bu məclisdəki iştirakı barədə məlumat verməmişdir.

"Əhsənüt-təvarix"dən məlum olur ki, Həsən bəy Rumlu elm öyrənməklə də məşğul olmuşdur: "Bu sətirlərin müəllifi o böyük şəxsin (Mövlana ƏbülHəsənin – Ş. F) hüzurunda təcrid elmini öyrəndi" [65, 411]. Həsən bəy Rumlu alim Cəmaləddin Mahmud Şirazinin yanında bədii sənətin bir sahəsi olan şəmsiyyəni öyrəndiyini də xatırlamışdır [65, 142].

I Şah Təhmasibin vəfatına qədər sarayda yaşayıb, öz əsərini yazmaqla məşğul olan müəllif, səfəvi şahları tarixində ən qəddar bir şahın – II Şah İsmayılın hökmranlığı zamanı (1576 – 1577) baş verən hadisələri kənardan izləmiş, salnamənin davamı üçün məlumat toplamış və II Şah İsmayılın öldürülməsindən bir qədər əvvəl 985 (1577)-ci il hadisələrini də qələmə almışdır.

Həsən bəy Rumlu öz çoxcildli əsərinin sonuncu cildini İsmayıl Mirzəyə (II Şah İsmayıla) ithaf etmişdir. Bu haqda onun belə bir qeydi vardır: "Bu pərişan kəlmələrin müəllifi... Həsən bu cildi də gənc şahzadə İsmayıl Mirzənin adına yazmışdır" [65, 1].

Ə. Nəvayi Həsən bəy Rumlunun II Şah İsmayılın tərəfdarı olduğunu bildirir [66, 18, 20], lakin Həsən bəyin özü bu haqda susmuşdur. II Şah İsmayıl dövründə bizim tarixçinin Səfəvi dövlətinin paytaxtı Qəzvində yaşayıb-yaşamaması da müəyyən deyildir.

---

[4] Əsərdə ara-sıra təsadüf olunan "bu həqir, bu fəqir" ifadələri müəllifin özünə aiddir.

I Şah Təhmasibin vəfatından sonra Həsən bəy Rumlu doğulduğu Qum şəhərinə gedir. Onun harada qaldığı müddət barədə dəqiq məlumat yoxdur. Yalnız 985 (1577)-ci ildə taxta əyləşməkdən ötrü Qəzvinə gedən Məhəmməd Xudabəndənin hüzuruna gələn müəllifin şah tərəfindən hörmətlə qarşılanması və "şaha yaxın adamlar" zümrəsinə daxil edilməsi məlumdur [65, 500].

Yuxarıda qeyd olunduğu kimi, "Əhsənüt-təvarix"dəki hadisələrin təsviri 985 (1577/78)-ci ili də əhatə etdikdən sonra qırılır və əsər natamam qalır. Təəssüf ki, Həsən bəy Rumlunun nə qədər yaşaması və salnaməni nə səbəbə tamamlaya bilməməsi barədə hələlik heç bir məlumat yoxdur.

"Əhsənüt-təvarix"dən bəhs edərkən, hər şeydən əvvəl, onun cildərinin miqdarı haqqında danışmaq lazımdır. Bu məsələ xüsusunda bir neçə fikir vardır:

1. Əsər 12 cilddən ibarət olmuşdur.
2. Əsər 12 cilddən ibarətdir və sonuncu 11-ci cilddir.
3. Əsər 10 cilddə (yaxud hissədə) qələmə alınmışdır.

Birinci fikrin tərəfdarları sırasında İ.P. Petruşevski [39, 28], M. Abidova [25,5], M.X. Nemətova [10, 62], O.Ə. Əfəndiyev [52, 17], . C.M. İbrahimov [30,9], S.B. Aşurbəyli [27, 8], S.M. Onullahi [11, 36] istifadə etmiş olduqları cildlərin XI və XIII cildlər olduğunu göstərmişlər. İranda nəşr olunan "Rahnoma-ye ketab" məcəlləsində də "Əhsənüt-təvarix"in Ç.N. Seddon tərəfindən edilən nəşrinin XII cild olması və əsərin XI cildinin 1349-cu ildə (1970) Tehranda çap etdirilməsinə dair məlumat dərc olunmuşdur [70, 179]. Lakin salnamənin cildləri haqqında birinci fikri sübuta yetirən dəlilə istər onun Leninqraddakı əlyazma nüsxəsində, istərsə də Ç.N. Seddon nəşrində təsadüf olunmur, əksinə, Həsən bəy Rumlu I Şah İsmayılın həyat və fəaliyyətinin təsvirinə başlayarkən, qələmə aldığı cildin X cild olduğunu göstərmişdir ki, bu barədə bir qədər sonra danışılacaqdır. Bəs nəyə əsasən tədqiqatçıların əksəriyyəti "Əhsənüt-təvarix"in əldə olan cildlərini XI və XII cildlər olduğunu söyləmişlər?

Məlumdur ki, sovet alimlərindən ilk dəfə İ.P. Petruşevski bu salnamənin 12 cild olduğunu bildirmiş, lakin fikrini əsaslandırmamışdır. O, həmçinin bizimdə istifadə etdiyimiz "Əhsənüt-təvarix"in Leninqrad əlyazma nüsxəsinə və əsərin Ç.N. Seddon nəşrinə müraciət etmişdir, lakin onun fikrini təsdiq edə biləcək məlumat həmin nüsxələrin heç birində yoxdur. Ehtimal ki, İ.P. Petruşevskidən sonra "Əhsənüt-təvarix"ə müraciət edən tədqiqatçılar da onun fikrini əsas tutaraq, əsərin 12 cilddə yazıldığını göstərmişlər.

"Əhsənüt-təvarix" əsərinin cildləri barədə söylənən ikinci fikir M.İ. Şəmsinindir. O yazır: "Əsər 12 cilddən ibarətdir. Lakin onun yalnız 10 və 11-ci cildləri dövrümüzə qədər gəlib çatmışdır" [24, 9]. Həsən bəy Rumlu və "Əhsənüt-təvarix" əsəri haqqında olan müxtəlif mənbə və tədqiqat əsərləri araşdırılarkən, biz heç yerdə M.İ. Şəmskinin bu fikrini təsdiq edə biləcək fakta rast gəlmədik. M.İ. Şəmsi sözünə davam edərək yazır: "Əhsənüt-təvarix" kitabı 1931 – 1934-cü illərdə Çarlz Seddon tərəfindən tərtib edilərək iki cilddən ibarət çap olunmuşdur. 1495 –

1577-ci illər hadisələrindən bəhs edən 2-ci cilddə Kürdüstan tarixi haqqında daha ətraflı məlumat verildiyi üçün tədqiqat işimizdə, əsasən, həmin cilddən istifadə etmişik [24, 9]. Onun dediyindən belə çıxır ki, Ç.N. Seddon əsərin hər iki cildini çap etdirmişdir. Ancaq məlum olduğu kimi, bu belə deyildir. Salnamənin yalnız bir cildi Ç.N. Seddon tərəfindən nəşr etdirilmişdir. M.İ. Şəmsinin 2-ci cild kimi qələmə verdiyi kitab isə, əsərin Ç.N. Seddon nəşrinin ingilis dilinə müxtəsər tərcüməsidir.

"Əhsənüt-təvarix"in cildləri haqqında irəli sürülmüş üçüncü fikir isə A.A. Romaskeviçə məxsusdur. O, əsərin Leninqrad əlyazma nüsxəsinə əsasən məlum cildlərin XI və XII yox, IX və X cildlər olduğunu bildirmişdir [42, 8]. Doğrudur, bu barədə ondan çox-çox əvvəl B.A. Dorn məlumat vermişdir, lakin o onları IX və X cildlər deyil, hissələr kimi göstərmişdir [105, 277].

Beləliklə, "Əhsənüt-təvarix" əsərinin Leninqrad əlyazma nüsxəsinə əsasən, demək olar ki, bu salnamə 10 cilddə yazılmışdır. Belə ki, Həsən bəy Rumlu əsərin X cildinin əvvəlində üzərində işlədiyi cildin X cild olduğunu bildirərək yazır: "Əhsənüt-təvarix"in X cildində Şah İsmayılın dövləti idarə etmək istəməsi... barədə yazılmışdır" [64, 117].

Əgər aralarında olan bəzi kiçik fərqləri nəzərə almasaq, görmək olar ki, "Əhsənüt-təvarix"in Ç.N. Seddon tərəfindən nəşr edilən mətni Leninqrad əlyazma nüsxəsinin müvafiq cildinin eynidir, lakin bu nəşrdə əsərin əlyazma nüsxəsində olan "X cild" sözü yazılmadığından onun neçənci cild olduğu göstərilməmişdir.

V. F. Minorski "Əhsənüt-təvarix"in Ç.N. Seddon nəşrindən üç il sonra həmin nəşr haqqında rəy yazmış və naşirin bu sahədə etdiyi xidməti yüksək qiymətləndirmişdir, lakin tədqiqatçı salnamənin başqa əlyazma nüsxələrindən istifadə etmədiyindən əsərin neçə cild olması xüsusda fikir söyləməmişdir [110, 449 - 457]. Ç.N. Seddonun özü də "Əhsənüt-təvarix"in əvvəlki cildləri barədə söz açmasına baxmayaraq, nəşr etdiyi cildin neçənci olduğunu bildirməmişdir [120, 311]. Elə buna görə də, alman şərqşünası V. Hins II Şah İsmayılın həyatına həsr etdiyi monoqrafiyada əsas mənbələrdən biri kimi istifadə etdiyi "Əhsənüt-təvarix"in (Ç.N. Seddonun nəşrinin) neçənci cild olmasını göstərməmişdir [108]. E. Qlasen isə Qazi Əhməd Quminin "Xülasətüt-təvarix" ("Tarixçilərin xülasəsi") kitabı əsasında qələmə aldığı tədqiqat əsərində "Əhsənüt-təvarix"in son cildlərinin XI və XII cildlər olduğunu bildirmişdir [108, 17]. İngilis tədqiqatçısı Ç.A. Stori də birinci fikrin tərəfdarları sırasındadır [121, 306]. "Əhsənüt-təvarix" əsərinin cildlərinin miqdarı və əlimizdə olan cildlərin neçənci olduğu barədə birinci fikrin tərəfdarları çoxluq təşkil edirlərsə də, Həsən bəy Rumlunun yaşadığı dövrdən az sonra üzü köçürülən [42, 8] salnamənin Leninqrad nüsxəsindəki həmin cümlə əlimizdə sanballı bir sübut olduğundan, biz də əsərin cəmi 10 cilddə yazıldığı fikrinin tərəfdarıyıq.

"Əhsənüt-təvarix" in son IX və X cildlərindən başqa yazılmış ilk cildlərin taleyi barədə hələlik heç bir məlumat yoxdur, lakin dövrümüzə gəlib çatmayan

həmin cildlərin bəziləri haqqında müəllifin özü, yeri gəldikcə, məlumat verir. O, salnamənin X cildinin sonunda bir çox vilayətlərin təfsilatını əsərin əvvəlki cildlərində qələmə aldığını göstərmişdir [65, 460]. Bundan başqa, müəllif VI cild haqqında yalnız bir yerdə məlumat vermiş [65, 141], VII cildi isə iki dəfə xatırlatmışdır [65, 141, 495]. Əsərin VI cildi haqqında Həsən bəy Rumlunun verdiyi məlumat belədir: "VI cilddə yazıldığı kimi, onun əlini kəsdikləri üçün (xəttatlığı) öz qızına öyrətdi" [65, 141]. Bu cümlədə haqqında danışılan şəxs məşhur xəttat İbn Müqlədir. Onun yaşadığı illəri müəyyən etməklə "Əhsənüt-təvarix"in VI cildinin təxminən hansı dövrü əhatə etmiş olduğunu söyləmək olar. Əgər İbn Müqlənin 272 (885/86)-cı ildə təvəllüdünü və 328 (939/40)-ci ildə öldüyünü nəzərə alsaq, belə nəticəyə gəlmək olar ki, əsərin VI cildi 10 və 11-ci əsrlərin müəyyən illərini əhatə edibmiş.

Əsərinin VII cildini isə Həsən bəy Rumlu belə xatırladır: 1. "Ondan sonra Abbasi xəlifəsi Müstəsimin qulu Yaqut (xəttat) oldu. Onun haqqında da VII cilddə yazılmışdır" [65, 141]. 2. "Nadir hadisələrdəndir ki, Misir padşahı İsmayıl ibn Hafizəddinüllah da özünün Nəsir adlı bir cavan (oğlanı) tərəfindən bu cür öldürüldü. Onun haqqında VII cilddə təfsilatı ilə yazılmışdır" [65, 495]. Həsən bəy Rumlunun birinci cümlədə işarə etdiyi şəxs xəttat Yaqur Qulamdır. O, Qazan xanın hakimiyyəti dövründə (1295 – 1304) yaşı yüzü ötdükdən sonra vəfat etmişdir [14, 48]. Bu xəttatın yaşadığı illərə əsasən VII cilddə 12 və 13-cü əsr hadisələrinin işıqlandırıldığı təxmin edilə bilər.

Əgər salnamənin VI cildinin 10, 11, VII cildinin isə 12, 13-cü əsrləri əhatə etdiyini nəzərdə tutsaq, bu qənaətə gəlmək olar ki, VIII cild XIV əsrlə bağlı olmuşdur. IX əsrin 15, X cildinsə 16-cı əsrə aid olduğu məlumdur. Bunlardan bir daha təsdiq edilir ki, Həsən bəy Rumlu salnaməni 12 yox, 10 cilddə yazmışdır.

"Əhsənüt-təvarix"in əvvəlki cildlərinin bir zamanlar mövcud olmasının müəllifdən başqa heç kim tərəfindən göstərilməməsi və habelə onların dövrümüzə gəlib çatmaması həmin cildlərin bir vaxtlar həqiqətən də mövcudluğu fikrinə qarşı şübhə oyatmamalıdır, çünki göstərdiyimiz kimi, Həsən bəy Rumlu əsərinin əvvəlki cildləri haqqında elə inamla məlumat vermişdir ki, ona inanmamaq üçün əlimizdə heç bir əsas yoxdur.

Şərqşünas alimlərdən F. Tauer [66, 26] və F. Sümer [56, müqəddimə] isə "Əhsənüt-təvarix"in son iki cildindən əlavə qələmə alındığı güman edilən əvvəlki cildləri barədə öz fikirlərini bildirərək bunların əslində yazılmadığını söyləmişlər. Çoxcildli bir salnamə kimi yazılan "Əhsənüt-təvarix" barədə düşünərkən, həqiqətən də, qarşıya belə bir sual çıxmaya bilməz: Əgər salnamənin əvvəlki 8 cildi, doğrudan da, bir zamanlar mövcud olmuşdursa, nə üçün həmin cildlər müəllifdən başqa heç bir orta əsr tarixçisi tərəfindən xatırlanmamışdır?

Məlumdur ki, tarixi əsərin qiyməti onun yazıçı yaşayan dövr hadisələrini əks etdirən ilkin mənbə olmasındadır. Məsələyə bu baxımdan yanaşdıqda, "Əhsənüt-təvarix" əsərinin yalnız X cildi dövrün ilk mənbəyi sayıla bilər, çünki

həmin cilddə öz təsvirini tapan hadisələr müəllifin öz dövrünün və nisbətən ona yaxın olan dövrün hadisələridir. Əsərin əvvəlki cildlərinin bizim dövrə kimi çatmamasının səbəbi bizim fikrimizcə, həmin cildlərdə qələmə alınmış hadisələrin "Mətləüs-sədeyn və məcməül-bəhreyn" [80], "Kitab-i Diyar-bəkriyyə" [56], "Rövzətüs-səfa" [95], "Həbibüs-siyər" [84] və başqa əsərlərdən əxz edilməsindədir. Ç.N. Seddon hələ 1927-ci ildə "Əhsənüt-təvarix"in əvvəlki cildlərinin həqiqətən də yazılmış olduğunu göstərmişdir [120, 311]. Ə. Nəvayi də "Mən inanmıram ki, Həsən Rumlu əvvəlki cildləri yazmamış olsun, çünki onun özü kitabının əvvəlki cildləri barədə məlumat vermişdir" [66, 27] fikrini söyləyib, əvvəlki cildlərin də bir vaxtlar mövcud olduğunu ehtimal etmişdir.

Həsən bəy Rumlu özündən əvvəlki dövr hadisələrini əks etdirən tarixi əsərlərdən kor-koranə istifadə etməmiş, yeri gəldikcə, onların bəzisinə düzəlişlər vermiş, hadisələrin yazılışı zamanı dəqiqliyə riayət olunmasını arzulamışdır. Məs., "Həbibüs-siyər" əsərinə tənqidi yanaşan Həsən bəy Rumlu 913 (1507/08)-cü ildə I Şah İsmayılın ona düşmən olan Əlaüddövlə Zülqədər üzərinə etdiyi yürüş vaxtı onların arasında üç gün döyüş getdiyini yazan Xandəmirin məlumatını [84, 489 – 490] təkzib etmiş, döyüşün Əlaüddövlə ilə yox, onun oğlu Sarı Qaplanla (Qasımla) baş verdiyini bildirmişdir [65, 94].

Yeri gəlmişkən qeyd edək ki, İskəndər Münşi də bu məsələdən bəhs etmiş, Xandəmir və Həsən bəy Rumlunun bu xüsusda verdikləri məlumatları araşdırmış və döyüşün Əlaüddövlə Zülqədərlə deyil, onun oğlu ilə I Şah İsmayıl arasında baş verdiyini bildirmiş, Həsən bəy Rumlunun fikrini qəbul etmişdir [59, 32].

"Həbibüs-siyər"i "faydalı kitab" adlandıran bizim müəllif [65, 161] eyni zamanda ondakı bəzi səhvlərə də laqeyd qala bilmir. O, Xandəmirin başqa bir səhvini də tutaraq, osmanlı sultanı Səlim ilə Misir padşahı Sultan Qansu arasında 921 (1514/15)-ci ildə olmuş döyüşün nəticəsini belə şərh edir: "Sultan Qansu vəziyyəti belə görüb, döyüşdən əl çəkərək, qaçmağa doğru üz tutdu. Rumiyyə (osmanlılar – Ş.F) onları izləyib, böyük bir dəstəni məhv etdi. Döyüş meydanında Sultan Qansunun meyidini tapdılar... Qəribədir, faydalı "Həbibüs-siyər" kitabının müəllifi yazmışdır ki, Sultan Qansu təbii ölümlə öldü və Sultan Səlim o diyarı döyüşsüz aldı. Ancaq bu sətirlərin müəllifi Həsən Rumlu, həmin döyüşdə olan on nəfərdən çox igidlə görüşərək, onlardan döyüşün şərhini xəbər almışdır. (Hadisə) biz yazdığımız kimidir" [65, 161 - 162].

Böyük bir kitab yazan tarixçinin bəzi hallarda səhvə yol verməsi mümkündür. Bizim müəllifi narahat edən əsla bu deyildir. Onun narahatlığına səbəb Xandəmirin özünün yaşadığı və bilavasitə şahidi olduğu dövr hadisələrində müəyyən diqqətsizliyə yol verməsidir. Həsən bəy Rumlu yuxarıda göstərilən hər iki misalda məhz o dövrdə yaşadığı halda bəzi hadisələri səhv izah etdiyi üçün Xandəmiri tənqid etmişdir [65, 161]. Beləliklə, bir daha aydın olur ki, Həsən bəy

Rumlu əsərini yazarkən dəqiq olmağa çalışmış, eyni zamanda başqa tarixçilərin əsərlərinə də tələbkarlıqla yanaşmışdır.

"Əhsənüt-təvarix"də müəllifin başqa bir düzəlişinə də rast gəlirik. Həsən bəy Rumlu bəzi tarixçilərin ağqoyunlu padşahı Uzun Həsənin (hakimiyyət illəri: 1453 – 1478) qardaşı oğlu Murad bəyin adını səhvən Yusif bəy yazdıqlarını göstərmişdir [64, 166a].

Salnaməni mütaliə etdikcə əsərini yazarkən Həsən bəy Rumlunun həm tarixi kitablara müraciət etdiyini, həm də bir sıra hadisələrin şahidləri ilə görüşüb söhbət etdiyini aydınlaşdırmış oluruq. Müəllif əsərdə tez-tez belə qeydlər edir: "Bu sətirlərin müəllifi bəzi adamlardan eşitdi ki, ... [64, 140b]. "Bu sətirlərin müəllifi həmin sülalədən 6 nəfər tapdı" [64, 128a], "Tarix kitablarında o tayfadan 4 nəfər tapdıq" [65, 156], "Doğru danışan adamlar deyirlər ki..." [65, 284 - 285], "Bəziləri bu əhvalatı belə danışıblar ki..." [65, 28] və s. Bunlar bir daha sübut edir ki, "Əhsənüt-təvarix" əsəri Həsən bəy Rumlunun gərgin əməyi və ciddi axtarışları sayəsində yaranmışdır.

Salnamənin faydalı cəhətlərindən biri də onun məşhur dövlət xadimləri, tarixçilər, şairlər, alimlər və başqa görkəmli şəxslər haqqında məlumat verməsindədir. Əsərdə Azərbaycan şairlərindən İmadəddin Nəsimi [66, 210 - 211], Cahanşah Həqiqi [64, 168b], Ziya Ordubadi [65, 14] və başqa görkəmli simalar barədə fikir söylənilmiş, onların yaradıcılıqlarından bəzi nümunələr gətirilmişdir. Bunlara baxmayaraq, "Əhsənüt-təvarix" müəllifinin I Şah İsmayılın şair olması haqqında fikir deməməsi təəccüb doğurmaya bilməz. Zənnimizcə, I Şah İsmayıl kimi məşhur bir hökmdar və sərkərdənin şairliyini göstərmək və onun döyüş məharəti əvəzinə şeryazma qabiliyyətini tərifləmək Həsən bəy Rumlunun məqsədinə uyğun olmamış və o, bu barədə susmuşdur. Bundan əlavə, ola bilsin ki, şan-şöhrətli bir şahın həmin dövrdə adi şairlər kimi şer yazması şahlıq şəninə yaraşmayan bir əməl sayılmış və "Əhsənüt-təvarix" müəllifi tərəfindən qiymətləndirilməmişdir.

XV əsr Azərbaycan hökmdarı və şairi Cahanşah Həqiqi haqqında salnamədə geniş məlumat vardır[5]. Qaraqoyunlu padşahı Cahanşahın siyasi fəaliyyətini öyrəndikcə və şair Həqiqinin şerlərini mütaliə etdikcə, şah Cahanşahla şair Cahanşah arasındakı fərqin nə qədər böyük olduğu nəzərə çarpır. Cahanşah apardığı döyüşlərdə onlarla şəhəri viran qoymuş, "böyük kiçiyi, qoca cavanı qətl etmişdir" [64, 196a]. Onun şəxsiyyəti barədə Həsən bəy Rumlu belə yazır: "Sitəmkar, başkəsən, zalım, firon xasiyyətli və eyş-işrətə mail bir padşah idi" [64, 196a]. Cahanşah haqqında Dövlətşah Səmərqəndinin də belə bir qeydi vardır: "Etibarsız və pis xasiyyətli bir adam idi. Sərdarları hər bir bəhanə ilə həbs edirdi və

[5] Cahanşah Həqiqinin Azərbaycan dilində yazdığı qəzəl və rübailər bir neçə il bundan əvvəl çapdan çıxmışdır [23].

onun həbsi əbədi zindan demək idi” [73, 547]. Mir Yəhya Qəzvini də Cahanşahın etimadsız, bədxasiyyət, pis əməllərə mail şəxs olduğunu göstərir [96, 122a][6].

“Əhsənüt-təvarix” əsərində xətt və xəttatlar haqqında da maraqlı qeydlər vardır [65, 140 - 142]. Məşhur xətttatlar sırasında Azərbaycan xəttatı Mir Əli Təbrizinin də adını çəkmiş və onun haqqında nisbətən geniş məlumat vermişdir [65, 142].

Salnamədə o zaman müəllifə məlum olan gəmi növləri haqqında da yazılmışdır [65, 37 - 38]. Tüfəngin Avropada icad olunduğunu bildirən Həsən bəy Rumlunun mülahizələri maraq kəsb edir [64, 266b].

Qeyd etmək lazımdır ki, salnamə yazılarkən bəzi məkan adları müəllif tərəfindən dəqiq müəyyənləşdirilmədiyindən sətirlərdə bəzən ad yerinə nöqtələr qoyulmuş və sonradan həmin yerlər doldurulmamışdır [65, 382, 414, 494]. Bununla, Həsən bəy Runlunun dəqiqliyə riayət etdiyi bir daha nəzəri cəlb edir.

Beləliklə, dövrün feodal sinfinə mənsub olan Həsən bəy Rumlunun tərcümeyi-halı və onun tarixi irsinin bütövlükdə öyrənilməsi bir zərurət kimi qarşıya çıxmışdır, çünki “Əhsənüt-təvarix” əsərində təsvir edilən ictimai-iqtisadi və siyasi tarix məsələləri əhəmiyyətli olduğu vıə Azərbaycan tarixçisinin qələmindən çıxdığı üçün olduqca səciyyəvidir.

# II FƏSİL

## “ƏHSƏNÜT-TƏVARIX” ƏSƏRİNİN ÖYRƏNİLMƏSİ

### “Əhsənüt-təvarix”in tədqiq olunma tarixi

Tarixşünaslıqda “Əhsənüt-təvarix” əsərinə XIX əsrin ikinci yarısından etibarən tez-tez müraciət edilməsi özündən əvvəl və sonra yazılan tarixi mənbələr içərisində bu salnamənin xüsusi əhəmiyyəti olduğunu bildirir.

Görkəmli rus şərqşünası B.A. Dorn (1805 – 1881) əsərin ilk tədqiqatçılarından biri olmuşdur. O, “Əhsənüt-təvarix”in qısa məzmununu oxucu və tədqiqatçıların nəzərinə çatdıran ilk alimdir [105, 277 - 278]. B.A. Dorn Xəzər dənizinin cənub sahilində yerləşən vilayətlərin tarixi coğrafiyasına həsr etdiyi müntəxabata 22 müəllifin əsərindən parçalar daxil etmişdir ki, onların arasında

[6] Lakin Həqiqinin “Şerlər” kitabının müqəddiməsində oxuyuruq: “Cahanşah Həqiqi hakimiyyət başına gəldikdən sonra, hər şeydən əvvəl, qanlı müharibələrə son qoymuş və Azərbaycanda Qaraqoyunlu dövlətini möhkəmləndirməyə müvəffəq olmuşdur” [23, 3]. Doğrudur, atası Qara Yusifin (hakimiyyət illəri: 1406 – 1420) yaratdığı dövlətə uzun illər başçılıq edən Cahanşah həmin dövləti möhkəmlətmişdi, lakin yuxarıdakı fikrin müəllifin Lətif Hüseynzadənin yazdığının əksi olaraq, Cahanşah nəinki qanlı müharibələrə son qoymuş, hətta bütün ömrü boyu öz qohum-qardaşı, övladları, qonşu ölkələrin dövlət başçıları ilə vuruşmuş, qanlar tökmüşdür. Şairi şerlərinə görə qiymətləndirmək lazımdır. Onun şəxsiyyət və fəaliyyətinə gəldikdə isə, tarixi faktlarla tanış olmaq və mənbələrin verdiyi məlumatlara istinad etmək gərəkdir.

“Əhsənüt-təvarix” əsərindən də Gilan və Təbəristan tarixinə aid hissələr vardır [106, 375 - 431].

Salnamənin Britaniya muzeyində saxlanılan nüsxəsi haqqında məlumat verən Ç. Riyö müəllif haqqında belə yazır: “Həsən bəy Rumlu 948 (1541/42)-ci ildən 980 (1572/73)-cü ilə qədər Şah Təhmasibin xidmətində olmuş, şəxsən bir çox yürüş və hadisələrdə iştirak etmişdir” [118, 36 - 37]. Oxucunun diqqətini bu məsələyə cəlb edən Ç. Riyö “Əhsənüt-təvarix” salnaməsinin son cildindəki bir sıra hadisələrin müəllif müşahidəsinin məhsulu olduğunu bildirmişdir.

“Əhsənüt-təvarix” və onun müəllifi haqqında nisbətən geniş məlumat verən Ç.N. Seddonun xidməti xüsusilə qeyd olunmalıdır [120, 309 - 311]. O yalnız Həsən bəy Rumlu haqqında məqalə yazmaqla kifayətlənməmiş və bildiyimiz kimi, “Əhsənüt-təvarix”in son cildini Hindistanın Baroda şəhərində nəşr etdirmişdir. Naşir kitabın əvvəlində “Ön söz” yazmış və mətni 3 əlyazma nüsxəsi əsasında tərtib etdiyini göstərmişdir. Ç.N. seddon 1934-cü ildə həmin cildin ingilis dilinə müxtəsər tərcüməsinin də nəşrinə müvəffəq oldu [119].

Başqa bir ingilis şərqşünası E. Braun “Şah Təhmasib dövrünü işıqlandıran” əsas fars mənbəyinin “Əhsənüt-təvarix” olduğunu göstərmişdir [107, 84]. O, salnaməni “gözəl əsər” adlandırır [107, 84 - 85]. E. Braun 942 (1535/36)-cı ildə özbək xanı Übeyd tərəfindən Herat şəhərinin alınması və yerli əhalinin cəzalandırılmasını şərh edərkən Həsən bəy Rumlunun həmin hadisəni əks etdirən qeydlərini misal gətirmiş, məhz onun təsvirinə əsaslanmışdır [107, 94 - 95].

Görkəmli şərqşünas V. F. Minorski “Əhsənüt-təvarix”in Ç.N. Seddon nəşrindən bir qədər sonra bu nəşrə rəy yazmış və Həsən bəy Rumlunun işlətdiyi bir neçə türk (Azərbaycan) istilahının izahını vermişdir [111, 449 - 455]. O, naməlum müəllif tərəfindən yazılan və Səfəvi dövlətinin idarə sistemini təsvir edən “Təzkirətül-müluk” əsərini nəşr edərkən, məynə yazdığı tədqiqat xarakterli “Giriş” və şərhlərdə başqa mənbələrlə yanaşı “Əhsənüt-təvarix”dən də istifadə etmişdir [99]

II Şah İsmayılın həyat və fəaliyyətini yazarkən alman tədqiqatçısı V. Hins üçün “Əhsənüt-təvarix”in son cildi ən mühüm mənbələrdən biri olmuşdur [109, 25, 26...].

Qeyd etmək lazımdır ki, xarici ölkə şərqşünasları “Əhsənüt-təvarix” əsərindən ən çox siyasi hadisələrə aid materialları götürməyə çalışmışlar, lakin sovet tarixşünaslığında bu salnamədən yalnız siyasi tarix məsələlərinin deyil, həmçinin bir sıra ictimai-iqtisadi problemlərin həllində geniş istifadə edilmişdir.

A.A. Romaskeviç “Əhsənüt-təvarix”ə yüksək qiymət vermişdir [42, 9]. O, salnaməni “olduqca lazımlı” bir tarix kitabı adlandıraraq, hər iki cildin qısa məzmununu təsvir etmiş, salnamənin dilinin sadə, lüzumsuz rəngarənglikdən uzaq və şer parçaları ilə zəngin olduğunu göstərir [42, 9 - 10].

“Türkmən və Türkmənistan tarixinə dair materiallar” kitabının II cildində A. K. Arendsin ruscaya tərcüməsi ilə “Əhsənüt-təvarix” əsərindən bəzi hissələr dərc olunmuşdur [42, 56].

İ.P. Petruşevski yazdığı bir sıra məqalə və geniş həcmli əsərlərində Həsən bəy Rumlunun məlum salnaməsindən çox geniş istifadə etmişdir [25, 114 – 152; 36, 153 – 210; 38, 214 - 224]. Onun Azərbaycan və Ermənistanda XVI – XIX əsrin əvvəllərindəki müxtəlif feodal münasibətlərinə həsr olunan sanballı monoqrafiyasının yazılmasında Həsən bəy Rumlunun zəngin məlumatları əhəmiyyətli yer tutur. İ.P. Petruşevskinin fikrincə, I Şah İsmayılın hakimiyyəti illərində baş verən hadisələri qələmə alarkən Həsən bəy Rumlu başqa mənbələrə əsaslanmışdır, lakin I Şah Təhmasib və II Şah İsmayılın həyat və fəaliyyəti dövründə olan əhvalatların təsviri zamanı onun əsəri ilk mənbə, həm də birinci dərəcəli ilk mənbə” sayılır [39, 29]. İ.P. Petruşevski “Həsən bəy Rumlunun əsəri tarixçilər üçün çox qiymətlidir” qənaətinə gəlir [39, 29].

Məlumdur ki, “Əhsənüt-təvarix” əsəri əhatə etdiyi dövrün siyasi hadisələrini işıqlandırmaqla yanaşı, yeri gəldikcə, ədəbiyyat, ədəbi simalar, coğrafi ərazi, incəsənət, mədəniyyət və iqtisadiyyat haqqında da məlumat verir. N. Filroze iqtisadiyyata dair material olan səfəvi dövrü məxəzləri içərisində “Əhsənüt-təvarix” əsərinin də adını çəkmiş, irəli sürdüyü bəzi mülahizələrini əsaslandırmaqdan ötrü bu salnaməyə müraciət etmişdir [50, 88].

“Azərbaycan Səfəvi dövləti və onun banisi Şah İsmayıl” haqqında geniş məlumat olan əsərlərdən biri kimi “Əhsənüt-təvarix” Ş. Məmmədbəylinin də diqqətini özünə cəlb etmişdir [32, 3].

“Salnaməçi Həsən bəy Rumlunun “Əhsənüt-təvarix” əsəri Qərbi İran və Azərbaycan tarixi üçün olduqca əhəmiyyətlidir” fikrini söyləyən M. Abidova ağqoyunlu dövlətinə həsr etdiyi tədqiqat işində bu salnamənin IX cildinin materiallarından geniş istifadə etmiş və “Həsən bəy Rumlunun əsərində başqa mənbələrdə olmayan olduqca qiymətli və orijinal məlumatlar vardır” hökmünü vermişdir. [25, 5].

O. Ə. Əfəndiyev kitab və bir sıra məqalələrində Həsən bəy Rumlunun əsərinə dəfələrlə istinad etmişdir [51, 151 – 180; 52, 18, 19...; 54, 66; 55, 27]. XVI əsrin əvvəllərində Azərbaycan Səfəvi dövlətinin yaranmasına həsr olunan monoqrafiyasında O. Ə. Əfəndiyevin “Əhsənüt-təvarix”in IX cildinə də dəfələrlə müraciət etdiyini görmək olur [52, 18, 49...]. Şah İsmayılın Azərbaycan və İranın rəsmi şahı kimi tanınmasının osmanlı sultanı Bayazid tərəfindən qəbul edilməsi (1504). I Sultan Süleymanın Azərbaycana (1534, 1535, 1548, 1554), qızılbaşların Gürcüstana (1516, 1517, 1521) olan hərbi yürüşlərini və onların hansı illərdə baş verdiyini, XVI əsrdə Azərbaycanın ictimai-iqtisadi vəziyyətini şərh etməkdə, başqa mənbələrlə yanaşı, “Əhsənüt-təvarix”in də müəllifə böyük köməyi dəymişdir [55, 28 - 29].

M.X. Nemətova XIV – XVI əsr şirvan tarixini araşdırarkən şirvanşahların ikinci mərkəzi şəhəri olan Bakının 1500-cü ildə səfəvi qoşunu tərəfindən mühasirəyə alınmasını, I Şah İsmayılın Şirvana hücumunu, şirvanşahların məşhur qalalarını (Gülüstan, Buğurd, Sürxab) və s. Şirvanla bağlı başqa məsələləri öyrənib tədqiq etmək üçün "Əhsənüt-təvarix" əsərindən də istifadə etmişdir [10, 62, 79...]

Ə. Ə. Rəhmani 1571 – 1573-cü il Təbriz şəhər yoxsullarının üsyanı haqqında İskəndər bəy Münşinin verdiyi məlumatın Həsən bəy Rumlunun əsərindən götürüldüyünü yazır [41, 152]. Ə. Ə. Rəhmaniyə görə, XVI əsrin axırı – XVII əsrin əvvəllərində yaşayıb – yaradan Azərbaycan tarixçisi İskəndər bəy Münşi "Əhsənüt-təvarix" əsərini yüksək qiymətləndirmiş və "tarix-i aləmaray-i Abbasi"ni yazarkən Həsən bəy Rumlunun salnaməsinə dəfələrlə əsaslanmışdır [41, 34].

H. H. Zərinəzadə fars dilində əsərlər yaratmış bir sıra azərbaycanlı müəllifin, o cümlədən Həsən bəy Rumlunun da əsərində təsadüf olunan Azərbaycan sözlərinin nahaqdan işlənmədiyini göstərir: "...çünki farsca yazan və danışan hər bir azərbaycanlının yazı və danışığında Azərbaycan dilinə aid bəzi xüsusiyyətlərin əks etdirilməsi şübhəsiz bir faktdır" [7, 146].

"Ağqoyunlular dövlətinin tarixini işıqlandıran mənbələr içərisində orta əsr Azərbaycan tarixçisi Həsən bəy Rumlunun əsəri mühüm yer tutur" deyə yazan C. M. İbrahimov [30, 9] "Əhsənüt-təvarix"in məlumatlarından da səmərələnmişdir.

S.B. Aşurbəyli Bakı tarixi ilə əlaqədar bir sıra məsələlərdə "azərbaycanlı tarixçi Həsən bəy Rumlu tərəfindən yazılan olduqca qiymətli XVI əsr salnaməsi" olan "Əhsənüt-təvarix"ə istinad etmişdir [27, 8, 79].

XV əsr Azərbaycan dövlət quruluşunun öyrənilməsi və o zaman ölkədə olan bir sıra vergilərin müəyyən edilməsi üçün S. M. Onullahi "Əhsənüt-təvarix"in IX cildindən istifadə etmiş, Ağqoyunlu dövlətində əmirül-üməra, əmir, qorçibaşı, sədr, vəzir, divan əmiri vəzifələrinin şərhində bu salnaməyə də əsaslanmışdır [11, 36, 37; 12, 57].

Ə. Rəhimov "Əbdi bəy Şirazi" adlı monoqrafiyasında I Şah İsmayılın qız övladları haqqında məlumatı Həsən bəy Rumludan götürmüşdür [13, 141].

M. X. Heydərov səfəvi hakimiyyətinin ilk dövründə, xüsusilə I Şah Təhmasib zamanında tüfəngçi və topçu dəstələrinin yaranması və odlu silahın yayılmağa başlamasını göstərərkən, Həsən bəy Rumlunun məlum əsərindən də bəhrələnmişdir [28, 25].

Şərəf xan Bidlisinin "Şərəfnamə" əsəri kürd xalqının tarixi mənbəyi kimi" monoqrafiyasının müəllifi M.İ. Şəmsi Kürdüstan tarixi ilə əlaqədar bir çox məsələnin araşdırılmasında tez-tez "Əhsənüt-təvarix"ə əsaslanmışdır. O yazır: "... həmin əsər XVI əsrin digər mənbələrində nisbətən Kürdüstan tarixi haqında həm zəngin və həm də düzgün məlumata malikdir" [24, 8 - 9].

Beləliklə, "Əhsənüt-təvarix" əsərinin sovet tarixçiləri tərəfindən belə səylə öyrənilməsi onun tarix elminə gətirdiyi məlumatların son dərəcə gərəkli olduğunu sübut edir.

Həsən bəy Rumlunun salnaməsi bir çox Şərq ölkələri alimlərinin də diqqətini cəlb etmişdir. Türk tədqiqatçısı Bəgir Sidqi Kütükoğlu Türkiyə-İran siyasi münasibətlərini araşdırarkən, bir sıra hadisələrin izahında "Əhsənüt-təvarix"dən müqayisəli sürətdə istifadə etmişdir. Onu maraqlandıran məsələlərdən biri I Şah Təhmasibin sirli ölümü və bunun səbəbləri olmuşdur ki, bu barədə o yazır: "Müəllif (İskəndər bəy Münşi – Ş.F) şahın gecə xəstələnib ertəsi günü vəfat etdiyini qeyd edirlərsə də, vaxtının səfər ayının hansı gününə təsadüf etdiyini göstərməkdə tərəddüd edir... Ancaq Həsən bəy Rumlu aşkar olaraq 15 səfər tarixini göstərir ki, təqvimə əsasən də vaxtı 15 səfərə (15 mayis, 1576) təsadüf edir" [101, 14].

Başqa türk alimi Faruq Sümer 876 (1471/72) – 877 (1472/73)-ci illərdə baş verən ağqoyunlu-osmanlı müharibəsinin təsvirini "Əhsənüt-təvarix"dən götürərək, Anqarada nəşr etdirdiyi "Kitab-i Diyarbəkriyyə" əsərini sonuna əlavə etmişdir [56]. Məlum olduğu kimi, "Kitab-i Diyarbəkriyyə" bu əsərin yeganə natamam əlyazma nüsxəsi əsasında nəşr edilmişdir. F. Sümer Həsən bəy Rumlunun məlumatını Əbubəkr Tehraninin əsərinə artırmaqla bir tərəfdən "Əhsənüt-təvarix"in ilk mənbə olmayan IX cildinin əhəmiyyətini nümayiş etdirmiş, digər tərəfdən "Kitab-i Diyarbəkriyyə"ni müəyyən qədər tamamlamışdır.

İran tədqiqatçısı Nizaməddin Mücir Şeybani Səfəvi dövlətinin təşkil edilməsinə həsr etdiyi kitabda I Şah İsmayılın tacqoyma mərasimi vaxtındakı İranın 12 hökmdar tərəfindən idarə olunduğundan və onların hər birinin hökmü altındakı ölkələrdən danışarkən, "Əhsənüt-təvarix"dən etibarlı bir mənbə kimi məlumat götürmüşdür [94, 51, 98].

Rəhimzade-ye Səfəvi "Şah İsmayıl Səfəvinin həyatı" əsərində Qiyasəddin Xandəmir, Qazi Əhməd Qəffari və Həsən bəy Rumlunun məlum əsərlərinə müraciət etmiş və əksər hadisənin təsvirində "Əhsənüt-təvarix"in müəllifinə haqq qazandırmışdır [72, 119, 183 - 184].

Əbdülhüseyn Nəvayi tərtib etdiyi "Şah İsmayıl Səfəvi" kitabının II cildində Səfəvi dövlətinin banisi haqqında dəqiq məlumat verən əsərlərdən birinin məhz "Əhsənüt-təvarix" olduğunu göstərir [79, 41]. Onlarca sənəd və tarixi məktubu özündə cəmləşdirən bu kitabın tərtibçisi bir sıra məktubların mətninin və bəzi hadisələrin Həsən bəy Rumludan götürüldüyünü qeyd edir [79, 20]. Ə. Nəvayi yazır: "Bu kitabın (yəni özünün tərtib etdiyi məcmuənin – Ş.F) I cildində ağqoyunlu sultanlarının məktubları və həmin məktublara yazılan cavablar dərc edilmişdir. II Sultan Bayazid və Əlvənd ibn Yusif bəy ibn Uzun Həsən ilə maraqlanırlar... Həsən Rumlunun "Əhsənüt-təvarix" kitabına müraciət edə bilərlər" [79, 20].

Əfqan tarixçisi Əbülhəy Həbibi "Əhsənüt-təvarix" əsəri haqqında yazır: "Çarlz Norman Seddonun 1931-ci ildə nəşr etdirdiyi "Əhsənüt-təvarix" əsəri səfəvilər dövrünün ilk hadisələrini öyrənmək cəhətincə faydalıdır" [71, 3].

Kabul universitetinin humanitar elmlər fakültəsinin orqanı olan "Ədəb" jurnalında "Həsən bəy Rumlu kimi böyük bir tarixçi" tərəfindən Kahi adlı bir şairin mərsiyəsinin "Əhsənüt-təvarix"də verildiyi göstərildikdən sonra həmin salnamənin 985 (1577/78)-ci ildə yazıldığı qeyd olunur [91, 34]. Doğrudur, Həsən bəy Rumlunun əsəri 985-ci il hadisələrini də təsvir edir, lakin bu heç də o demək deyildir ki, müəllif əsərini yalnız həmin ildə qələmə almışdır. "Əhsənüt-təvarix"i mütaliə edərkən aydın olur ki, müəllif onun son iki cildi üzərində 980 (1572/72)-cı [64, 140b, 187a; 65, 301, 356] və 985 (1577/78)-cı illərdə [65, 465, 503] işləmişdir.

"Əhsənüt-təvarix"in IX və X cildlərinin yazılma tarixini bildirən bu iki rəqəmdən başqa əsərdə özgə bir tarix göstərilməmişdir. Salnamənin IX cildinin bütünlüklə, həmçinin X cildin yarıdan çoxunun yalnız 980 (1572/73)-cı ildə yazıldığını nəzərə alsaq, bu nəticəyə gəlmək mümkündür ki, həmin il Həsən bəy Rumlunun yaradıcılığında ən məhsuldar il olmuşdur. Müəllifin öz sözlərinə əsasən qətiyyətlə demək olar ki, "Ədəb" jurnalında "Əhsənüt-təvarix"in yazılma tarixini bildirən 985 (1577/78)-ci il əsərin hər iki cildinə yox, yalnız X cildin son 149 səhifəsinə (yəni 958 (1551/52)- (1577/78)-ci illər hadisələrinin təsvirinə) aid olmalıdır. "Əhsənüt-təvarix"in Ç.N. Seddon nəşrinin 356-cı səhifəsində axırıncı dəfə olaraq 980 (1572/73)-cı il tarixi yazılır. Həsən bəy Rumlu göstərir ki, I Şah Təhmasibin vəziri olan Xacə Əmir bəy Keçəçi hələ çox illər əvvəl həbs edilmiş, əvvəlcə Qəhqəhə, sonra isə Ələmut qalasına salınmışdır. Bizim müəllifin məlumatına görə, "Hicri tarixlə 980-cı il olan bu vaxta kimi uzun illər həbsxanada qalan o sabiq vəzir sağdır" [65, 356]. Bu faktdan aydın olur ki, salnamənin X cildinin 958 (1577/78)-ci ildən sonra Həsən bəy Rumlu bir daha bizə məlum olmayan səbəblər üzündən əsərinin yazılışını davam etdirə bilməmişdir.

Qeyd etməliyik ki, bu fəsildə "Əhsənüt-təvarix"dən istifadə edən tədqiqatçıların hamısının adı çəkilmədi, lakin yuxarıda yazılanlara əsasən belə bir nəticəyə gəlmək olur ki, Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" salnaməsi indiyədək tarixşünaslıqda müəyyən qədər tədqiq olunmuş və şübhəsiz, hələ bundan sonra da ona müraciət edənləri dəyərli bir mənbə kimi maraqlandıracaqdır.

Müxtəlif ölkələrin onlarca tarixçisinin ictimai-iqtisadi və siyasi hadisələrə dair bir sıra məlumatları məhz "Əhsənüt-təvarix" əsərindən əxz etmələri faktı bu əsərin əhəmiyyətinin əyani şəkildə nəzərə çatdıran bir cəhətdir. Salnaməyə isnad etmiş tədqiqatçıların əsərlərini mütaliə edərkən, əsasən, belə bir cəhət nəzəri cəlb edir: burjua tədqiqatçıları bir qayda olaraq, Həsən bəy Rumlunun əsərindəki siyasi hadisələrə diqqət yetirdikləri halda, sovet tarixçilərini XV – XVI əsrlərin bir sıra ictimai-iqtisadi məsələləri də maraqlandırmış və onlar məhz "Əhsənüt-təvarix" əsəri əsasında fikir söyləməyə çalışmışlar.

## “Əhsənüt-təvarix”in ilk məxəzləri və ondan istifadə edən orta əsr tarixçiləri

Tariximizin iki əsr hadisələrini əhatə edən “Əhsənüt-təvarix” əsərinin yazılışı zamanı Həsən bəy Rumlu onlarca tarixi mənbədən faydalanmışdır. Tədqiqatçılardan Ç.N. Seddon, F. Sümer və Ə. Nəvayi vaxtilə Həsən bəy Rumlunun müraciət etdiyi bəzi tarixi mənbələrin adını qeyd etmişlər [120, 309 – 311; 56, XIII; 66, 24]. Ç.N. Seddon fikrinin sübutu üçün salnamədən götürdüyü bir parçanı “Həbibüs-siyər” və “Həşt behişt” əsərlərindəki müvafiq cümlələrlə müqayisə etmişdir [120, 309 - 310].

Əsərini yazarkən Həsən bəy Rumlunun istifadə etdiyi məxəzlər özünün qeyd etdiyinə görə bunlardır: “Tarix-i torki-yi rumi” yaxud “Tarix-i torki”, “Mətləüs-sədeyn və məcməül-bəhreyn”, “Rövzətüs-səfa”, “Tarix-i Dövlətşahi”, “Tarix-i Həsən padşah”, “Həbibüs-siyər”, “Tarix-i aləmara”.

Salnamədə yeri gəldikcə adı çəkilən bu mənbələrdən Həsən bəy Rumlunun necə faydalandığına diqqət yetirək:

1. “Tarix-i torkiyi rumi” yaxud “Tarix-i torki”. Həsən bəy Rumlu tərəfindən belə adlandırılan mənbəyə “Əhsənüt-təvarix” əsərində yalnız türk sultanları ilə əlaqədar hadisələrin izahı zamanı müraciət edilir. Müəllif cəlayirilər dövlətinin 4-cü hökmdarı olan Sultan Əhmədin (hakimiyyət illəri: 1382 – 1410) öldürülməsi ilə əlaqədar onun tərcümeyi-halını şərh edir və Teymurun (hakimiyyət illəri: 1370- 1405) təqibindən qaçıb sultan Bəyazidə (hakimiyyət illəri: 1389 – 1402) sığınan cəlayiri şahının bəzi xüsusiyyətlərinin təsvirində bu əsərə əsaslanmışdır [66, 74]. II sultan Məhəmmədin (hakimiyyət illəri: 1444 – 1481) fəthlərindən danışarkən də “Tarix-i torki-yi rumi” “Əhsənüt-təvarix”in əsas mənbəyi olmuşdur [66, 320].

Türk sultanları ilə bilavasitə əlaqəsi olan məsələlərin birində Həsən bəy Rumlu yenidən, əsaslandığı mənbənin “Tarix-i torki” olduğunu bildirir [66, 542]. 877 (1472/73)-ci il ağqoyunlu-osmanlı müharibəsi zamanı Uzun Həsənin II Sultan Məhəmməd tərəfindən məğlub edilməsi səbəblərindən biri məhz “Tarix-i torki”-yə əsasən izah edilmişdir [66, 542].

Ehtimal ki, yuxarıda adları çəkilən “Tarix-i torki-yi rumi” və “Tarix-i torki” eyni əsərlər olmuş və “Əhsənüt-təvarix”də iki ad altında getmişdir. Bunu da qeyd etmək lazımdır ki, Ç.N. Seddon və Ə. Nəvayi türklərlə əlaqədar hadisələrin təsviri zamanı Həsən bəy Rumlunun müraciət etdiyi mənbənin “Həşt behişt” olduğunu göstərmişlər [120. 310; 65, 31]. Fikrimizcə, “Tarix-i torki” və “Tarix-i torki-yi rumi” Həkiməddin İdris ibn Hüsaməddin Məhəmməd Əli Bidlisinin “Həşt behişt” əsəridir. SSRİ, Türkiyə, İran və başqa ölkələrdə həmin əsərin onlarca əlyazma nüsxəsi mövcuddur. Osmanlı sultanlarının həyat və fəaliyyətindən bəhs edən “Həşt behişt” kitabı 908 (1502/03) – ci ildə tamamlanmışdır [43, 1257 - 1260].

Göstərməliyik ki, Həsən bəy Rumlu "Həşt behişt"-dən istifadə edərkən, oradan əxz etdiyi hadisələrin təsvirini yığcam verməyə çalışmışdır. Sübut üçün aşağıdakı iki parçanın müqayisəsi kifayətdir:

"Əhsənüt-təvarix" : "Nədimi ona dedi: Biz ki, rum padşahının ölüsündən (qorxub) belə qaçırıq, əgər onun özü gəlsəydi, vəziyyətimiz necə olacaqdı?"

"Həşt behişt" : "Belə nəql edilir ki, zarafat etmək və lətifə danışmaqda cəsarətli olan onun bir nədimi Bursadan sürətlə geri qayıdan vaxt yolüstü Məhəmməd bəyə demişdir: "Ey şücaətli şəhriyar, sən ki al-e osmanın bir ölüsündən belə qaçırsan, əgər həmin xanədanın diri bir üzvü gəlsəydi neylərdin?"[7]

2. "Mətləüs-sədeyn və məcməül-bəhreyn". Qaraqoyunlu, Ağqoyunlu və Xorasan dövlətlərinin siyasi tarixinin əks etdirilməsində bu əsərin Həsən bəy Rumluya müəyyən köməyi olmuşdur. Şirvanşah I İbrahimin Təbrizə girməyi (808/1406-may ayı), onun şəhəri tərk etməyi (həmin ilin iyun ayı), Qara Yusifin Təbrizi ələ keçirməyi (yenə də həmin ilin iyunu), onun teymuri Əbubəkrlə döyüşü (809/1406/07), Sultan Əhməd Cəlayirinin öldürlməsi (813/1410), qaraqoyunlu Cahanşahın siyasi fəaliyyəti, onun öz oğlanları Pirbudaq və Həsənəli ilə düşmənçiliyi, Sultan Əbu Səid (hakimiyyət illəri: 1451 – 1468) və Uzun Həsən arasındakı döyüş (872/1468) hadisələri hər iki əsərdə təxminən eyni cür təsvir edilmişdir; lakin "Əhsənüt-təvarix"də faktlar daha boldur. Deməli, Həsən bəy Rumlu bu hadisələrin təsviri vaxtı başqa mənbələrdən də faydalanmış və yalnız Əbdürrəzzaq Səmərqəndinin qeydləri ilə kifayətlənməmişdir. Fikrimizin sübutu üçün göstərməliyik ki, "Mətləüs-sədeyn..." əsərində Qara Yusif və Sultan Əhməd Cəlayiri arasında 813, (1410)-cü ildə baş verən müharibə çox qısa təsvir edilmişdir. Cahanşahı Qara Yusifin böyük oğlu kimi göstərən Əbdürrəzzaq Səmərqəndinin məlumatı [80, 269a] Həsən bəy Rumlu və başqa müəlliflər tərəfindən təkzib olunmuşdur [64, 245b; 98, 119a; 30, 32]. Əksər mənbədə Qara Yusifin böyük oğlunun Pirbudaq olduğu göstərilməsi Əbdürrəzzaq Səmərqəndinin bu səhvini aşkara çıxarır. 873 (1468/69)cü ildə Uzun Həsənin əsir aldığı Sultan Əbu Səidin məhz Şirvan qazisinin təhriki ilə öldürülməsi barədə olan məlum fakt "Mətləüs-sədeyn..."də yoxdur [80, 322a], lakin Həsən bəy Rumlu bu məsələnin qabarıq şəkildə nəzərə çatdırır [64, 163a].

Bunlara baxmayaraq, "Mətləüs-sədeyn..."in bizim müəllifə böyük təsiri olduğundan o, bəzən həmin əsərdən götürdüyü məlumatları ya eyni ilə, yaxud da cüzi dəyişikliklə öz salnaməsində vermişdir. Məsələn:

"Əhsənüt-təvarix" : [64, 164a] "O vaxt Şirvan padşahı Fərruz Yasar, rəcəbin 4-də düşmənçiliyə başlayıb, gəmiləri öz tərəfinə çəkdi və cığatay qoşunun böyük bir dəstəsini qarət etdi"

"Mətləüs-sədeyn..." : "Bu vaxt, rəcəbin 4-də şirvanşah düşmən oldu və gəmiləri o biri tərəfə çəkib, həmin qalib qoşunun çoxlu adamını qarət etdi".

---

[7] Misal Ç.N. Seddonun məqaləsindən götürülmüşdür [Bax: 120].

Faruq Sümer "Kitab-i Diyarbəkriyyə"yə yazdığı müqəddimədə "Əhsənüt-təvarix"in IX cildinin ən mühüm mənbəyinin "Mətləüs-sədeyn..." olduğunu göstərmişdir [56, VIII].

3. "Rövzətüs-səfa". Bu kitab Həsən bəy Rumlunun istifadə etdiyi mənbələrdən biridir. Bizim müəllif əsasən, Xorasan şahları və onların varisləri haqqında ümumi məlumat verərkən həmin kitaba müraciət edir [64, 226a]. Lakin göstərmək lazımdır ki, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri haqqında ötəri məlumat verilən "Rövzətüs-səfa"dan fərqli olaraq, "Əhsənüt-təvarix" əsərinin bütün bir cildi bu dövlətlərin tarixinə və onların qonşu ölkələrlə münasibətlərinə həsr edilmişdir. XV əsr Azərbaycan feodal dövlətlərinin tarixini yazarkən, Həsən bəy Rumlunun ən çox istifadə etdiyi mənbələr, əsasən, "Mətləüs-sədeyn..." və "Kitab-i Diyarbəkriyyə" olmuşdur. Bu əsərlərə nisbətən "Rövzətüs-səfa" dövr tarixi baxımından ikinci dərəcəli mənbə olduğundan (bu kitabda teymuri Xorasan dövlətini tarixi müfəssəl şərh edilmişdir) "Əhsənüt-təvarix"lə onun təsvirləri arasında yaxınlıq azdır. Buna görə də, Mirxond və Həsən bəy Rumlunun əsərlərinin müqayisəsi barəsində az danışmağı lazım bildik.

4. "Tarix-i Dövlətşahi". Həsən bəy Rumlunun belə adlandırdığı əsər Dövlətşah Səmərqəndinin "Təzkirətüş-şüəra" kitabıdır. "Əhsənüt-təvarix"də çoxlu şer parçaları verilmiş, habelə onlarca şairin tərcümeyi-halı işıqlandırılmışdır. Bu işdə Dövlətşah Səmərqəndinin məlum əsərinin Həsən bəy Rumluya köməyi dəymişdir. Azərbaycanlı şair Şah Qasim Ənvar [64, 224b, 225b; 73, 346 - 352] və Cahanşah Həqiqinin tərcümeyi-halından bəzi məlumatlar [64, 168a, 169a, 175a; 73, 457 - 461], onların şerlərindən parçalar məhz "Təzkirətüş-şüəra" kitabından götürülüb "Əhsənüt-təvarix"ə daxil edilmişdir.

5. "Tarix-i Həsən padşah". "Əhsənüt-təvarix"in yazılmasında tarixi bir mənbə kimi böyük əhəmiyyəti olan əsərlərdən biri də Əbubəkr Tehraninin Həsən bəy Rumlu tərəfindən "Tarix-i Həsən padşah" adlandırılan [64, 213b] "Kitab-i Diyarbəkriyyə" əsəridir. 1962 – 1964-cü illərdə Türkiyədə nəşr edilən iki hissədən ibarət bu kitabın tərtibçilərindən biri olan F.Sümer yazır: "Həsən bəy Rumlu "Kitab-i Diyarbəkriyyə"-dəki məlumatı bəzən eyni ilə, bəzən qısaltmaq, cümlə və ibarələri dəyişdirmək, ədəbi mahiyyətdə olan mənsur və mənzum yerləri tam atmaqla əsərinə artırmışdır" [56, XXII]. Doğrudan da, bu fikrin sübutu üçün aşağıdakı müqayisə kifayətdir:

"Əhsənüt-təvarix" : [64, 188b] "Cəllad onun qanını tökməyə hazırlaşdı. (O,) göstərilən qılıncı qəbul etmədi və Arıq Məhəmməd Tuşmalın qılıncını tələb edib dedi: "Məni bu qılıncla öldürün".

"Kitabi Diyarbəkriyyə" : [56, 279 - 280] "Cəllad onun qanını tökməyə hazırlaşdı. (O,) göstərilən qılıncı qəbul etmədi və Arıq Məhəmməd Tuşmalın qılıncını tələb edib dedi: "Məni bu qılıncla öldürün".

Göründüyü kimi, bu misalların hər ikisi eynidir, lakin hər iki müəllifin cümlələrindəki maraqlı cəhət "arıq" sözünün yazılışıdır. Bu söz Əbubəkr Tehrani

tərəfindən ("əruq"), Həsən bəy Rumlu tərəfindən isə ("arıq") şəklində yazılmışdır ki, bu da azərbaycanlı müəllifin başqa əsərlərindən götürdüyü sözləri təshih etməsinə bir misaldır.

Cahanşahın 862 (1457/58)-ci ildə Xorasana hərbi yürüşü [64, 192a, 193a; 56, 347 - 353], onun oğlu Həsənəlinin yenə həmin ildə həbsxanadan çıxaraq Təbriz taxtını ələ keçirməyi [64, 188a – 189a; 56, 358 - 359], Cahanşahın qətlindən sonra hakimiyyətə çıxmaq uğrunda şahzadə və əmirlərin mübarizəsi [64, 169a – 165b; 56, 434 - 439] və əsasən, Uzun Həsənlə əlaqədar məlumatların izahında "Kitab-i Diyarbəkriyyə"nin Həsən bəy Rumluya müstəsna köməyi dəymişdir.

6. "Həbibüs-siyər". "Əhsənüt-təvarix"in X cildindəki hadisələrin bir hissəsinin (xüsusilə I Şah İsmayılın siyasi fəaliyyətinin) təsvirində "Həbibüs-siyər" kitabının da dövrün tarixi mənbəyi kimi əhəmiyyəti olmuşdur. Hakimiyyət uğrunda son Ağqoyunlu şahlarının mübarizəsi [65, 13- 14, 16 – 17, 19 – 22; 84, 440 - 446], Səfəvi dövlətini təşkilində I Şah İsmayılın rolu, onun Şirvan, Şəki və qonşu dövlətlərlə münasibətləri və s. başqa məsələlər "Həbibüs-siyər"ə əsasən qələmə alınmışdır. Lakin bizi müəllif Xandəmirə nisbətən əhəmiyyəti o qədər çox olmayan hadisələrin təsvirini yığcam göstərməyə çalışmışdır. Bu fikrin sübutu üçün aşağıdakı misal münasibdir:

"Əhsənüt-təvarix": [65, 109] "O həzrətin şərafətli babasını torpaqdan çıxarıb, tabuta qoydular və əcdadının məqbərəsində dəfn etdilər. Çox vaxt keçməsinə baxmayaraq, onun cəsədi çürüməmişdi".

"Həbibüs-siyər": [84, 502 - 503] "O həzrətin pak bədənini 22 il keçdikdən sonra qəbirdən çıxardılar və tabuta qoyaraq, əcdadının işıqlı məqbərəsinə apardılar. İndi, çoxlu vaxt keçməsinə baxmayaraq, onun cəsədi çürüməmiş və rəngi solmamışdı".

Bu və ya digər hadisəni "Həbibüs-siyər"dən götürən Həsən bəy Rumlu həmin əsərə tənqidi münasibət də bəsləmişdir ki, bu haqda bir qədər əvvəl danışıldı[8].

7. "Tarix-i Şah İsmayıl Səfəvi". Şah İsmayılın həyatını qələmə alarkən, Həsən bəy Rumlu anonim müəllifin "Tarix-i Şah İsmayıl Səfəvi" əsərindən də əsas məxəz kimi istifadə etmişdir [62][9]. Bizim müəllif 906 (1501)-cı ildə Bakı qalasının qızılbaşlar tərəfindən alınmasını bu əsərdən əxz etmiş, hadisəni bir qədər ixtisarla öz salnaməsinə daxil etmişdir. Bundan başqa, qızılbaşların Şirvana 1506 və 1509-cu illərdəki yürüşləri də bu kitabdan götürülmüşdür.

Dövrün digər mənbələrində təsadüf olunmayan maraqlı bir fakt da nəzəri cəlb edir ki, bu, XV əsrin sonu—XVI əsrin əvvəllərində Ağqoyunlu dövlətinin dağılmağa başlaması nəticəsində Azərbaycan və İranda 12 feodal hakimin özlərini

---

[8] Bax: Əsərin I fəsli, səh. 17 - 18

[9] Bu mənbənin fotosurətini istifadəmizə verdiyi üçün tarix elmləri doktoru O. Ə. Əfəndiyevə minnətdarıq.

müstəqil elan etməsi və hakimiyyəti əllərinə alması faktıdır. Bu, yalnız “Tarix-i Şah İsmayıl Səfəvi” və “Əhsənüt-təvarix” əsərlərində verilmiş, həmin hakimlərin adları, həmçinin onların tabeliyində olan yerlər bir-bir göstərilmişdir [62, 77b—78b; 65, 62].

Həsən bəy Rumlu bu əsərdən istifadə edərkən anonim müəllifin məlumatlarını mümkün qədər ixtisarla köçürməyə çalışmışdır. Məsələn, Qızılbaşlarla osmanlılar arasında 1514-cü ildə baş verən Çaldıran döyüşü anonim müəllifdə 16 səhifədə [62, 245b—253a] Həsən bəy Rumluda isə 6 səhifədə yazılmışdır [65, 143—149].

Anonim müəllifdən Həsən bəy Rumlunun istifadə etdiyini əyani olaraq aşağıdakı misaldan görmək olar:

“Tarix-i Şah İsmayıl Səfəvi”: [62, 65a] “Süleyman şöhrətli xaqan Hüseyn bəy Lələ, Məhəmməd bəy Ustaclı, Əbdi bəy Şamlu, Xadim bəy Xüləfa və Qara Piri bəy Qacar kimi məğlubedilməz dövlətin sütunlarını çağırıb onlara dedi ki, Azərbaycan paytaxtını istəyirsiniz, ya Gülüstan qalasını? Onlar dedilər ki, Azərbaycanı. O həzrət buyurdu ki, dünən gecə dinin imamlarından və yəqinlik yolunun göstəricilərindən biri mənə dedi ki, əgər Azərbaycanı istəyirsənsə, Gülüstan qalasının mühasirəsindən əl çək. Bu üsulla Azərbaycan paytaxtına gedilməlidir”.

“Əhsənüt-təvarix”: [65, 47] “İskəndər şöhrətli xaqan Hüseyn bəy Lələ, Abdal bəy Dədə, Məhəmməd bəy Ustaclı, Əbdi bəy Şamlu və Xadim bəy kimi məğlubedilməz dövlətin sütunlarını çağırıb onlara dedi ki, Azərbaycanı istəyirsiniz, ya Gülüstan qalasını? Onlar dedilər: Azərbaycanı. O həzrət buyurdu ki, dünən gecə yanıma dinin imamlarından və yəqinlik yolunun göstəricilərindən (biri) gəlib (dedi ki,) əgər Azərbaycanı istəyirsənsə, Gülüstan qalasının ətəyindən qalx. Bundan sonra o həzrət Azərbaycana yollandı”.

8. “Tarix-i aləmara”. Uzun Həsən tərəfindən böyük oğlu Sultan Xəlilin vəliəhd təyin edilməsi məsələsinin izahında Həsən bəy Rumlu bu əsərə istinad etmiş [64, 140b], bir daha “Tarix-i aləmara” haqqında danışmamışdır. Lakin 927 (1520/21)-ci il hadisələrinin “Ölümlər” bölməsində həmin əsərin müəllifinin Xacə Mövlana-yi İsfahani olmağı barədə Həsən bəy Rumlunun məlumatı vardır [65, 174]

Göstərmək lazımdır ki, “Tarix-i aləmara”—“Tarix-i aləmara-yi Əmini” əsəri, Xacə Mövlana-yi İsfahani isə Fəzlullah ibn Ruzbehan Xunəcidir [43, 848]. Məlum olduğu kimi, bu əsərin farsca nüsxəsi SSRİ-də yoxdur, lakin V. F. Minorski onu ingilis dilinə çevirmiş və nəşr etmişdir. Təəssüf ki, Paris və İstambulda saxlanılan bu əsərin fars mətni əlimizdə olmadığından ondan istifadə edə bilmədik. Buna görə də, Həsən bəy Rumlunun bu əsərdən nə dərəcədə faydalandığı müəyyənləşdirilmədi.

Beləliklə də, “Əhsənüt-təvarix” qələmə alınarkən, Həsən bəy Rumlunun müraciət etdiyi tarixi mənbələr onun öz qeydlərinə əsasən müəyyənləşdirildi, lakin

göstərməliyik ki, “Əhsənüt-təvarix”in yazılmasında başqa mənbələrin də rolu olmuşdur. Həsən bəy Rumlunun istifadə etdiyi ehtimal olunan əsərlərdən biri də Qazi Əhməd Qəffarinin “Tarix-i cahanara” kitabıdır [120, 311][10].

“Tarix-i cahanara” və “Əhsənüt-təvarix”in müqayisəsi göstərir ki, Qazi Əhməd Qəffarinin kitabı Həsən bəy Rumlu üçün tarixi mənbə rolu oynamışdır, lakin hadisələrin təsviri “Əhsənüt-təvarix”də daha genişdir. Məsələn, I Şah Təhmasibin 1540-cı ildə Gürcüstana hücumu “Əhsənüt-təvarix”də 3 səhifədə [65, 296—298] “Tarix-i cahanara”da isə cəmi bir sətirdə [88, 294] təsvir olunmuşdur. Yenə həmin Səfəvi şahının 1546-cı ildə Gürcüstana olan ikinci yürüşü “Əhsənüt-təvarix”də iki səhifə [65, 316—317], “Tarix-i cahanara”da iki sətir [88, 23—24], 1551-si ildə baş verən 3-cü yürüş “Əhsənüt-təvarix”də 5 səhifə: [65, 351—355], “Tarix-i cahanara”da 1 sətir [88, 300], 1554-cu ildə olan 4-cu yürüş isə birinci əsərdə 11 səhifə [65, 379—389], ikinci kitabda iki sətir [88, 302] yer tutmuşdur.

Bundan əlavə, Azərbaycanla əlaqədar olan bəzi hadisələr “Əhsənüt-təvarix” də əhatə edildiyinə baxmayaraq, “Tarix-i cahanara”da yoxdur. Məsələn, 944 (1537/38)-cü ildə Şirvanda qızılbaşlara qarşı baş verən qələndər dərvişin üsyanı [65, 282], 954 (1547/48)-cü il-də yenə də Şirvanda olan Bürhan Mirzənin üsyanı [65, 326—327], 961 (1553/54)-ci ildə Şirvanı ələ keçirmək üçün Türkiyədən gələn Qasım Şirvaninin Şirvan hakimi Abdulla xan Ustaclu ilə olan müvəffəqiyyətsiz döyüşü [65, 382—383] “Tarix-i cahanara” əsərində verilməmişdir. Lakin bunlara baxmayaraq, Həsən bəy Rumlu, fikrimizcə, Qazi Əhməd Qəffarinin kitabından istifadə etmişdir. Belə ki, aşağıdakı cümlələr “Əhsənüt-təvarix”in daha bir mənbəyini aşkar edir:

“Əhsənüt-təvarix”: [65, 412] “Dinin pənahı olan şah Sultan Bayazidlə bağda gəzirdi. Özünü dinin pənahı olan şaha çatdırıb dedi: “İki kəlmə vacib sözüm var”.

“Tarix-i cahanara”: [88, 305] “Alihəzrət və Sultan Bayazid Səadətabad bağında seyrə çıxmışdılar. Özünü onun xidmətinə çatdırıb, yavaşdan dedi: “İki kəlmə vacib sözüm var”.

Göstərmək lazımdır ki, “Əhsənüt-təvarix” özü də başqa tarixi əsərlərin yazılmasından ötrü dəyərli bir mənbə olmuşdur. “Əhsənüt-təvarix”ə böyük qiymət verən İskəndər bəy Münşi təvazökarlıqla yazmışdır: “Rumlu tarixçisi mərhum Həsən bəy o həzrətin (I Şah Təhmasibin—Ş. F.) zamanında “Əhsənüt-təvarix” adlı elə bir kitab yazmışdır ki... bizdə elə yazmaq bacarığı yoxdur” [58, 46]:

Ümumiyyətlə, İskəndər bəy Münşi “Əhsənüt-təvarix”ə tez-tez müraciət etmişdir: “Əhsənüt-təvarix” də yazılmışdır ki...” [58, 31]. “Tarixçi Həsən bəy

[10] Ç.N. Seddon bu haqda yazır: “Ola bilsin ki, Həsən bəy Rumlu Qazi Əhməd əl-Qəffarinin “Cahanara” əsərindən də faydalanmışdır, lakin bu qəti deyildir” [120, 311].

Rumlu “Əhsənüt-təvarix”də yazıb ki...” [58, 32], “Əhsənüt-təvarix müəllifinin sözünə əsasən...” [58, 38] və s.

Azərbaycan tarixi ilə əlaqədar olan bir sıra hadisələr, məsələn, 945 (1538/39)-ci ildə I Şah Təhmasibin Şirvanşah Şahrux üzərinə qoşun göndərməyi və Şirvanın müstəqilliyinin sonu [65. 285—290; 58, 80—82], 947 (1540/41), 953 (1546/47), 958 (1551/52) və 961 (1553/54)-ci illərdə bu Səfəvi şahının gürcülər üzərinə etdiyi hərbi səfərlər [65. 296—298. 316—317. 351—355, 379—382; 58,84—85. 85. 85—87, 87—88], yenə onun 958 (1551/52)-ci ildə Şəkiyə hücumu və Dərviş Məhəmməd xanın öldürülməsi [65, 348—351; 58, 82—83], 981 (1573)-ci ildə bitən Təbriz xalq kütlələrinin üsyanı [65, 455—457; 58, 117—118] və s. məsələlər məhz “Əhsənüt-təvarix”in sayəsində “Tarix-i aləmara-yi Abbasi” əsərində işıqlandırılmışdır, lakin I Şah Təhmasibin Gürcüstana yürüşünun təsviri Həsən bəy Rumluda daha müfəssəldir. Şəxsən bizim müəllifin də iştirak etdiyi bu yürüş qələbə ilə bitdikdən sonra səfəvi şahının Gəncə və Yevlaxa səfəri [65, 317] İskəndər bəy Münşi tərəfindən göstərilməmişdir. Habelə 972 (1564—65)-ci ildə I Şah Təhmasib tərəfindən ləğv olunan tamğa vergisinin ümumi məbləğini [65, 428] “Tarix-i aləmara-yi Abbasi” müəllifi qeyd etməmişdir, lakin “Əhsənüt-təvarix” əsərində bu münasibətlə yazılan iki misra şeri İskəndər bəy Münşi əsərinə köçürmüşdür [65, 428; 58, 123]. Hər iki əsərdəki bəzi cümlələrin yaxınlığını aşağıdakı misalla nəzərə çatdırmaq olar:

“Tarix-i aləmara-yi Abbasi” [58, 80] “Bir qələndər oğlan iddia etdi ki, mən Şeyxşahın oğlu Sultan Məhəmmədəm. Onun başına çoxlu qoşun toplandı. Salyanı tutub, oradan Şamaxıya gəldi”.

“Əhsənüt-təvarix”:[ 65, 282] “Şirvanda bir qələndər iddia etdi ki, mən Şeyxşahın oğlu Sultan Məhəmmədəm. Çoxlu qoşun toplayıb Salyanı tutdu və oradan Şamaxıya gəldi”.

“Əhsənüt-təvarix” salnaməsi Qazi Əhməd Quminin “Xülasətüt-təvarix” əsərinin yazılışı üçün də tarixi mənbə rolu oynamışdır, lakin “Əhsənüt-təvarix”də orijinal məlumatlara daha tez-tez rast gəlirik. Belə ki, Heydər Səfəvi və Sultan Yaqub Ağqoyunlunun ölüm hadisələrini Həsən bəy Rumlu başqa müəlliflərdən fərqli vermişdir. Məsələn, Sultan Heydərin 893 (1488)-cü ildə Şirvanşah Fərrux Yasarla döyüş zamanı yaralanıb öldüyünü bütün mənbələr təsdiq edir, lakin Həsən bəy Rumlu onun öz döyüşçüsü tərəfindən öldürüldüyünü bildirib yazır: “Gizli qalmasın ki, ona dəyən ox düşmənləri tərəfindən yox, Sultan Heydərin öz qoşunundan atılmışdı. Həmin döyüşdə olan adamların bir dəstəsi söylədi ki, o həzrətin əmirlərindən Şahsuvar Lənkəraninin atası bu işi edibdir” [66, 618]. Yaxud, Sultan Yaqubun təsadüfən anası Səlcuqşah bəyimin əli ilə öldürülməsinin təsviri [64, 126b] “Xülasətüt-təvarix” əsərində heç yoxdur.

Belə misalların sayını artırmaq olar, lakin şübhə yoxdur ki, Qazi Əhməd Qumi “Əhsənüt-təvarix” dən istifadə etmişdir. Onun özü də”Xülasətüt-təvarix”in E. Qlassen nəşrinin başlanğıcında bunu etiraf edir.

İndi, hər iki müəllifin bir cümləsinə nəzər yetirək:

"Xülasətüt-təvarix": [108, 63] "Döyüş hazırlığından sonra cəlal meydanının o atlısı cəng şeypurunun səsi altında... atını cövlana gətirdi".

"Əhsənüt-təvarix": [66, 617] "Döyüş hazırlığından sonra cəlal meydanının o atlısı... atını cövlana gətirdi".

"Əhsənüt-təvarix" salnaməsindən bəhrələnən əsərlərdən biri də müəllifi məlum olmayan və XVII əsrin əvvəllərində yazılan "Aləmara-yi Şah İsmayıl" kitabıdır [83]. Bu əsəri nəşr edən Əsgər Müntəzirsahibin özü bu haqda yazır: "Bu kitabın məxəzlərindən biri Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəridir" [83, 16]. Hər iki kitabı oxuduqca, doğrudan da, "Aləmara-yi Şah İsmayıl" əsərinin mənbələrindən birinin "Əhsənüt-təvarix" olduğu nəzərə çarpır. Məsələn:

"Aləmara-yi Şah İsmayıl": [83, 624 - 625] "Rəiyyət və əlinin altındakı adamlarla ədalətlə ömür sürürdü. O həzrətin qorxusundan heç bir döyüşçü xalqa zülm etmirdi".

"Əhsənüt-təvarix": [65, 182] "Rəiyyət və əlinin altındakı adamlarla ədalətlə ömür sürürdü. Onun qorxusundan xalq zülm edilmirdi".

XVII əsrdə yaşayan tarixçi Şeyx Məhəmməd Bəqa Səxaranpuri də "Miratül-aləm" əsərini yazarkən, "Əhsənüt-təvarix"dən tarixi bir mənbə kimi istifadə etmişdir[11]. "Miratül-aləm" hadisələri olduqca yığcam əks etdirən ümumtarix əsəridir. I Şah Təhmasibin hərbi səfərləri, xüsusilə onun osmanlı sultanı Süleymanla etdiyi müharibədə [92, 243 - 244], II Şah İsmayılın hakimiyyətə çıxarılması zamanı şahzadə və əmirlərin mübarizəsi [92, 244 - 245] və b. hadisələrin təsvirində "Əhsənüt-təvarix"in təsiri duyulur. Həsən bəy Rumlunun səhifələr sərf etdiyi hadisələri Səxaranpuri bir neçə sətirdə izah etməklə kifayətlənmişdir. Aşağıdakı müqayisə hər iki müəllifin cümlələri arasındakı yaxınlığı göstərir:

"Miraşül-aləm": [92, 245] "Qövs bürcündə qorxunc bir quyruqlu ulduz göründü".

"Əhsənüt-təvarix": [65, 495] "Qövs bürcündə uzunluğu fələk qövsünün yarısı boyda olan qorxunc bir quyruqlu ulduz göründü".

Cünabadinin "Rövzətüs-səfəviyyə" əsərində də "Əhsənüt-təvarix"in təsiri hiss olunur. Oradakı tayfa və müxtəlif əmirlər arasında olan mübarizə [97, 244, 257, 259, 263, 264], özbək xanı Übeydin Xorasana etdiyi hərbi yürüşlər [97, 287 - 295], Şirvan hadisələri [97, 360 – 362, 393 – 405, 434 - 438] "Əhsənüt-təvarix"dəki müvafiq hadisələrə oxşar tərzdə qələmə alınmışdır. 953 (1546/47)-cü

[11] Bu əsərin müəllifinin Mir Bəxtəvər xan adlı bir şəxs olması barədə yanlış fikir vardır. (Bu barədə ətraflı məlumat almaq üçün bax: Ч. А. Стори. Персидская литература, переработал и дополнил Ю. Э. Брегель, ч. I, М., 1972, səh 440 – 441). C. İbrahimov da Mir Bəxtəvər xanın müəllifliyini təsdiq etmiş və onun XV – XVI əsrlərdə yaşadığını göstərmişdir [30, 4]. Halbuki Mir Bəxtəvər xan 1685-ci il fevralın 19-da vəfat etmişdir. (Bax: Ç. A. Stori. Göstərilən əsəri, səh. 441.

ildə I Şah Təhmasibə qarşı Əlqas Mirzənin üsyanına aid gətirilən aşağıdakı misalın oxşarlığı bu əsərdə olan onlarca yaxın cümlədən yalnız biridir.

"Rövzətüs-səfəviyyə": [97, 394 - 395] "Ona and içirsinlər ki, bu gündən sonra addımını ədəb... yolundan kənara çıxarmasın".

"Əhsənüt-təvarix": [65, 315] "Ona and içirdilər ki, daha addımını tabeçilik yolundan kənara çıxarmasın".

Beləliklə, məlum olur ki, "Əhsənüt-təvarix"in qələmə alınmasında ondan əvvəl yaranan onlarca kitabdan tarixi mənbə kimi istifadə olunmuş və "Əhsənüt-təvarix"in özü də başqa əsərlərin yazılmasından ötrü dəyərli mənbə olmuşdur[12].

Həsən bəy Rumlunun salnaməsində olan müəyyən hissələrin yuxarıda adları çəkilən tarixi mənbələrdəki müvafiq parçalarla müqayisəsi nəticəsində belə bir fikrə gəlmək olar: bizim müəllif də başqa tarixçilər kimi əsasən siyasi hadisələrə üstünlük vermişdir. Həsən bəy Rumlu da başqa salnaməçilərin yazı ənənəsinə uyğun olaraq öz əsərini təsviri səpgidə qələmə almışdır. Lakin onu başqa müəlliflərdən fərqləndirən əsas cəhət, yeri gəldikcə, hadisələrə öz şəxsi, orijinal münasibətini bildirməsidir. Salmanənin IX cildinin kompilyativ xarakter daşımasına baxmayaraq, orada da müəllifin hadisələrə və onların iştirakçılarına münasibətini görmək olur. Ən əsaslısı isə budur ki, "Əhsənüt-təvarix" əsərindəki hadisələr başqa farsdilli orta əsr məxəzlərinə nisbətən daha dolğun şəkildə əks etdirilmişdir.

## III FƏSİL

## "ƏHSƏNÜT-TƏVARİX" ƏSƏRİ XV—XVI ƏSRLƏR AZƏRBAYCANININ İCTİMAİ-İQTİSADİ VƏ SİYASİ TARİXİNİN MƏNBƏYİ KİMİ

**1. Dövlət quruluşu məsələləri:** Tarixən məlumdur ki, XV əsrdə Azərbaycan ərazisində böyük qüdrətə malik olan Dərbəndi-şirvanşahlar (1382—1538), Qaraqoyunlu (1410—1468) və Ağqoyunlu (1468—1501) kimi üç sülalə hökmranlıq etmiş, XVI əsrdən isə Səfəvilərin hakimiyyəti başlanmışdı. Şirvanşah I İbrahimin hakimiyyətindən başlayaraq bütün XV əsr boyu Şirvan "öz iqtisadi və siyasi çiçəklənmə dövrünü keçirməkdə idi" [36, 180; 26, 395]. Şirvanşahlar ölkədə mütləq hakim hesab olunurdular. Həsən bəy Rumlu və başqa orta əsr tarixçiləri Şirvanşahı çox vaxt "padşah, vali, hakim, sultan" titulları ilə adlandırmışlar [64, 184b, 195b, 197a, 98, 125a; 60, 442b; 81, 234b; 74, 79]. Kitabələr də I İbrahimin "sultan, sultanül-əzəm" titulu daşıdığını təsbit edir [10, 12, 131]. Azərbaycanda

[12] Monoqrafiyanın bu fəsli işlənərkən, Həsən bəy Rumlunun yaşadığı dövrün məhsulu olan əsərlərə, o cümlədən "Təzkire-yi Şah Təhmasib", "Cəvahirəl-əxbar", "Təkmilətül-əxbar" kitablarına da müraciət edildi. Məlum oldu ki, bu əsərlər və "Əhsənüt-təvarix" biri digəri üçün tarixi mənbə rolu oynamamışlar.

istər qaraqoyunlu, ağqoyunlu, istərsə də Səfəvi hakimiyyətinin ilk dövrlərində şirvanşahlar daim müstəqil qalmağa çalışır, asılı vəziyyətə düşməməyə səy edirdilər. Məhz buna görə də Şirvan nicbətən dinc həyat tərzi keçirmiş və onun bəzi başqa dövlətlərdən asılılığı nominal xarakter daşımışdır. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində isə feodal araçəkişmələri, saray hərc-mərcliyi, müxtəlif ziddiyyətlər iqtisadi və siyasi həyatın normal inkişafına daim mane olmuşdur.

İndi XV-XVI əsrlərdə Azərbaycanda hökm sürən əsas feodal sinfi nümayəndələrinin dövlətin idarə edilməsində rolu və onların fəaliyyətinin, əsasən, "Əhsənüt-təvarix" əsərində necə əks olunması barədə məlumat verək:

**Şah:** O, Azərbaycan feodal dövlətlərinə ümumi rəhbərlik edir və orta əsr tarixçilərinin, o cümlədən Həsən bəy Rumlunun göstərdiyi kimi, "padşah, sultan, vali", bəzən də "hakim" adlanırdı. XVI əsrin başlanğıcında şiə dininin Qızılbaş dövlətində yeganə dövlət və millət təriqəti qəbul edilməsi dövlət aparatının mərkəzləşdirilməsinə və mərkəzi hakimiyyətin XV əsrə nisbətən olduqca qüvvətlənməsinə gətirib çıxardı. Şəriətə görə şah ölkədəki torpaq və suyun baş mülkiyyətçisi sayılırdı; o, ölkənin ən böyük feodalı idi [52, 127, 103].

Səltənət irsən şahdan şahzadəyə keçir və beləliklə də, şahlıq özündə mütləq monarxiya xüsusiyyətini əks etdirirdi. Hökmdar hakimiyyəti altındakı yerləri yuxarı təbəqədən olan əyanlar vasitəsilə idarə edir, məmləkətin yeganə varisi sayılırdı [64, 168a, 248a; 65, 182].

XV-XVI əsrlərin məhsulu olan bəzi kitablarda, o cümlədən XVI əsr mənbəyi "Name-yi nami" əsərində ali təbəqənin "sultanlar, əmirlər, sədrlər, vəzirlər və saraya yaxın şəxslər" olduğu göstərilir [69, 13].

Şah mühüm məsələlərin həlli üçün dövlət başçıları ilə məşvərət edir, sədr, vəzir, hakim və başqa məsul şəxslərin rəy və təkliflərinə qulaq asırdı [64, 263a, 263b; 76, 156]. Ancaq, şübhəsiz, həlledici söz şahın olardı.

O, adətən, dövlətin paytaxt adlanan əsas şəhərində yaşayır, qışlaq və yaylaq yerlərinə getməyi nəzərə alınmazsa, əsasən, müharibə vaxtı şəhəri tərk edirdi. Məsələn, qaraqoyunlu və ağqoyunlu hökmdarları Təbrizdə, I Şah İsmayıl Təbrizdə, I Şah Təhmasib Təbriz və Qəzvində, II Şah İsmayıl Qəzvində, Şəki hakimləri Şəkidə, şirvanşahlar I İbrahim, I Xəlilullah, Fərrux Yasar, II İbrahim, II Xəlilullah və Şahruq vaxtlarının çoxunu Şamaxıda keçirmişlər.

Bəzən kütləvi ölümlərə səbəb olan xəstəliklərə görə də şah müvəqqəti olaraq şəhərdən çıxırdı. 841 (1437/38)-ci ildə Təbriz vilayətində taun yayıldığı üçün Cahanşah paytaxtdan çıxmış və bir müddət Bərdədə qalmışdı [64, 220b]

Bir-birindən asılı olan dövlət başçıları arasında "şərtnamə" yazılır və bu sənədlə birinin digərindən asılılığı nəzərə çatdırılırdı. Belə ki, 894 (1488/89)-cü ildə Fərrux Yasar və Yaqub Ağqoyunlu arasında yazılmış, şərtnamədə birinci tərəfin asılılığı aydın nəzərə çarpır: "...Söz verirəm ki, dostun olum, səninlə yaxşı yola gedim, vəd etdiyim 5000 Təbriz tüməni [məbləğində pulu hər il] gecikdirmədən göndərim" [66, 624-625]

Şah öldükdə bir qayda olaraq çaxnaşma düşür, başqa ölkə hökmdarları, yaxud şahın övladları, xüsusilə qüdrətli əmir və yüksək vəzifə sahibləri taxtı öz xeyirlərinə ələ keçirməyə çalışırdılar [64, 248b; 65, 136, 463-475].

**Şahzadə:** Həsən bəy Rumlu və başqa tarixçilər şahzadələr haqqında da maraqlı məlumatlar vermiş, onların həyatını, dövlətdə rolunu, əxlaq, qabiliyyət və bacarığını təsvir etmişlər. Həsən bəy Rumlu adətən şahın vəfatından sonra onun övladlarının adlarını bir-bir sadalayır [64, 225b, 245b; 65, 11, 89].

Dövlət işlərində təcrübə əldə etməkdən ötrü şahzadələr vilayətlərə hakim təyin edilir və beləliklə, "sınaq dövrü" keçirirdilər [64, 248b]. Hakim şahzadəyə hakimiyyət rəmzi kimi təbil, bayraq və ordu verilirdi [97, 294]. Azyaşlı şahzadə bir qayda olaraq, "lələ" adlanan tərbiyəçi əmirə tapşırılırdı. Hakim şahzadənin ixtiyarına verilən yerin bütün inzibati işləri lələ vasitəsilə idarə edilirdi.

Şahzadələr hakimiyyəti ələ keçirməkdən ötrü çox vaxt bir-birləri ilə mübarizə edirdilər [65, 253, 315]. Şahzadə lələ və özünün başqa himayəçilərindən ötrü bir gəlir vasitəsi idi, çünki onlar şahzadənin adından hərəkət edir, böyük sərvət toplayırdılar [74, 61]. İdarə etdikləri yerlərdə şahzadənin də idarəedici divanı olurdu [81, 257b; 97, 186]. Bəzən isə şahzadələr təyin olunduqları yerə özləri getmir, oraya etibarlı nümayəndələrini göndərməklə kifayətlənirdilər [74, 62-63].

**Lələ:** Qaraqoyunlu dövlətinin ilk illərinin təsvirini verən hadisələr şərh edilərkən "Əhsənüt-təvarix"də lələ istilahı "atabəy" kimi işlənmiş və Qara Yusifin oğlu Pirbudağın Əmir Qara adlı atabəyinin adı çəkilmişdir [66, 85][13]

Lələ bu vəzifəyə şəxsən şah tərəfindən təyin edilir və şahzadənin bütün hərbi, mülki və mali işlərini onun adından idarə edirdi [66, 325]. Bu vəzifəyə namizəd, əsasən, hökmdarın yaxın qohumlarından olardı [11, 38]. Sam Mirzənin lələsi Durmuş xan Şamlu öləndən sonra onun qardaşı Hüseyn Şamlu gənc şahzadənin yeni lələsi olmuşdu [61, 239][14]

Lələ adlı-sanlı əmirlərdən də təyin edilirdi [88, 254]. Ağqoyunlu dövlətində böyük rol oynamış əmir Sufi Xəlil bir müddət şahzadə Baysunqurun (Sultan Yaqubun oğlu) lələsi olmuşdu [65, 495]. Əmirin ləlliyə keçirilməsi onun tərəfindən böyük bir hadisə kimi qiymətləndirilir və əmir bu münasibətlə böyük ziyafət verirdi [65, 154], çünki azyaşlı şahzadəyə lələ olan əmirin böyük səlahiyyəti olurdu [66, 325]. Cahanşah İsfahan əyalətini oğlu Məhəmmədi Mirzəyə verərkən, "şahzadə hələ həddi-buluğa çatmadığından" əyalətin bütün işləri lələ Məhəmmədə tapşırılmışdı [66, 325].

Təsadüfi deyil ki, lələyə bəzən "etimadüd-dövlə" deyilmişdir [81, 274a][15]. Xandəmirin yazdığına görə, əyalətin bütün səlahiyyəti lələnin ixtiyarında idi [84, 553].

---

[13] "Kitab-i Diyarbəkriyyə" əsərində Uzun Həsənin də lələsi "atabəy" adlandırılmışdır [56, 190]. İskəndər bəy Münşi isə bu sözü "atalıq" kimi işlətmişdir [58, 61]

[14] Durmuş xan Şamlu I Şah İsmayılın arvadı Taclı bəyimin qardaşı idi [83, 81]

[15] "Etimadüd-dövlə" baş vəzirin titulu olmuşdur

İlk səfəvi şahları şahzadə anadan olan kimi ona lələ təyin edirdilər. Belə ki, 938 (1531/32)-ci ildə doğulan şahzadə Məhəmmədə Sam Mirzənin sabiq lələsi Hüseyn xan Şamlu lələ təyin edilmişdi. Əbdi bəy Şirazinin məlumatına görə, "şahzadəni əzəmətlə onun evinə aparıb, ona tapşırdılar" [81, 257b]. 963 (1555/56)-cü ildə anadan olan Heydər Mirzəyə Şah Təhmasib dövlətin vəkili Məsum bəy Səfəvini lələ təyin etmişdi [65, 490; 81, 273b].

Bir müddət Şirvanın hakimi olan Əlqas Mirzəyə müxtəlif vaxtlarda iki lələ təyin olunmuşdu. Onun axırıncı lələsi Qazi xan Təkəlunun qətlindən sonra Əlqas Mirzə lələsiz qalmışdı [81, 255b]. Görünür ki, şahzadədə işləri müstəqil idarə etmək qabiliyyəti yaranarkən daha lələyə ehtiyac qalmırdı.

**Əmirül-ümərа:** (XV-XVI əsrlərdə Azərbaycanda dövlətin idarə olunmasında şahdan sonra birinci yerdə əmirül-ümərа durur və ölkənin hərbi qüvvələrinə başçılıq edirdi [36, 198; 30, 77]. "Əhsənüt-təvarix" və dövrün başqa mənbələrində böyük səlahiyyətə malik olan bu vəzifənin sahibi "məlikul-ümərа, məlik-i əzəm, əmir-i bozorg, əmir-i əzəm" adlandırılmış [66, 126, 235; 61, 288] və "ölkə işlərinin idarəsi"nin onun əlində olduğu göstərilmişdir [65, 185]

Həsən bəy Rumluya görə əmirül-ümərауa məxsus olan möhür "ali divanın başqa möhürlərindən yuxarıda vurulurdu" [65, 107].

XV-XVI əsrlər boyu əmirül-ümərа ölkədəki ən yüksək vəzifələrdən biri sayılırdı. Qaraqoyunlu dövlətinin ilk vaxtlarında bu dövlətin əmirül-ümərаları Bəstam Cagirlu [66, 37, 46] və Əmir Qaraman [66, 115] olmuş və onlar ayrı-ayrı vaxtlarda bu vəzifəni icra etmişlər.

Baysunqur Ağqoyunlunun əmirül-ümərаsı Fərrux bəy adlı bir əmir olmuşdur [66, 630]

Həsən bəy Rumlu əmirül-ümərаnın dövlətdə əsas sima olduğunu göstərir. Belə ki, Qara Yusif əsir aldığı Sultan Əhməd Cəlayirini öldürmək istəmədiyinə baxmayaraq, əmirül-ümərа Bəstam Cagirlunun istəyinə qarşı durmaqdan çəkinmiş və ölüm hökmü verməyə məcbur olmuşdu [66, 68].

Bizim müəllifə görə, əmirül-ümərа "dövlətin ixtiyar sahibi" idi [66, 126, 184]. 930 (1523/24)-cu ildə vəzir Cəlaləddin Xandəmir Təbrizinin yandırılıb həlak edilməsinə səbəb əmirül-ümərа Div sultan Rumlunun hökmü olmuşdu [66, 184].

XV əsrdə əmirül-ümərа mənsəbinin iki şəxs tərəfindən icra edilməsi faktına təsadüf olunmursa, XVI əsrin müəyyən illərində əmirül-ümərаlığın şərikli aparılması halına rast gəlinir. Mənbələrin məlumatına görə, 906 (1500/01)-cı ildə İsmayıl Səfəvi Şirvanı alarkən, onun döyüşçülərindən Hüseyn bəy Şamlu və Abdal bəy Dədə əmirül-ümərа idilər [98, 137a; 61, 288]. 936 (1529/30)-cı ildə isə I Şah Təhmasib öz bacısı oğlanları Hüseyn xan və Abdulla xanı əmirül-ümərа etmişdi [65, 238; 81, 256b; 58, 49].

Bu vaxta qədər tədqiqat əsərlərində əmirül-ümərа vəzifəsinin şərikli aparılmasına dair mülahizə yürüdülməmişdir. Ancaq yuxarıda yazılan məlumatdan görünür ki, müəyyən müddətdə bu vəzifə müştərək icra edilmişdir. Fikrimizin

sübutu üçün bir daha mənbəyə müraciət edək: Əbdi bəy Şirazi yazır: "Mustafa sultan Ustaclı əmirül-üməralıqda Div sultana şərik oldu, lakin bu vəzifədə Div sultan daha üstün idi" [81, 252b].

Mənbələrdə əmirül-üməra mənsəbi bəzən vəkalət və divan əmiri vəzifələrinin sinonimi kimi də göstərilir. Məsələn, Həsən bəy Rumlu yazır ki, Div sultan gəncliyində I Şah Təhmasibin əmirül-üməragı idi [65, 184]. Müəllif azacıq sonrakı izahında Divin vəkil olduğunu bildirir [65, 187—188]. "Lübbət-təvarix" əsərində Hüseyn bəy Şamlunun I Şah İsmayılın əmirül-üməragı olduğu göstərilmiş [98, 137]. Sonradan isə o, divan əmiri kimi qələmə verilmişdir [98, 144]. Bu misaldan başqa Mir Yəhya Qəzvini yazır: "Divan əmiri olan Çayan sultan Ustaclu 930 (1523/24)-cu ildə vəfat etdi, onun yerini oğlu Bayazid sultana verdilər. O da bir neçə gündən sonra öldü və əmirül-üməralıq mənsəbinə Div sultan Rumlu təyin olundu" [98, 150]. Əbdi bəy Şirazi də Divin əmirül-üməra və vəkil olduğunu yazır [81, 253b].

Fikrimizcə, əmirül-üməranın vəkil adlandırılması ilə razılaşmaq olar, çünki hakimiyyətinin başlanğıcında I Şah Təhmasibin əmirül-üməraları bir növ onun vəkilləri olmuşlar ki, bütün işləri gənc və təcrübəsiz şahın adından aparırdılar. Ancaq orta əsr tarixçiləri tərəfindən əmirül-üməralığın divan əmiri mənsəbi ilə eyniləşdirilməsi düzgün deyildir ki, bu barədə "Divan əmiri" bəhsində danışılacaqdır.

**Sədr:** Dövlətdə tutduğu mövqeyinə görə XVI əsr Səfəvi dövlətində əmirül-üməradan sonrakı yer sədrə məxsus olmuşdur. Lakin XV əsr Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində sədarət mənsəbini aparan şəxsin rolu bir əsr sonrakı sədrin rolundan fərqlənir və elə böyük üstünlüyə malik deyildi. Mənbələrdə hətta XV əsr Azərbaycan feodal dövlətlərində vəkil və vəzirin tutduğu mövqeyin sədrə nisbətən daha üstün olduğu aşkar nəzərə çarpır və sədrin fəaliyyəti, əsasən, göstərilmir.

Tarixçilərin əksəriyyəti bu vəzifəni "yüksək vəzifə" adlandırmışdır [65, 110; 84, 549; 97, 126]. Ümumiyyətlə, Həsən bəy Rumlu və başqalarının əsərlərində Qaraqoyunlu dövlətində sədrin oynadığı rol az işıqlandırılmışdır, lakin Ağqoyunlu dövlət aparatında sədrin icra etdiyi vəzifənin ön plana çəkildiyinə işarə edilmişdir. Həsən bəy Rumlu ağqoyunlu sədri Qazi İsanı "sədarət mənsəbi və dini işlər vəzifəsinin sahibi" adlandırır, lakin bir müddət sədrlik edən bu şəxsin səltənətdə "ixtiyar sahibi" sayılan vəkil Sufi Xəlilin fərmanı ilə öldürülməsi [66, 633; 84, 436; 88, 254] sədarət vəzifəsinin XV əsrdə hələ o qədər də möhkəm mövqe tutmadığını göstərir.

Qaraqoyunlu dövlətinin tərkibində olan Bağdad əyaləti, "Əhsənüt-təvarix"də göstərildiyinə görə, 847 (1443/44)-ci ildə Cahanşah tərəfindən oğlu Məhəmmədi Mirzəyə verilmiş və şahzadə azyaşlı olduğundan şəhər işlərinin idarəsi Abdulla adlı bir şəxsə tapşırılmışdı [66, 250]. Həsən bəy Rumlu Abdullanın vəzifəsinin adını göstərmirsə də, onun Məhəmmədi Mirzənin ləlesi və sarayında

sədarət mənsəbinin sahibi olduğu bilinir, lakin səfəvi sədrlərinin XVI əsrdə gördüyü işlərin ancaq ikisinin ("həll və əqd"—yəni bir sıra işlərin "açılması və bağlanması") qaraqoyunlu sədri Abdulla tərəfindən icra edilməsi o zaman sədrin fəaliyyətinin məhdud olduğuna dəlalət edir. Buna baxmayaraq, qeyd etmək lazımdır ki, sonrakı əsrlərdə olduğu kimi, XV əsr sədrlərinin də ən əsas vəzifələrindən biri vəqf idarələrinə rəhbərlik etmək olmuşdur [69, 166].

Göstərmək lazımdır ki, səfəvilər dindən "böyük bir dövlət yaratmaq üçün ideoloji bir silah kimi istifadə edirdilər" [52, 96]. Buna görə də, XVI əsr Səfəvi dövlət aparatında şiə təriqəti adından çıxış edib hökümətə böyük köməklik göstərən sədarət mənsəbi görkəmli yer tuturdu. I Şah İsmayıl taxta cülus edən kimi sədarət vəzifəsini müəllimi olmuş Şəmsəddin Gilaniyə vermişdi [65, 54; 61, 266; 97, 74]. Bu səfəvi şahı yeni dövlətin möhkəmlənməsində görkəmli rol oynayan şiə təriqətinin daha sürətlə yayılmasından ötrü sədr mənsəbini başqa adama deyil, ilk növbədə məhz öz etibarlı nümayəndəsinə tapşırmışdı. Lakin sədrlər həmişə şahın etimadını doğrultmurdular. Həsən bəy Rumlu bildirir ki, 915 (1509/10)-ci ildə vəzifəsindən istifadə edib "nahaq qanlar tökən" sədr Qazi Məhəmməd Kaşi I Şah İsmayılın əmri ilə öldürülmüş [65, 110; 98, 140; 88, 272; 77, 145] və o vaxtdan başlayaraq, həmin vəzifə "yüksək dərəcəli seyidlərdən başqa heç kəsə verilməmişdi" [65, 152 84, 549 - 550]

Hələ səfəvi hakimiyyətinin ilk illərində sədarət mənsəbi şərikli aparılmağa başlandı. Bu, şah və dövlət torpaqlarına (xassə və məmalik) sədarət funksiyasının genişləndirilməsi ilə izah olunur [55, 48]. Məlumdur ki, sədrlərin hər ikisi din adından hərəkət edirdi [88, 272; 97, 126]. Mənbələrdə yazıldığına görə, səfəvi dövləti qüvvətləndikdən sonra müxtəlif vilayətlər şəri baxımdan iki sədr arasında bölüşdürülmüşdü. Belə ki, İraq, Fars və Xuzistan sədarətini Mir Şəmsəddin Məhəmməd Yusif, Xorasan, Azərbaycan və Şirvan sədrliyini isə Mir Zeynəddin Seyid Əli 970 (1562/63)-ci ildə icra edirdilər [65, 419; 88, 308; 77, 220][16].

Beləliklə, aydın olur ki, dövlətdə tutduqları yer və daşıdıqları vəzifənin səlahiyyətinə görə qaraqoyunlu və ağqoyunlu sədrləri səfəvi sədrlərindən fərqli olmuşlar. "Name-yi nami" əsərində də müxtəlif dövlətlərin sədrləri bir-birindən fərqləndirilir. "Sədrlərin vəzifəsi hər dövrdə və hər bir hökmdarın xidmətində müxtəlif olmuşdur" [69, 42].

Böyuk müharibələr zamanı sədrlər də döyüşə gedir, fəaliyyət göstərirdilər [52, 105]. 920 (1514)-ci ildə baş verən Çaldıran döyüşündə I Şah İsmayılın hər iki sədri osmanlılar tərəfindən öldürülmüşdü [65, 152; 77, 158].

**Vəkil:** XV-XVI əsrlər Azərbaycan feodal dövlətlərinin idarə olunmasında vəkilin də özünəməxsus yeri olmuşdur[17]. O, şah adından hərəkət edir, bəzi hallarda

[16] "Cavahirəl-əxbar" əsərində bu bölgü belə verilmişdir: "İraq, Fars, Xuzistan, Şirvan – Mir Məhəmməd Yusifə, Azərbaycan və Xorasan – Mir Seyid Əliyə tapşırıldı" [61, 329 b]. Mənbələrin əksərində Şirvan və Azərbaycan birgə göstərildiyinə görə, fikrimizcə, Budaq Qəzvini səhvə yol vermişdir.

[17] O.Ə. Əfəndiyev vəkil vəzifəsinin artıq Işah Abbas dövründə olmadığını bildirir [52, 104]

şahın əvəzçisi kimi hərbi yürüşlərə də çıxırdı [66, 62]. Həsən bəy Rumlu yazır ki, Qara Yusif 813 (1410/11)-cü ildə Ərzincana hücum edən vaxt hərbi yürüşün çox uzandığını görərək, oranı ələ keçirməyi öz vəkillərinin öhdəsinə qoymuşdu. 40 gündən sonra Ərzincan hakimi təslim olub, qapı və xəzinə açarlarını onun vəkillərinə verməyə məcbur olmuşdu [66, 62]. Hərbi yürüşlərdə orduya başçılıq bir neçə şəxs tərəfindən icra olunduğundan Həsən bəy Rumlu, hökmdarın adından hərəkət edib, müəyyən tapşırığı yerinə yetirən həmin şəxsləri "vükəla" ("vəkillər") adlandırmışdır [66, 435, 448]. İndi görək, qaraqoyunlu dövrünə aid olan "vükəla" ifadəsi sonralar Ağqoyunlu və səfəvi dövlətlərində mühüm əhəmiyyət kəsb edən vəkalət vəzifəsinin icraçılarına aiddirmi? Əsla yox! Çünki qaraqoyunlular dövründə vəkalət bir vəzifə kimi hələ formalaşmamışdı. Bu fikri Qaraqoyunlu dövlətinin təsviri zamanı müxtəlif mənbələrdə vəkalət vəzifəsinə əhəmiyyət verilməməsi ilə izah etmək olar. Doğrudur, yuxarıdakı misaldan da vəkillərin bir əvəzçi kimi fəaliyyəti məlum oldu, lakin şübhəsiz ki, bu vəkillər sonradan böyük əhəmiyyətə malik olan vəkillərdən fərqli idilər.

Vəkalət vəzifəsinin formalaşması, fikrimizcə ağqoyunluların hakimiyyəti zamanı həyata keçmişdir. Məlumdur ki, 12 il bu dövlətə başçılıq edən Yaqub şahın vəkili Şeyx Nəcməddin Məsud idi [66, 595].

"Əhsənüt-təvarix"də verilən aşağıdakı məlumata əsasən Ağqoyunlu dövlətində vəkalət mənsəbinin hətta bəzən əmirül-üməradan da üstün olduğunu söyləmək mümkündür. Tarixi bir faktdır ki, Yaqub şahın öldürülməsindən sonra hakimiyyəti Sufi Xəlilin köməyi ilə azyaşlı şahzadə Baysunqur ələ almış və dövlətin əmirül-ümərası Fərrux bəy[18] təyin edilmişdi [66, 630]. Gənc şahın adından dövləti idarə etməyi əmirül-ümərа olmaqdan daha üstün tutan Sufi Xəlil məhz vəkaləti öz əlinə almışdı [66, 632]. "Əhsənüt-təvarix"-də vəkalət mənsəbinin üstünlüyünü təsdiq edən başqa bir fakt da vardır. 903 (1497/98)-cü ildə Uzun Həsənin nəvəsi Gödək Əhməd ağqoyunlu Rüstəm şahı məğlub edib, taxt-tacı ələ keçirən vaxt Kirman valisi Eybə sultan və Şiraz valisi Qasım bəy Pornak ona qarşı sui-qəsd hazırlayaraq qərara gəlmişdilər ki, Uzun Həsənin digər nəvəsi Sultan Muradı Şirvandan gətirib, taxta çıxarsınlar və özləri yeni şahın vəkili olsunlar [65, 16]. Bu faktla o zaman vəkalət mənsəbinin böyük üstünlüyü nəzərə çatdırılır və eyni zamanda vəkalətin də bəzən müştərək icra edildiyi aydınlaşır. Başqa mənbələrdə də vəkalətin şərikli aparılmasına cəhd olunma faktı vardır [65, 189; 60, 253b; 77, 169].

Orta əsr tarixçiləri vəkilə "ixtiyar sahibi", "iqtidar sahibi", vəkalət mənsəbinə isə "ali vəzifə", "şərəfli mənsəb" demişlər [66, 632; 88, 271; 58, 46, 159]. Vəkil səltənətin "ixtiyarlı adamı" da adlandırılmışdır [81, 240; 58, 49].

Bacarıqlı vəkilin işə cəlb edilməsi zəruri və təxirəsalınmaz bir vəzifə kimi qarşıda dururdu. Belə ki, 904 (1498/99)-cü ildə qardaşı Məhəmmədi Mirzəyə qalib

---

[18] Bu da "Əhsənüt-təvarix"in Leninqrad əlyazma nüsxəsində Qoç bəy kimi getmişdir [64, 122a]

gəlib, yenidən Təbrizdə taxta çıxan Əlvənd bəyin ilk işi özunə vəkil təyin etmək olmuşdu. O, Lətif bəy adlı bir əmiri vəkil etmişdi [65, 21]. I Şah İsmayılın ən etibarlı köməkçisi vəkil Nəcməddin Məsud idi [65, 110; 82, 309]. Onun ölümündən sonra vəkil təyin edilən Yar Əhməd Xuzaninin "Nəcm-i sani" ("ikinci Nəcm") adlandırılması əvvəlki vəkilin ehtiramla yad edildiyini göstərir [65, 110, 89, 309]. I Şah Təhmasibin hakimiyyətinin ilk illərində vəkalət mənsəbini ələ keçirmək uğrunda əmirlərin mübarizəsi qanlı döyüş xarakteri almışdı. 931 (1524/ 25)-ci ildə bu 10 - 11 yaşlı səfəvi şahının iki qüdrətli əmiri arasında başlanan ixtilafın səbəbi məhz vəkalət mənsəbinin kim tərəfindən ələ keçiriləcəyi olmuşdur. Həmin mübarizədə əmirül-üməra Div sultan Rumlu qalib gələrək, gənc şahın müstəqil vəkili olmuşdu [65, 189]. Lakin bundan sonra da səfəvi əmirləri arasında vəkalət uğrunda gedən mübarizə sakitləşmədi. Çox keçmədən Çuhə sultanın "Gözəldərə" yaylağında I Şah Təhmasibi təhrik etməsi nəticəsində Div sultan öldürüldü və Çuhə sultan vəkil oldu [65, 205; 58, 48]. Lakin başqa əmirlərin vəkil olmaq arzusu bununla sakitləşmədi və nəticədə ikinci qanlı bir hadisə baş verdi: Vəkil Çuhə sultan və əmir Hüseyn xan Şamlu arasındakı mübarizədə vəkil öldürüldü [65, 235]. Vəziyyəti belə görən Çuhə sultanın mənsub olduğu təkəlu tayfasının əmirləri dərhal onun böyuk oğlu Şahqubadı vərik etdilər [65, 236][19]. Ancaq ustaclu, Rumlu, zülqədər və əfşar tayfalarının əmirləri vəkalətin yenidən təkəlu əmirlərinin əlinə keçməsinə razı olmayıb onlarla döyüşə başladılar. Hadisənin belə şəkil aldığını görən I Şah Təhmasib dərhal bütün təkəlu tayfasının qətl edilməsi əmrini vermiş, nəticədə böyük qırğın baş vermişdi [65, 236].

Vəkalət vəzifəsi uğrunda gedən bu çəkişmələr vaxtı Azərbaycan əmirül-ümərası Üləma Təkəlu də üsyan etdi. Buna səbəb onun da vəkil olmaq arzusu idi, lakin bu arzu həyata keçmədi [65, 237; 58, 49]. Həsən bəy Rumlu göstərir ki, I Şah Təhmasib vəkaləti Hüseyn xan Şamluya verdi [65, 236, 253]. Ancaq onun da vəkilliyi uzun sürmədi. 939 (1532/33)-cu ildə şahı zəhərləmək istəyən Hüseyn xanın qəsdinin üstü açılmış və o, dərhal qətl edilmişdi. Həsən bəy Rumlu yazır ki, vəkil Hüseyn xan dövlətdə dəyişiklik etmək və xalqı Sam Mirzənin taxta çıxarılmasına rəğbətləndirmək istəyirmiş [65, 253].

Şübhəsiz ki, vəkalət vəzifəsi uğrunda gedən bu ehtiraslı mübarizənin səbəbi səfəvi şahının hələ çox gənc olmasında və əmirlərin hakimiyyəti idarə edərək öz şəxsi məqsədlərini həyata keçirmək istəmələrində olmuşdur. Məhəmməd Bəqa Səxaranpuri açıq-aşkar yazır ki, Şah Təhmasibin yaşı az olduğundan vəkalət uğrunda gedən mübarizənin qarşısını ala bilmirdi [92, 242].

Vəkil də görkəmli dövlət nümayəndəsi kimi şəxsən döyüşlərdə iştirak edirdi. Həsən bəy Rumlunun məlumatına görə Şirvanşah Şahrux 944 (1537/38)-cü ildə I Şah Təhmasiblə döyüşə öz vəkili Hüseyn bəyi yollamışdı [65, 287].

---

[19] "Rövzətüs-səfəviyyə"də göstərilir ki, təkəlu tayfası vəkaləti "qılınc gücünə" ələ keçirmişdi [97, 292]

Tarixi mənbələrə əsasən müəyyən etmək olur ki, ilk səfəvilərin hakimiyyəti zamanı bir vəzifə iki şəxs tərəfindən icra edildiyi kimi (misal üçün belə hallardan bəziləri yuxarıda göstərildi), bəzən müəyyən iki vəzifə birləşdirilərək bir şəxs vasitəsilə ifa edilirdi. Faktlara müraciət edək: I Şah İsmayılın əmirül-ümərası və vəkili bir müddət Nəcməddin Məsud olmuşdur [65, 107, 110; 88, 271; 61, 288a] ki, bununla da əmirül-üməra mənsəbinin vəkillik səlahiyyətinə malik olduğu (yaxud əksinə) aşkara çıxır. Məlumdur ki, Çaldıran döyüşündən sonra I Şah İsmayıl "ali divana nəzarəti" Mirzəşah Hüseynə, əmirül-ümərahğı isə Çayan sultan Ustacluya tapşırmışdı [65, 150]. Az sonra vəzir Mirzəşah Hüseynin vəkil vəzifəsində də işlədiyi bildirilir [65, 177; 97, 234]. Dövrün mənbələri 930 (1523/24)-cu ildə Div sultan Rumlunu gah əmirül-ümərа, gah da vəkil kimi göstərir [65, 177, 185; 58, 46]. Həsən bəy Rumlu yazır ki, vəzir və vəkil Mirzəşah Hüseynin öldürülməsindən sonra onun vəzarət və vəkalət vəzifəsi Cəlaləddin Məhəmməd Xandəmir Təbriziyə tapşırılmışdı [65, 184; 81, 280a; 61, 297b]. Çox keçmədən, yuxarıda göstərildiyi kimi, o da aradan götürülür və "ölkə işlərinin idarəsi" əmirül-ümərа Div sultan Rumlunun əlinə keçir [65, 184, 185; 88, 281], yəni əmirül-ümərа həm də vəkil olur.

Bütün bunlardan bir daha aydın olur ki, müəyyən dövrlərdə səfəvi sarayında vəkalət mənsəbini əvvəlcə vəzir, sonra isə əmirül-ümərа ələ alıbmış. I Şah İsmayılın hörmətli vəziri Mirzəşah Hüseynlə rəqabətə girə bilməyən Div sultan Rumlu vəkil olmaqdan ötrü yeni vəzir Cəlaləddin Təbrizini aradan götürə bilmiş və yuxarıda göstərildiyi kimi, eyni zamanda vəkalətə də sahiblənmişdi. Əmirül-ümərа və vəkil olan Div sultanın qətlindən sonra vəkalət mənsəbini yenə də əmirül-ümərа aparmağa başlayır [65, 205; 81, 253b;. 97, 264] ki, bununla da vəzirin vəkalət vəzifəsindən uzaqlaşdırıldığı və vəkilliyin yenidən əmirül-ümərаya tapşırıldığı məlum olur.

**Vəzir:** Mərkəzi dövlət idarəsində mühüm yerlərdən biri də dövlət gəlirləri və maliyyə aparatını idarə edən baş vəzirin olmuşdur. O, həmçinin ölkənin xarici işləri ilə məşğul olur və mülki-inzibati idarələrə başçılıq edirdi [36, 198]. Tarixi mənbələrin çoxunda baş vəzirə "etimadüd-dövlə" ("dövlətin etimadı") deyildiyi göstərilmişdir [58, 226; 63, 5] ki, bununla da vəzirin böyük etimada layiq olduğu nəzərə çatdırılır. Baş vəzir ali divana rəhbərlik etdiyinə görə bəzən "sahibdivan" da adlanırdı [65, 150, 491][20]

Həsən bəy Rumlu dövlətin bütün malı və mülki işlərinə rəhbərliyin baş vəzir tərəfindən həyata keçirildiyini bildirir [66, 581]. Vəzirin vəzifəsinə həmçinin "divan gəlirinin artırılması, dövlət tapşırıqlarının yerinə yetirilməsi, inşaat və əkinçiliyin çoxaldılması, döyüşçü və rəiyyətə diqqət göstərilməsi, vilayətin abadlaşdırılması" da daxil idi; maliyyə divanının bütün sənədləri onun möhürü ilə möhürlənirdi [69, 175].

[20] "Name-yi nami" əsərində vəzarətə "uca rütbəli vəzarət və sahibdivanlıq vəzifəsi" deyilir [69, 175]

Ayrı-ayrı hakim və şahzadələrin də vəzirləri olurdu. "Əhsənüt-təvarix"də Şirvanşah I İbrahimin Qazi Bayazid adlı bir vəzirinin adı çəkilmişdir [66, 106]. Şahzadə Qara İsgəndərin vəziri Seyid Mahmud [66, 220], Həsənəlinin vəziri Xacə Şəmsəddin idi [66, 403]. Həsənəli 863 (1458/59)-cü ildə atası Cahanşaha xəyanət edərək Təbrizi tutmuş, az sonra atasının onun üstünə qoşunla gəldiyini eşidib şəhəri tərk etməyə məcbur olmuşdu. Təbrizi yenidən ələ alan Cahanşah oğlunun təqsirinin bağışlanmasından ötrü ilk növbədə onu bu işə sövq edən vəziri Xacə Şəmsəddini öldürməyi tapşırmış və Həsənəli əmri yerinə yetirmişdi [64, 186a; 56, 360]. Bu misalla vəzirin şahzadə üzərində olan təsir gücü nəzərə çatdırılır.

Vəzir də vəkil kimi məşhur əmirlərdən təyin edilirdi [66, 464; 81, 259a]. Cahanşahın qətlindən sonra Təbrizdə taxta çıxıb, bir neçə gün hökmranlıq edən Arayeş bəyim (Qara İsgəndərin qızı—Ş. F.) Əlaəddin Sədiq Keçəçini özünə vəzir təyin etmişdi [66, 462; 56, 435]. Arayeş bəyimi bir neçə gündən sonra məğlub edib, yenidən taxta çıxan Həsənəli vəzir Əlaəddini vəzifəsində saxlamış, Əmir Aşur və Əmir Məcidəddin İsmayılı da onunla birlikdə vəzir etmişdi [66,464; 56, 439]. Görünür Həsənəlinin divanında baş vəzir Əlaəddin Sədiq Keçəçi olmuşdur. Baysunqur Ağqoyunlunun vəziri onun qohumu Şeyx Məhəmməd Keçəçi idi [66, 630].

İllərlə ağqoyunlu vəzarətini aparan vəzirlərdən biri də Şəmsəddin Zəkəriyyə idi ki, o, 906 (1500/01)-cı ildən etibarən, yuxarıda göstərildiyi kimi, I Şah İsmayılın ali divanına vəzir təyin olunmuşdu [65, 54][21].

Vəzirlər hərbi yürüşlərdə də iştirak edir, onların xidmətləri yalnız mülki və mali işlərlə məhdudlaşmırdı [65, 305; 72, 277]. Baş vəzirin ixtiyarında bir neçə min silahlı əsgər olurdu [72, 277].

İlk səfəvilərin hakimiyyəti zamanı fəaliyyət göstərən vəzirin vəzifəsi XV əsr qaraqoyunlu və ağqoyunlu vəzirlərinin vəzifələrindən bir qədər fərqlənirdi. Belə ki, XVI əsrdə sədr kimi vəzirin də fəaliyyət dairəsi genişlənmiş və vəzarəti əvvəllərdə olduğu kimi, bir deyil, iki vəzir icra etməyə başlamışdı [65, 458; 81, 271; 55, 48].

Ali divan vəzarətini şərikli idarə edən vəzirlərin fəaliyyət dairəsi müxtəlif olmuşdur. Azərbaycan, Şirvan, Şəki və Gürcüstanın vəziri bir müddət Mirzə Ətaulla Xuzani olmuşdur ki, onu sonradan Xacə Cəmaləddin Əli Təbrizi əvəz etmiş, Xorasan, Gilan, İraq, Fars və Kirmanın vəzarəti isə 972 (1564/ 65)-ci ildə Seyid Həsən Fərəhaniyə verilmişdi [61, 334a].

Dini işlərlə, əsasən, sədrin məşğul olmasına baxmayaraq, bəzən baş vəzir sədarəti də öz hökmü altına alırdı. Həsən bəy Rumlu göstərir ki, 985 (1577/ 78)-ci ildə ali divan vəzarətini aparmaq II Şah İsmayıl tərəfindən Mirzə Salman Cabiriyə

[21] "Lübbət-təvarix" əsərində Şəmsəddin Zəkəriyya "Azərbaycan kilidi" adlandırılır [98, 137]. Güman ki, o, əsasən Azərbaycanın nəzarətini icra etmişdi.

tapşırılmış, bütün "dövlət və din işləri" onun öhdəsinə buraxılmışdı [65, 491]. Məlumdur ki, o, sonradan Məhəmməd Xudabəndənin də vəziri olmuşdu [65, 502].

Dövlətin bütün mülki və mali işlərinə nəzarət edən ali divanın ayrı-ayrı vilayətlərdə də vəzirləri olurdu ki, onların hamısına bilavasitə baş vəzir rəhbərlik edirdi. 958 (1551/52)-ci ildə Xacə Qiyasəddin Əli ilə vəzarəti şərikli icra edən Xacə Əmir bəy Keçəçi həbs edilmiş [65, 355], onun yerinə Şirvan vəziri Ağa Məhəmməd Fərahani keçmişdi [81, 271a]. Həsən bəy Rumlunun məlumatına görə, Əmir bəy Keçəçi cavanlığında əvvəl Qazi xan Təkəlunun, sonra isə Əmir Sultan Rumlunun vəziri olmuş, sonradan bütün Xorasan vəzarəti ona tapşırılmışdı [65, 355].

Mənbələrin məlumatına görə, divan vəzirlərindən birisi qorçi dəstələrinin vəzarət işlərinə rəhbərlik edir və "qorçilər vəziri" adlanırdı [61, 305b; 88, 87; 77, 182]. Qorçilərə çatası məvacib və mükafat yalnız bu vəzirin möhürü ilə icra edilirdi [63, 37].

**Hakim:** XV - XVI əsr Azərbaycan feodal dövlətləri tarixində hakimin də özünəməxsus yeri və fəaliyyəti olmuşdur. Göstərmək lazımdır ki, "hakim" də, başqa istilahlar kimi, həm geniş, həm də dar mənalarda işlənmişdir. Həsən bəy Rumlu bəzən şahları da hakim adlandırır [66, 82]. Məlumdur ki, şahın tabeliyində olan ölkə, vilayət və şəhərlər həmçinin hakimlər tərəfindən idarə edilirdi [74, 45]. Onlar məşhur əmirlərdən təyin edilir [65, 12] və xəzinəyə hər il müəyyən miqdar vergi verir, şaha vaxtaşırı hədiyyə göndərir və müharibə vaxtı əsgəri qüvvə ilə kömək edirdilər. Hakimlərin ən mühüm xüsusiyyəti onların hərbi qüvvələrə başçılıq etmələrində idi [74, 68]. Hakim bəzən əlindən çıxarılan əyaləti "böyük xərclə" geri alırdı [65, 13] ki, bu da hakimin hakimiyyəti əldən verməmək ehtirasını göstərir.

XV - XVI əsr tarixi mənbələrində inzibati cəhətcə tutduqları yerə görə hakimlər bu dərəcələrə bölünmüşlər: vilayət, şəhər və qala hakimləri. Axırıncılara "kutval" da deyilirdi [66, 46, 67; 88, 273].

Təyin olunduğu yerə gedən hakim özü ilə şahın təsdiq edib ona verdiyi hökm sənədini - "nişan"ı aparırdı [66, 67, 325; 69, 163; 77, 93]. Nişanda adı göstərilən yerin ona çatdığı yazılır, əhalidən hakimi peşkəşlə qarşılaması, qala və xəzinə açarlarının təqdim edilməsi və ona sözsüz itaət olunması yazılırdı [66, 67].

Hakimə "daruğə" də deyilmişdir ki, işləndiyi məna baxımından hakim və daruğə sözləri bir-biri ilə qarışdırılmamalıdır. K. M. Röhrborn yazır ki, "darğa sadə dillə hakim deməkdir və şah tərəfindən təyin edilirdi" [74, 191]. Alman tədqiqatçısının bu fikri XV əsrə aid edilə bilər. O zaman doğrudan da müəyyən inzibati sahəni idarə edən şəxsə həm hakim, həm də daruğə deyilmişdir [66, 323, 461; 56, 295, 326]. Məsələn, Uzun Həsənin nəvəsi Əlvənd 886 (1481/82)-cı ildə vəfat etdikdən sonra əmirlərin bir neçəsi "Yaqub padşahın dərgahına məktub yollayıb" darğa istəmişdi [64, 489a]. Aydındır ki, əmirlərin xahişi onlara hakim

göndərilməsindən ötrü nəzərə çatdırılmış və burada darğa hakim sözünün sinonimi kimi işlənmişdir.

Başqa bir misal: Həsən bəy Rumlunun məlumatına görə, I Şah Təhmasib yerlərə darğa yollamadığından Azərbaycan rəiyyəti arasında daim dava-dalaş olardı [65, 489]. Bu fikrə tənqidi yanaşmaq lazımdır. Mənsub olduğu feodal sinfinə qarşı baş verən narazılığı ört-basdır etməyə çalışan Həsən bəy Rumlu sinfi mübarizənin səbəbini şahın Azərbaycana darğa (hakim) göndərməməsi ilə izah edir ki, bu, düzgün fikir deyildir. Çünki 1571-1573-cü illərlə Təbriz üsyanı baş verərkən, şəhərdə hakim var idi və üsyana səbəb xalqın yerli hakimiyyətdən narazılığı olmuşdu.

Darğa istilahı hakim mənasında işləndikdə, hakimin rütbəcə, yəni onun əmirliyi (əmarət) dərhal nəzəri cəlb edir. Bunun əksinə olaraq, darğa istilahı dar mənada işlənərkən bu darğalığın "əmirlik" olmadığı aydınlaşır. Məsələn, 905 (1499/1500)-ci ildə Sultan Murad və Məhəmmədi Mirzə döyüşərkən, birinci tərəfin dövlət bayrağı yerə düşmüşdü. Həsən bəy Rumlu göstərir ki, pəhləvan Şahi adlı bir döyüşçü cəld həmin bayrağı yerdən qaldıraraq, geri qaçmaqda olan Sultan Murad döyüşçülərini qaytardı və onlar yenidən gəlib, həmin bayrağın altında toplaşdılar. Döyüş qələbə ilə bitdikdən sonra Sultan Murad döyüşçüləri ruhlandıran pəhləvan Şahiyə kəndinin darğalığını verir. Camaat ondan nə üçun Sultan Muraddan əmirlik istəmədiyini soruşduqda o, cavab vermişdi: "Atam o kəndin əkinçisi idi, mən isə darğası olmuşam" [65, 24-25].

Hakim və darğa vəzifələrinin eyni bir vəzifə olmadığını göstərən başqa bir misal: 906 (1500/01)-cı ildə Bakı qalasının hakimi şahzadə Qazi bəyin arvadı, darğası isə Əbülfəttah bəy idi [65, 46].

Mənbələrdə bazar darğası, dəftərxana darğası adlı vəzifələrdən də bəhs edilir [61, 338a; 77, 239].

Beləliklə, darğa sözü K. M. Röhrbörnün dediyi kimi, hakim mənasını verir, lakin hər bir darğanın şah tərəfindən təyin edilməsi fikri düzgün deyilməmişdir, çünki bazar, yaxud dəftərxana darğasının şah tərəfindən təyin edildiyini heç bir dəlil təsdiq etmir.

Hakimlərin də idarəedici aparatı - vəkili, sədri, vəziri və qoşunu olmuşdur. Həsən bəy Rumlu göstərir ki, hakim xəstələndikdə onun işini vəkil aparırdı [65, 11].

**Qazi:** XV - XVI əsr tarixi mənbələri yeri gəldikcə, qəza, yəni məhkəmə işləri ilə məşğul olan qazi haqqında da məlumat vermişdir [66, 393; 88, 307; 81, 257a]. "Əhsənüt-təvarix"də qoşun qazisi (qazi-yi əsgər) və şəri qazi haqqında az da olsa danışılır [66, 393, 607]. Qoşun qazisi orduda dini iş, təbliğat aparır, şəri qazi isə yerlərdə bəzi mübahisələrin həllinə çalışırdı [11, 41].

Öz bacarıq və qabiliyyətinə görə bəzən qazilər sədr və vəzir kimi yüksək vəzifələrə layiq görülürdülər. Məsələn, 822 (1419/20)-ci ildə şirvanşah I İbrahimin vəziri qazi Bayazid idi [66, 106]. Yaqub Ağqoyunlunun sarayında sədrliyi isə qazi

İsa aparırdı [66, 633]. Hətta hökmdarın özü bəzən qazinin fikri ilə hesablaşmalı olurdu. Belə ki, 873 (1469)-cü ildə məhz Şirvan qazisinin təhriki ilə, Uzun Həsən əsir aldığı Sultan Əbu Səidin qətlinə fərman vermişdi [66, 487; 36, 170 - 171].

**Əmirlər:** Dövrün mənbələrində XV - XVI əsr feodal dövlətlərinin əsas qüvvəsi olan "yüksək əmirlər zümrəsinin" tutduğu mövqe "əmarət" adlandırılmış, əmirlərə isə alimiqdar, alitəbar, əzəmətli əmirlər deyilmişdir [66, 47, 49; 65, 479; 56, 296, 344]. Əmir mənsəbinin böyüklüyünü göstərməkdən ötrü bunu demək kifayətdir ki, bəzən məşhur hökmdarlar belə bu adı daşımışlar. Məsələn, Əmir Teymur [66, 611], Əmir Süleyman [66, 68] və s. Əvvəlki əsrlərdən fərqli olaraq, səfəvilər dövründə əmir vəzifəsi əsasən Azərbaycan hərbiçi qızılbaş əyanlarına verilirdi. Mülki işlərdə çalışan şəxslər adətən bu vəzifəyə layiq görülmürdülər. Məşhur əmirlərin əmirlik əlamətləri onların bayraq və nağara ilə təchiz edilmələrində idi [66, 461, 534; 56, 427; 58, 138; 39, 100].

Əmirlər aşağıdakı vəzifələri tuturdular: saray əmirləri (üməra-yi dərgah) [66, 389], ordu, yaxud qoşun əmirləri (üməra-yi ləşkər, üməra-yi qoşun) [66, 232, 461; 56, 427], sərhəd əmirləri (üməra-yi sərhəd) [61, 298a; 77, 214] və s.

"Əhsənüt-təvarix"də "dərgah əmirləri" [66, 389], "Təzkirətül-müluk"da isə "mübarək dövlətxana əmirləri" [63, 5] adlanan saray əmirləri XV - XVI əsrlərdə iki hissəyə bölünmüşlər:

1. Əllərində soyurqal və böyük imtiyazlar olan böyük əmirlər [66, 235; 61, 288a].
2. Kiçik əmirlər [61, 305b].

V. F. Minorskiyə görə, Ağqoyunlu dövlətində əmirlərin bölgüsü belə olmuşdur: əzəmətli əmir, böyük əmir, əmir [112, 162]. Fikrimizcə, "əzəmətli əmir" və "böyük əmir" istilahlarının ifadə etdiyi məna eynidir.

Yuxarıda qeyd olunduğu kimi, əmirlərin ikinci qrupu "ordu əmirləri" adlandırılırdı. Onlar müxtəlif qoşun dəstələrinə başçılıq edən əmirlər olmuşlar.

Əmirlər zümrəsinin üçüncü hissəsi olan sərhəd əmirləri isə saraydan kənarda fəaliyyət göstərmişlər ki, "Təzkirətül-müluk" əsərində onlara "üməra-yi qeyr-i dövlətxane" deyilmişdir [63, 4].

Əmirlər mənsub olduqları tayfanın, yaxud yaşadıqları yerin adı ilə adlandırılmışlar: Şirvan əmirləri [66, 228], Təkəlu əmirləri [65, 236], İraq əmirləri [81, 252b] və s.

XV - XVI əsr Azərbaycan feodal dövlətlərinin idarə olunmasında əmirlərin xidməti o qədər böyük olmuşdur ki, çox vaxt səltənət taxtına hansı şahzadənin əyləşməsi məsələsini onlar həll edir, öz məqsədlərinə yetməkdən ötrü ölüm-dirim mübarizəsi aparırdılar [64, 136a, 219a; 58, 119, 120; 97, 35]. Sübut üçün bircə misal gətirmək kifayətdir ki, II Şah İsmayıl vəfat edən kimi Qəzvində "Əmir və dövlət başçıları Məhəmməd Xudabəndəni şah etmək qərarına gəldilər" və Şiraza gedib onu paytaxta gətirdilər [65, 495- 496].

Müharibələr zamanı ələ keçən qənimətlər çox hallarda əmirlər arasında bölüşdürülürdü [65, 68 - 69] ki, bununla da şah onları özündən razı salmaq və gələcək döyüşlərə rəğbətləndirmək istəyirdi. Elə hallar olurdu ki, əmirin döyüşlə ələ keçirdiyi hər hansı bir yer ona bağışlanırdı [64, 229a].

Əmirlər ölkədə siyasi hakimiyyətin zəiflədiyini hiss edən kimi özbaşınalığa başlayır, talançılığa qurşanırdılar [65, 286].

Əmirliyin uzun illər nəsli xarakter daşıdığı məlumdur. 863 (1458/59)-cü ildə Cahanşahın əmiri Bayazid ibn Bəstam Cagirlu öldükdə, Həsən bəy Rumlunun xəbər verdiyinə görə, "onun yerini qardaşı Əbülfəth bəy tutdu" [64, 185a]. Başqa bir misal: 950 (1546/47)-ci ildə I Şah Təhmasibin əmiri Müntəşa sultan vəfat etdikdən sonra onun yerinə oğlu Teymur xan təyin edilmiş, atasının qoşun, bayraq və nağarası ona verilmişdi [81, 266a].

Bəzi əmirlərə xidmətləri və qazandıqları hörmət müqabilində böyük torpaq sahələri - soyurqal və tiyullar verilir və onlar həmin yerlərə gedirdilər. Lakin şah müharibə edərkən əmirlər xüsusi əmrlə orduya çağırılırdılar [64, 175b].

Geniş torpaq sahələri ilə mükafatlandırılan əmirlər cəzalandırıldıqda onların istifadəsinə verilən yer əllərindən alınır; başqa əmirə verilirdi. Məsələn, 915 (1509/10)-ci ildə əmir Abdal bəy Dədənin ixtiyarındakı üç şəhər I Şah İsmayılın əmri ilə ondan alınıb Zeynal bəy Şamluya verilmişdi [65, 110]. Əmirlərdən yüksək nizam-intizam, həmçinin rəiyyətin nüfuzunu qazanmaq tələb olunurdu. Daşıdığı əmirlik adına layiq olmadığı və "rəiyyətə olmazın zülm və əziyyət verdiyinə görə "əmir Seyid Əli Bağdadini Uzun Həsən çarmıxa çəkdirmişdi. "O çarmıxa çəkilərkən... xalq onu daşa basdı" [64, 156a] deyə bu hadisəni təsvir edən Həsən bəy Rumlu həmin əmirə qarşı olan dərin qəzəbi göstərmişdir.

Yüksək mənsəbə çatmaq uğrunda əmirlər arasında tez-tez çəkişmə və ixtilaflar baş verirdi [65, 184, 188]. Həsən bəy Rumlu yazır ki, 982 (1574/75)-ci ildə I Şah Təhmasibin "vəziyyəti pisləşdi... əmir və dövlət başçıları arasında bir neçə dəfə düşmənçilik və dava-dalaş baş verdi" [65, 458].

Bəzən əmirlərin rəyi ilə hətta hökmdarın özü belə razılaşmalı olurdu. I Şah Təhmasibin Xorasana dördüncü hücumu zamanı 943 (1536/37) Herat şəhərində olan Übeyd xan qızılbaşlarla döyüşməyi əmirlərinə bildirdikdə onlar bu fikrin əleyhinə çıxaraq "bizimlə razılaşsan çox yaxşı, əgər razılaşmasan, səni ata bağlayıb Mavərənnəhrə apararıq" demişdilər [65, 276].

Əmirlərə müxtəlif ləqəblər verilir, yaxud onlar bəy, sultan və xan titullarına layiq görülürdülər. Məsələn, 915 (1509/10)-ci ildən etibarən əmir Zeynal bəy Şamlu "xan" tituluna layiq görülmüşdü [65, 110]. Yenə həmin ildə I Şah İsmayıl tərəfindən Məhəmməd bəy Süfrəçi Ustacluya "Çayan Sultan" ləqəbi verilmişdi. [65, 110; 88, 272; 81, 252b]. Mustafa Sultan Ustaclunun ləqəbi isə "Köpək Sultan" idi [81, 252b].

Məlum olduğu kimi, əmirlər hərbi xidmətçi idilər və başçılıq etdikləri qoşunlarla birlikdə ölkənin hərbi qüvvəsini təşkil edirdilər. Bildiyimizə görə, bütün hərbi qüvvələrə başçılıq edən şəxs isə əmirül-ümərа olmuşdur. XV - XVI əsrlərin tarixi mənbələrində əmirül-ümərаdan başqa iki yüksək əmir rütbəsi də göstərilmişdir: divan əmiri və əmiraxur. İndi bu iki vəzifənin hər birinə ayrı-ayrılıqda nəzər salaq.

**Divan əmiri:** Mənbələrdə "əmir-i divan" adlanan bu əmirin vəzifəsinin məzmunu barədə hələlik müəyyən bir məlumatın olmadığını bildirən V.F. Minorski divan əmirinin xüsusi divanı olduğunu qeyd edib yazmışdır ki, onun divanı həm sədrin, həm də vəzirin divanından üstün olmuşdur [112, 162]. Doğrudan da, tanış olduğumuz mənbələrin heç birində divan əmiri vəzifəsinin məzmunu şərh edilməmişdir. Lakin məlumdur ki, divan əmiri "digər əmirlərdən yüksəkdə duraraq, böyük ixtiyara malik idi" [11, 40].

Bəzən döyüşdə qalib gələn tərəfə əhəmiyyətli köməklik göstərən şəxs ona ehtiyac olduqda, divan əmiri vəzifəsinə layiq görülürdü. Məsələn, 810 (1407/08)-cu ildə Əlincə qalasında baş verən qiyam yatırıldıqdan sonra qalanın yeni hakimi olan Qara İsgəndər üsyan başçılarından biri olan Şəhriyarı divan əmiri etmişdi [64, 262a]. Bu misalla güman etmək olar ki, vilayət, şəhər və qala divanlarının hər birinin öz divan əmiri olmuşdur. Qaraqoyunluların başçısı Qara Yusif olduğu halda, Şəhriyarı divan əmiri vəzifəsinə sülalənin başçısı yox, şahzadə İsgəndər təyin etmişdi. Atası ilə məsləhətləşmədən belə hərəkət edən şahzadə, görünür ki, ona təhvil verilən Əlincəni öz mülkü hesab etmiş və qala divanının əmiri olmağı Şəhriyara məsləhət görmüşdü.

Digər qaraqoyunlu şahzadəsi Pirbudağın Bağdaddakı divan əmiri Mir Əli Şükür adlı əmir olmuşdur [56, 364, 373].

Səfəvilər dövründə də bu vəzifə qalmaqda idi. I Şah Təhmasibin divan əmiri Məsum bəy Səfəvi olmuşdur [77, 209, 220; 58, 77] ki, o, Həsən bəy Rumlunun məlumatına görə sonradan şahın vəkili təyin edilmişdi [65, 411, 490]

Bəzi mənbələrdə divan əmiri və əmirül-ümərаnın vəzifələri bir-birinin qarşılığı kimi işlənir. Mir Yəhya Qəzvini yazır: "Divan əmiri olan Çayan sultan Ustaclu vəfat etdi, onun yerini oğlu Bayazid sultana verdilər. O da bir neçə gündən sonra öldü və əmirül-ümərаlıq mənsəbinə Div sultan Rumlu təyin edildi" [98. 150a].

Yaxud Budaq Qəzvini göstərir: "Divan əmirliyi Çayan sultan Ustacluya verildi və əmirül-ümərа oldu" [61, 288a]. Yenə də bu müəllif yazır ki, I Şah İsmayılın vəsiyyətinə görə Div sultan Rumlu əmirül-ümərа və "əmir-i divanlıq möhürünü əmirlərin möhüründən yuxarı vurdu" [61, 297b].

Bu misallardan aydın olur ki, bəzi tarixçilərin əsərlərində divan əmiri və əmirül-ümərа mənsəbləri eyniləşdirilmişdir. Həsən bəy Rumlu və Qazi Əhməd Qəffari də Çayan sultanın Çaldıran vuruşmasından sonra əmirül-ümərа olduğunu göstərirlər [65, 150; 81, 277a]. Bunlardan belə nəticəyə gəlmək olar ki, divan əmiri

vəzifəsini aparan şəxs bütün əmirlərin yox, yalnız divan əmirlərinin rəhbəri olmuş, eyni zamanda əmirül-üməra adlandırılmışdır. Dövlətin əmirül-üməras ısə divan, ordu və sərhəd əmirlərinin rəhbərliyini etmiş, divan əmiri də onun tabeliyində olmuşdur.

**Əmiraxur:** XV - XVI əsrlərdə Azərbaycan ordularında minik heyvanlarına nəzarət və nəqliyyat məsələlərinə rəhbərlik etmək əmiraxurun öhdəsinə düşürdü. Qoşunların əsas minik vasitəsi olan at ilxılarının ümumi sayı haqqında hökmən əmiraxurun məlumatı olmalı idi. Sultan Əhməd Cəlayirinin məğlub olub qaçmasından sonra əsir alınmış düşmən əmiraxurlarına Qara Yusifin verdiyi suallar bu fikrin təsdiqi üçün olduqca səciyyəvidir: "Sultanın neçə atı vardı? O özü ilə neçə at aparmış olar? Ordumuzun əlinə daha neçə at keçə bilər?" [66, 66].

Müharibə vaxtı ordu ilə birlikdə əmiraxurlar da döyüşürdülər [66, 83; 56, 427, 463].

**Möhürdar:** Görkəmli saray əmirləri nümayəndələrindən biri olan möhürdarın da müəyyən fəaliyyəti olmuşdur, lakin mənbələrdə qaraqoyunlu və ağqoyunlu möhürdarları haqqında olduqca az məlumat vardır. Həsən bəy Rumlu da, əsasən, səfəvi dövrü hadisələrinin təsvirində möhürdar haqqında kiçik qeydlər etmişdir.

Möhürdar şahın xüsusi möhürünü qoruyan şəxsə deyilirdi [63, 25]. Onun sənədlərə vurduğu möhür şahın imzası demək idi [36, 19]. Zərurət olduqda möhürdar hərbi səfərlərdə də iştirak edir, şəxsən döyüşürdü [65, 293; 58, 40; 97, 138]. Bu vəzifə çox şərəfli və məsuliyyətli hesab edilirdi. Həsən bəy Rumlu yazır ki, 912 (150/07)-ci ildə I Şah İsmayılın möhürdarı Sarı Əli kürdlərlə döyüşdə öldürülmüş və bu vəzifə bir müddət heç kimə etibar edilməmişdi. 913 (1507/08)-cü ildə I Şah İsmayıl Əlaüddövlə Zülqədərlə döyüşən vaxt ağqoyunlu sultanları tərəfindən illərlə Diyarbəkrdə vali olmuş Əmir bəy Mosullu qızılbaş şahının yanına gələrək, hörmətə layiq görulmüş və bir il boş qalan möhürdar vəzifəsi ona verilmişdi [65, 93].

Həsən bəy Rumlu möhürdarın möhürünü "böyük möhur" adlandırır [65, 484].

**Qorçibaşı:** Bu istilah altında xüsusi şah alayının üzvləri olan qorçi dəstələrinin rəhbəri başa düşülür. XV əsrdə bu məfhumun işlənməsinə dair hələlik məlumat yoxdur, lakin XVI əsrdən etibarən qorçi dəstələrinin sayca çoxalıb dövlətin hərbi həyatında mühüm rol oynaması ilə əlaqədar olaraq, qorçibaşı vəzifəsi də müəyyən edilmiş və bu vəzifənin sahibi dövlətin ən etibarlı şəxslərindən biri olmuşdur.

Mənbələrə əsasən müəyyən etmək olur ki, dövlətin ümumi qorçibaşısından başqa ayrı-ayrı vilayətlərin, habelə hər bir qorçi dəstəsinin də öz qorçibaşısı var imiş. Məsələn, I Şah İsmayılın hakimiyyətinin ilk illərində onun qorçilərinə rəhbərliyi Durmuş xan Şamlu [81, 240b] və Dədə bəy Zülqədər [65, 88;

88, 269] etmişlər. Sonralar isə səfəvi qorçibaşısının Sarı Pirə adlı bir əmir olduğu məlumdur [65, 286; 77, 158]. Bu üç qorçibaşının hər biri dövlətin baş qorçibaşıları olmuşlar ki, onlar ən etibarlı əmirlər arasından seçilib bu vəzifəyə layiq görülmüşdülər. Bəzi vilayət qorçibaşılarının nüfuzu onların hətta hakim vəzifəsinə çəkilməsinə səbəb olmuşdu. Məsələn, 926 (1519/20)-cı ildə I Şah İsmayılın əmri ilə Şirazın hakimi öldürülmüş, onun yerinə Əli sultan adlı qorçibaşısı hakim təyin olunmuşdu [88, 279].

Qorçibaşının qorçilər üzərində böyük ixtiyar və səlahiyyəti olmuşdur. Müəyyən şikayəti olan hər bir qorçi yalnız qorçibaşı vasitəsilə öz şikayətini hökmdara çatdıra bilərdi, əks təqdirdə o, qorçilikdən kənar edilirdi [61, 339a].

Qorçibaşı öz qorçiləri ilə hərbi yürüşlər vaxtı şahı müşayiət etməli idi [65, 286, 345]. Qorçibaşı Sevindik bəy Əfşar uzun illər I Şah Təhmasibə sədaqətlə xidmət etmişdir [65, 286, 332; 81, 257a, 269b][22]. Şirvanşah Şahruxun qorçibaşısı Padar adlı bir şəxs idi ki, Həsən bəy Rumluya görə o, vilayətin bütün "mədaxil və məxaricindən" (yəni ölkənin bütün daxili və xarici yollarından) xəbərdar idi [65, 286]. Bu məlumat əsas verir ki, hökmdar yanında böyük səlahiyyətə malik olan qorçibaşı dövlətin ərazisinə də yaxşı bələd imiş.

Başqa bir qorçibaşıya misal olaraq 954 (1547/48)-cü ildə öldürülən Şirvan qorçibaşısı Əhməd bəy Ustaclunu göstərmək olar [81, 257a, 274a; 88, 296, 301]. O, səfəvilər tərəfindən Şirvanın müstəqilliyinə son qoyulandan sonra (1538) orada hakim olan Əlqas Mirzəyə xidmət göstərir, onun qorçilərinə rəhbərlik edirdi.

Bəzən tarixçilər qorçibaşı və əmirül-ümərа istilahlarını eyni mənada işlədirlər. Belə ki, I Şah İsmayılın məşhur əmiri Abdal bəy Dədə həm əmirül-ümərа [98, 137; 61, 288], həm də qorçibaşı kimi göstərilmişdir [98, 141]. Lakin qorçibaşı və əmirül-ümərа mənsəblərinin hər dövrdə eyniləşdirilməsi həm bir sıra mənbələr, həm də tədqiqatçılar tərəfindən təsdiq edilmir. Həsən bəy Rumlu və Qazi Əhməd Qəffari Abdal bəy Dədənin əmirül-ümərа yox, qorçibaşı olduğunu söyləmiş [65, 88; 88, 269], tədqiqatçılardan O. Ə. Əfəndiyev və S. M. Onullahi də bu iki vəzifənin hər birinin ayrı-ayrılıqda fəaliyyət göstərdiyini qeyd etmişlər [52, 105; 11, 40]. Lakin istər "Əhsənüt-təvarix"də, istərsə də dövrün başqa mənbələrində təxminən XVI əsrin ikinci yarısında əmirül-ümərа istilahının işlənmədiyi açıq-aşkar nəzərə çarpır. Təsadüfi deyil ki, I Şah Təhmasib bütün hərbi əməliyyatlarını qorçibaşı Sevindik bəy vasitəsilə icra edirdi. Orta əsr tarixçiləri I Şah Təhmasib vaxtı dövlətin əmirül-ümərа mənsəbinin və onu aparan şəxsin adını göstərmirlər. II Şah İsmayılın hakimiyyəti dövründə də bu vəzifə xatırlanmamış, ancaq onun əvəzinə "qorçibaşılıq mənsəbi" Allahqulu bəy Əfşarın əlində olduğu göstərilmişdir [58, 213]. II Şah İsmayılın vəfatından sonra da kimin şah olması məsələsini həll edən iki şəxsdən biri məhz qorçibaşı olmuşdur [58, 220].

[22] I Şah Təhmasibin hakimiyyəti illərində qorçibaşılar, əsasən, əfşar tayfası əmirlərindən təyin edilmişlər [55,48].

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, XVI əsrin birinci yarısında haqqında danışdığımız hər iki vəzifə fəaliyyətdə olmuş, lakin həmin əsrin ikinci yarısında sarayda qorçibaşının rolu artmış və əmirül-üməra mənsəbi bir müddət onunla əvəz olunmuşdur. Qorçibaşı vəzifəsinin əhəmiyyəti I Şah Təhmasib zamanında xüsusilə artmışdı [55, 48]. Təsadüfi deyildir ki, qorçibaşı XVIII əsrə qədər ən yüksək hərbi vəzifə kimi mövcud olmuşdur. "Təzkirətül-müluk"-da əmirlərdən bəhs olunarkən, ən əvvəl qorçibaşının adı çəkilmiş və bu vəzifənin sahibi "əzəmətli dövlət adamlarının ən ümdə əmiri" adlandırılmışdır [63, 5, 7]. Yenə də bu əsərdən məlum olur ki, bəylərbəyi (əmirül-ümərа—Ş. F.) daha saray daxilində fəaliyyət göstərməyərək saraydankənar əmirlər sırasına daxildir [63, 4].

V. F. Minorski də qorçibaşı vəzifəsini əmirül-ümərа ilə eyniləşdirmişdir [99, 75]. Onun bu fikrini yalnız XVI əsrin ikinci yarısına aid etmək olar, çünki yuxarıda deyildiyi kimi, Səfəvi dövləti yaranmağa başlarkən, dövlətdə həm qorçibaşı, həm də əmirül-ümərа vəzifələri olmuşdur.

**Qorçilər:** K. M. Röhrborn qorçi istilahının yalnız səfəvilərin hakimiyyətə keçməsindən sonra işləndiyini bildirir [74, 74]. Bu fikirlə razılaşmaq olmaz. XV - XVI əsrlərin bir sıra tarixi mənbələrində, o cümlədən "Əhsənüt-təvarix"də XV əsrin əvvəllərində işlədilən "qorçi" istilahına rast gəlirik [66, 49; 95, 169; 59, 408; 92, 243; 56, 302].

Həsən bəy Rumlu 813 (1410)-cü ildə Sultan Əhməd Cəlayirinin Təbrizə hücumu zamanı qorçilərin zərli paltar geyinərək, əllərində müxtəlif silahlar tutduqlarını göstərir [66, 63] ki, bununla da, hələ XV əsrin əvvəllərindən qorçilərin xüsusi geyimləri olduğu aydınlaşır. "Əhsənüt-təvarix"in bu məlumatına əsasən qorçi dəstələrinin XIV əsrin ikinci yarısında da mövcud olduğu güman edilə bilər.

V. F. Minorskinin yazdığına görə, qorçilər başqa döyüşçülərdən fərqlənməkdən ötrü uzun bığ saxlayırdılar [99, 53]. Həsən bəy Rumlu səfəvi qorçilərinin xüsusi zirehli paltar geydiklərini bildirir [65, 465].

Qorçi dəstələri hökmdarı qoruyan və daim onun keşiyini çəkən etibarlı alaylar olmuşdur ki, onun üzvləri əsasən əmirzadələrdən seçilirdi [65, 465]. İsgəndər bəy Münşi yüz nəfər şah qorçisinin qüvvətdə min nəfər başqa döyüşçüyə bərabər olduğunu bildirir [58, 142].

"Qorçi" sözünün Azərbaycan mənşəli "qorumaq" felindən yarandığını söyləyən tədqiqatçıları haqlı hesab etmək olar [7, 340; 11, 40]. Ə. Nəvayi qorçi istilahının fars dilində silah mənasını verən "qur" sözündən düzəldiyini göstərir [66, 839]. Əgər "qorçi", doğrudan da, "qur" sözündən yaranmışsa, gərək bütün döyüşçülər "qorçi" adlandırılaydı, çünki "döyüşçü" dedikdə dərhal silahlı hərbçi təsəvvürə gəlir. Bu da məlumdur ki, "qorçi" adı altında ordunun bütün döyüşçüləri yox, yalnız şahı qoruyan alayların üzvləri başa düşülürdü.

Qorçi dəstələrində bir neçə min döyüşçü olmuşdur [65, 199][23] ki, Həsən bəy Rumlunun bu məlumatı şah alayı üzvlərinin ümumi miqdarı haqqında müəyyən təsəvvür yaradır.

Qorçilər arasında nizam-intizamın yüksək olması və orta əsrlərdə tez-tez üzə çıxan tayfa ixtilaflarının baş verməməsindən ötrü hər qorçi dəstəsinin üzvlərinin tərkibi yalnız bir tayfa nümayəndələrindən ibarət olurdu [65, 235, 466]. Qorçilər mənsub olduqları yer və tayfanın adı ilə adlanırdılar: Naxçıvan qorçiləri, şamlu qorçiləri və s.

Müharibə vaxtı qorçi dəstələri çox vaxt ehtiyatda (tərh) qalır [66, 146], yalnız ən çətin anlarda vuruşa çıxarılırdılar [65, 199].

"Əhsənüt-təvarix"dən bəlli olur ki, şücaətli qorçi göstərdiyi xidmət müqabilində əmirlər sırasına belə daxil edilirdi. Məsələn, I Şah İsmayılın məşhur əmiri Müntəşa sultan 919 (1513/14)-cu ildə adi qorçi idi [65, 140].

Qorçilərin aşağıdakı qrupları məlumdur:

1) Ox və kaman qorçisi (qorçi-yi tir-o kaman) [65. 252; 81, 256a; 88, 305; 61, 308b, 328b]. Bu vəzifə sahibləri qorçi dəstələrinin vacibli üzvləri olmuşlar. Həsən bəy Rumlu onların sayca çox olduqlarını bildirir [65, 478]. Onlar istilahın adından da göründüyü kimi, ox və kaman üzərində məsul idilər.

2)Qılınc qorçisi (qorçi-yi şəmşir) [88, 305]. Məhəmməd Sədr Haşemi bu istilahın türkcə (azərbaycanca—Ş. F.) "qılınc qorçisi" adlandığını bildirir [93, 40].

3)Hərəm qorçisi (qorçi-yi hərəm) [81, 269b; 76, 57a] hərəmxananı qoruyan qorçilərə verilən ad olmuşdur.

4)Şah rikabdarlarının qorçisi (qorçi-yi zerəkan) [61, 338b]. Məhəmməd Sədr Haşemi bu qorçini isə "şah rikabdarlarının rəisi" adlandırır [93, 40].

Göstərdiyimiz bu dörd qorçi qrupundan əlavə, İsgəndər bəy Münşi daş qorçilərinin də (qorçiyan-i daş) olduğunu bildirir [58, 141] ki, bu istilaha başqa mənbələrdə rast gəlmədik.

Qorçilər yalnız qızılbaş tayfaları nümayəndələrindən təyin edilirdi [74, 74]. Yuxarıda yazdığımız kimi, "Əhsənüt-təvarix"in müəllifi də gəncliyində qorçi olmuşdur[24].

Qorçilərin fəaliyyət dairəsi təkcə taxt-tac sahibini, qorumaqla məhdudlaşmırdı, onlar eyni zamanda fəal döyüşçü idilər [65, 322]. Hindistan hökmdarı Məhəmməd Hümayun öz əfqan düşməni ilə vuruşmaqdan ötrü I Şah Təhmasibdən kömək istədikdə, təsadüfi deyil ki, ona kömək üçün 300 qorçi və 1000 nəfər başqa döyüşçü göndərilmişdi [65, 310].

Qorçilərə divan tərəfindən illik məvacib təyin edilirdi. 955 (1548)-ci ildə Türkiyə sultanı Süleyman və Şah Təhmasibin xain çıxmış qardaşı Əlqas Mirzənin

---

[23] O.Ə. Əfəndiyev qorçilərin sayının 4 – 6 min nəfərə çatdığını bildirir [55, 51]

[24] 8-ci səhifəyə bax.

Azərbaycana hücumu zamanı səfəvi hökmdarının əmri ilə qorçiləri rəqbətləndirməkdən ötru onların illik məvacibləri dərhal ödənilmişdi [81, 268a].

"Əhsənüt-təvarix"də XV-XVI əsrlərdə Azərbaycanın ordusu, onun təşkili və vəziyyəti də əks olunmuşdur.

**Ordu, onun təşkili və vəziyyəti:** XV əsrdə ordu sarayın ixtiyarındakı qoşundan və ayrı-ayrı vilayətlərdə yaşayıb, yalnız müharibə vaxtı cəmlənərək öz başçıları (sərdar) ilə birlikdə hökmdarın köməyinə yollanan döyüşçü dəstələrindən (çərik) ibarət olmuşdur. Qoşunlarda həm süvari, həm də piyada hissələr vardı [66, 114, 236; 56, 109, 286].

XVI əsrdə də dövlətin müntəzəm ordusu olmamışdır. Qızılbaş döyüşçüləri əsasən müharibə gözlənilən vaxt ayrı-ayrı əmirlərin feodal qoşunlarının tərkibinə daxil edilir və süvari dəstələr şəklində döyüşə yollanırdılar [55, 50].

Mənbələrdə "ordu" sözu "ləşkər, qoşun", ordunu təşkil edən əsgərlər isə "mülazim, əsgər, qulluqçu, nökər, dilavər" (qaraqoyunlu və ağqoyunlularda) adlandırılmışlar, səfəvi döyüşçülərinə isə "qazi, mülazim, mürid" deyilmişdir [66, 49, 51; 58, 59, 89, 272; 65, 14, 347; 56, 471]. Döyüşçülərə illik məvacib verilirdi ki, bu da "ordu divanı" ("divan-i ləşkər") tərəfindən icra edilirdi [56, 439].

Ordu ayrı-ayrı dəstələrə bölünmüşdü [66, 44, 45, 82, 127]. Silahlar arasında qılınc, xəncər, ox, kaman, tüfəng, balta, gürz və qaladağıdan silahlar—rəadə, mancanaq da vardı [66, 48, III; 65, 13, 67; 18, 72]. Ağqoyunlu və səfəvi ordusu az olsa da, topla silahlanmışdı [66, 608; 28, 25]. Silahlar silah anbarında (qurxanə) saxlanılır [66, III; 81, 266a; 18, 72] qurxanəyə xüsusi başçılar (cəbbədarlar) rəhbərlik edirdilər [66, 111].

Həsən bəy Rumlu yazır ki, Qara Yusif, Cahanşah və Cüneyd Səfəvinin döyüşçülərinin əksəriyyəti zirehli (cövşənpuş) idilər [65, 64, 66]. Kəcim adlı örtük də döyüş libasları sırasına daxil idi [65, 468; 77, 252][25].

Döyüşə surən (əsgərlərin nərəsi), nəfir (şeypur), nağara, gəbrəgə (böyük nağara), təbil və bayraqla yollanardılar [66, 60, 65, 452]. Hücum vaxtı kərənay (uzun zurna), qələbə çalınanda isə nağara səsləndirilərdi [65, 217]. Döyüş zamanı əsgəri qüvvələrin bir hissəsi ehtiyatda durur (tərh), vuruşmanı müşahidə edir və lazım olduqda döyüş meydanına çıxırdılar [65, 146, 200; 72, 357].

Qoşunlar mənsub olduqları yerin adı ilə adlandırılırdı: Qarabağ, Muğan, Şirvan qoşunu və s. [65, 286, 328; 81, 239b; 77, 236].

Müharibə gözlənilən vaxt yerlərə istimalətnamə (cəlbedici məktub) göndərilib, ənam vəd edilər və beləliklə, qoşun toplanışı sürətləndirilərdi [66, 574; 56, 359, 439; 58, 81]. Vilayətlərdə yaşayan əmir və feodallar fərman alan kimi öz dəstələri ilə köməyə gəlir, yalnız müharibə qurtarandan sonra geri qayıdırdılar [66, 441].

---

[25] Ə. Nəvayinin yazdığına görə, kəcimi döyüş günü geyinər və onu atın da üstünə sərərdilər [66, 128].

Müharibə ərəfəsində hökmdarlar arasında hərbi ittifaq yaranırdı. 817 (1414/15)-ci ildə şirvanşah I İbrahim qaraqoyunlu Qara Yusiflə döyüşməkdən ötru Şəki hakimi Şəmsəddin Əlinin oğlanları və Gürcüstan valisi Konstantinlə ittifaqa girmişdi [64, 254a].

Müharibə baş tutmadıqda, ya dövlətlər arasında ümumi razılıq əldə ediləndə sülhnamə (süllh müqaviləsi) tərtib edilirdi [66, 393][26].

Məğlubiyyətə uğrayan tərəfin məşhur əmirlərinin qalib gələn tərəfə cəlb edilməsindən ötru nəvazişnamə (nəvaziş məktubu) yazılırdı [66, 461]. Qələbə xəbərini qonşu dövlətlərə bildirməkdən ötru fəthnamə (qələbə məktubu) yollanırdı [66, 631; 98, 145a]. Çətinliklə ələ keçirilən şəhərin əhalisindən müqavimət göstərib orduya ziyan vurduğu üçün böyük məbləğdə təzminat alınırdı [64, 124a]. Başqa dövlət başçıları qalib tərəfi qələbə münasibətilə təbrik (təhniyət) edir, töhfə yollayırdılar [65, 86].

Bəhs olunan dövrdə ordunun müxtəlif hissələri belə adlandırılmışdır:

Cəvanğar yaxud meysərə - sol cinah [66, 44; 57, 382, 394].

Bərənğar yaxud meymənə - sağ cinah [66, 44].

Qul - ordunun mərkəzi [66, 127; 57, 394].

Mənqəlay - qoşunun ön hissəsi [66, 112, 126]. Mənqəlayın da bərənğar və cəvanğarı olurdu [65, 38; 68, 38]. Mənqəlayda minlərlə döyüşçü vuruşurdu [65, 247], çünki mənqəlay hücumunun döyüşün sonrakı gedişi üçün böyük əhəmiyyəti vardı.

Ordu ilə əlaqədar olan istilahlardan biri də “yasaq”dır. Şahın asılılığında olan əmirlərin hamısı əmr alan kimi ətraf yerlərdən qoşun toplamağa başlardılar ki, bu, yasaq adlanardı [66, 625]. Yasaqdan ötrü əyalətlərə əmir və yüzlərlə mülazim göndərilirdi [81, 273a, 274b; 88, 303].

Döyüş başlanmazdan əvvəl ordunun müəyyən bir dəstəsi kəşfiyyata göndərilir və həmin dəstə qarovul adlanırdı [66, 218; 65, 258]. Qarovula məşhur əmirlər rəhbərlik edirdi [65, 257]. Qarovulun vəzifəsi düşmənin vəziyyətini öyrənmək və mümkün olduqda əsir ələ keçirib geri qayıtmaq idi ki, bu əməliyyat mənbələrdə “zəbangiri” (“dil tutmaq”) adlanmışdır [66, 448, 457; 88, 289].

İndi də hərbi vəzifələrə nəzər salaq:

**Təvaçi.** Müharibə gözlənilən təqdirdə tabeliyindəki əyalətlərə gedərək, hərbi qüvvə toplayan və ayrı-ayrı qoşun dəstələri arasında əlaqə yaradan əmirlər belə adlanmışlar. Onlar döyüşçüləri səfərbər edir, ordunun yerini bildirirdilər [66, 212; 65, 114; 18, 73]. Döyüşçülərin sayı və ordunun müharibə qüdrəti onun “təvaçi dəftəri” adlanan xüsusi kitabçasında qeyd edilərdi [68, 32; 112, 163]. Təvaçinin vəzifəsi hərbi işlərlə əlaqədar olduğundan Ç. N. Seddon nəşr etdiyi “Əhsənüt-

[26] Həsən bəy Rumlu göstərir ki, 862 (145/58)-ci ildə Cahanşah və Sultan Əbu Səid arasındakı sülhnaməni “Kitab-i Diyarbəkriyyə”nin müəllifi Əbubəkr Tehrani yazmışdı [64, 189a]

təvarix"ə yazdığı qeydlərdə ("Notes on the Text") təvaçini "qoşunu müşayiət edən məmur" kimi göstərir [65, 7].

Həsən bəy Rumlu təvaçilərin qoşun toplamaqdan ötrü tez-tez əyalətlərə yollandıqlarını nəzərə çatdırmışdır [64, 226a, 246a; 66, 212; 65, 114]. Təvaçi fəal döyüşçü kimi də təsvir olunmuşdur [66, 431, 445]. Bizim müəllif təvaçilərin səlahiyyəti barədə də söhbət açır. Belə ki, 871 (1466/67)-ci ildə Cahanşahla oğlu Pirbudaq arasında baş verən vuruşma zamanı məğlubiyyətə uğrayan Pirbudağı Cahanşahın təvaçisi Pir Məhəmməd bəy və şahzadə Məhəmmədi Mirzə öldürmüşdülər [66, 445; 56, 361].

"Əhsənüt-təvarix"də qaraqoyunlu Pirbudağın - Məhəmməd Əlişir [66, 446], Uzun Həsənin - Xəlil [66, 431], onun oğlu Sultan Xəlilin - Qara Məlik [66, 580], I Şah İsmayılın - Əbdi bəy Şamlu [65, 78] adlı təvaçiləri olduğu qeyd edilir. Şahlarla birlikdə şahzadələrin də təvaçiləri olduğundan belə nəticə çıxarmaq olar ki, ümumi dövlət təvaçilərindən başqa ayrı-ayrı əyalətlərdə də təvaçilər fəaliyyət göstərmişlər. Mənbələrdə təvaçilərin divanı ("divan-i əmarət-i təvaçi-yan" yaxud "divan-i təvaçi") olduğu göstərilmişdir [56, 426; 69, 28].

**Tuqaçi.** "Əhsənüt-təvarix"də qaraqoyunlu, ağqoyunlu və səfəvi tuqaçiləri haqqında məlumat verilmiş və bəzən bu istilah tarixçi və tədqiqatçılar tərəfindən "təvaçi" sözü ilə eyniləşdirilmişdir [56, 329][27].

Doğrudur, bu istilahın məzmunu barədə hələlik əlimizdə məlumat yoxdursa da, ancaq tuqaçilərin fəaliyyəti haqqında ötəri qeydlərə rast gəlmək mümkündür. Ç. N. Seddon tuqaçinin "xəbəraparan" ("beaqeq") olduğunu bildirir [65, 3]. Həsən bəy Rumlu tuqaçinin elçi sifətilə göndərildiyi barədə söz açdığına görə [64, 251a] bu vəzifə sahibinin, həqiqətən də, xəbəraparan olduğunu güman etmək olar.

"Əhsənüt-təvarix" əsəri iki cür tuqaçi haqqında məlumat verir: şəhər tuqaçisi [64, 196a], ləşkər tuqaçisi [66, 325]. Bizim müəllif bildirir ki, Cahanşah tuqaçi Seyid Əhmədi 857 (1453/54)-ci ildə İsfahanı dağıtmağa yollamış və tuqaçi özü ilə 50 min nəfər bel və külünglü adam götürüb, şəhər barısını yerlə yeksan etmişdi [64, 196a; 18, 74]. Bu misaldan tuqaçinin təkcə xəbəraparan deyil, həmçinin müxtəlif tapşırıqların da icraçısı olduğu aydınlaşır.

Həsən bəy Rumlu Əlpavutu [66, 461] Cahanşahın, Qara Pirini [64, 121a] Rüstəm Ağqoyunlunun, Xəlfa bəyi [65, 27] Sultanəli Səfəvinin tuqaçiləri kimi göstərmiş, əmirlərin tuqaçiləri olduğunu bildirmişdir. Onun məlumatına əsasən 933 (1526/27)-cü ildə qızılbaş əmiri Qazuq sultanın Əhmədağa Çavuşlu adlı tuqaçisi olduğu məlumdur [65, 199].

"Əhsənüt-təvarix"də tuqaçi divanı (divan-i əmarət-i tuqaçi) olduğu da göstərilir [66, 461].

[27] Ə. Nəvayi təvaçi və tuqaçi vəzifələrinin eyni olduğunu bildirir [66, 830]

**Çərxçi.** Döyüş zamanı meydana öncə çıxarılan dəstə olmuşdur. Qaraqoyunlu və ağqoyunlu qoşununda, güman ki, işlənməyən bu istilahın mənbələrə əsasən səfəvilər dövründə yarandığını müəyyənləşdirmək olur. Orduda çərxçi döyüşçülərinin sayı min nəfərdən çox olurdu [65, 95]. Onlar müharibənin ilk anlarında meydana çıxarılırdılar [65, 67, 135].

Çərxçilərə rəhbərlik edən şəxs çərxçibaşı adlanır [58, 139], bu vəzifə məşhur əmirlərə verilirdi. 920 (1514/15)-ci ildə baş verən Çaldıran vuruşmasında əmir Xanməhəmməd Ustaclu və Sarı Pirə qızılbaş çərxçi dəstələrinə rəhbərlik edirdilər [65, 146; 58,42].

Çərxçilərin döyüş məharəti bir sıra tarixi mənbədə öz əksini tapmışdır [65, 67, 95; 76, 28b; 58, 40].

**Muçi.** Döyüş vaxtı böyük fəaliyyəti olan hərbi dəstələrdən biri idi. Həsən bəy Rumlunun yazdığına görə, 965 (1557)-ci ildə I Şah Təhmasibə qarşı üsyan edən türkmən Əbanın üzərinə göndərilən döyüşçülər məhz muçi və çərxçilərsiz getdiklərindən məğlub edilmişdilər [65, 404].

Ehtimal ki, bu istilah da səfəvilər dövründə yaranmışdır, çünki XV əsr hadisələrinin təsvirində muçi dəstələri haqqında məlumata rast gəlmirik. Ç. N. Seddon "muçi" sözünün heç bir lüğətdə olmadığını yazır [65, 12]. Doğrudan da, hələlik onun lüğəvi mənası aşkar edilməmişdir.

**Qulluqçu.** Müharibəyə yollanan döyüşçülərin bir hissəsini də qulluqçular təşkil edirdi [65, 24, 347]. V. F. Minorski qulluqçunun atlı, ya piyada olduğunu müəyyənləşdirməmişdir [112, 64], lakin "Təzkire-yi Şah Təhmasib" əsərində onun süvari olduğu yazılır [76, 38b-39a].

**Topçu.** Bu istilah qaraqoyunluların siyasi tarixinin əks etdirilməsi zamanı işlənmədiyindən, güman etmək olar ki, Azərbaycanda "top" və "topçu" sözləri XV əsrin birinci yarısında təsəvvür kəsb etməmişdir. Mənbələrdə sonrakı illərdə topçuların fəaliyyəti barədə az-çox məlumat vardır [66, 608; 65, 293, 322; 88, 293; 77, 210]. "Topçubaşı" istilahı yalnız topçular dəstəsinin başçılarına deyil, habelə toptökmə ustalarının rəhbərinə deyilmişdir [28, 81-82, 137].

**Nəqbəçi.** Azərbaycanca lağım mənasını verən "nəqb" ərəb ismindən düzəldilən sözdür. Nəqbəçi (yaxud nüqqab) mühasirə vaxtı qala və şəhər divarlarını uçuran lağımatan əsgərlərə deyilirdi. Həsən bəy Rumlunun yazdığına görə, şəhər və qalaların alınmasında nüqqablar böyuk rol oynayırdılar [65, 46, 109].

Bu istilahlardan əlavə, "Əhsənüt-təvarix" əsərində hərbi işlərlə əlaqədar olan tüfəngçi [65, 127], yasovul [66, 355], nəfirçi [66, 355], mübəşşir [65, 68. 220][28], çağırçı [66, 248][29] və s. istilahlara da rast gəlinir.

[28] Mübəşşir – xəbəryayan mənasındadır.
[29] Çağırçı – "çağırmaq" felindən olub carçı deməkdir

Beləliklə, yuxarıda danışılanlardan bir daha aydın olur ki, "Əhsənüt-təvarix" əsərinin XV-XVI əsrlərdə Azərbaycanın dövlət quruluşu və ordusu haqqında verdiyi məlumatlar son dərəcə faydalıdır.

## 2. İqtisadi vəziyyət

Orta əsr tarixi mənbələrində bu və ya digər ölkənin iqtisadi vəziyyəti haqqında olduqca az məlumat olmasına baxmayaraq, həmin məlumatın araşdırılması mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, XV əsrdə feodalların istifadəsində olan torpaqlar həcm etibarilə dövlətin ixtiyarındakı torpaqlardan çox idi [39, 74]. XVI əsrdə isə vəziyyət bir qədər dəyişildi. Belə ki, əsrin əvvəlində yaranan Səfəvi dövləti dövlət torpaqlarının həcmini genişləndirməyə başladı. Lakin feodalların ixtiyarında hələ də xeyli torpaq sahələri qalırdı [39, 74].

Əgər XV əsrdə Azərbaycanda torpaq üzərindəki hakimiyyətin əsas növü irsi soyurqal idisə, artıq XVI əsrdən soyurqal verilişi xeyli azalmışdı. Səfəvilər apardıqları mərkəzləşdirmə siyasəti naminə Azərbaycanda və hakimiyyətləri altında olan digər ölkələrdə soyurqalı azaltmaqla yeni özünəməxsus bir institut olan tiyulu möhkəmlətməyə çalışırdılar [39, 74] ki, bu barədə bir qədər aşağıda danışılacaqdır.

Əvvəllərdə olduğu kimi, XV-XVI əsrlərdə də dövlətin, ayrı-ayrı feodalların, eləcə də hərbçilərin əsas gəliri onlardan asılı olan rəiyyətin istismar edilməsi və başlıca olaraq, hərbi yolla qənimət ələ keçirilməsi ilə əldə edilirdi [39, 76]. Buna görə də dövlət başçıları daim soyğunçu müharibələr törədir, nəticədə kənd və şəhər əhalisi[30] hərbi dəstələrin tapdağı olur, əkinçilik və sənətkarlıq tənəzzülə uğrayırdı.

XV - XVI əsrlərdə Azərbaycan əhalisinin əksəriyyəti kəndlərdə yaşayır, təsərrüfatla məşğul olurdu. Ölkə atlarının şöhrəti ətraf dövlətlərə yayılmışdı [64, 237a]. Azərbaycan öz yaylaq və qışlaqları ilə də məşhur idi [64, 259a]. Şəhərlərdə sənətkarlığın müxtəlif sahələri inkişaf etməkdə idi. Qərbə və Şərqə gedən baş karvan yolları Azərbaycandan keçirdi [26, 54].

"Əhsənüt-təvarix" əsərində XV-XVI əsrlər Azərbaycan şəhərlərindən Təbriz [64, 269a, 270b], Bakı [65, 46, 108], Naxçıvan [65, 57, 163], Ərdəbil [65, 225, 247], Bərdə [64. 269], Şəki [64, 254a, 259a], Şamaxı [64, 126a], Marağa [64, 255a, 269a], Mahmudabad [64, 164a, 165a], Gəncə [65, 57, 317], Cavad [65, 57], Salyan [65, 296], Yevlağın [65. 317] adı dəfələrlə çəkilmiş, çaylarımızdan Araz [64. 265a, 269a], Kür [64, 254a, 269a] Samur [65, 317, 320] göstərilmiş, strateji-siyasi cəhətcə əhəmiyyətli qalalardan Əlincə [64, 247a, 262a], Gülüstan [65, 47, 286 - 287], Kiş [65, 334, 349], Gələsən-Görəsən [65, 349], Qəbələ [65, 43, 286],

[30] "Əhsənüt-təvarix"də kənd və şəhər əhalisi rəiyyət və rəaya adlandırılır [64, 263b, 269a]

Maku [64, 169a, 186a] və s. haqqında danışılmışdır. Müəllif Gülüstan qalası barədə "Şirvan vilayətinin ən böyük qalasıdır" cümləsini yazır [65, 46, 108]. Muğan [65, 286], Aran [64, 165a, 250b] və Qarabağ [64, 247a] da Həsən bəy Rumlu tərəfindən müəyyən qədər təsvir olunmuşdur.

İndi də "Əhsənüt-təvarix" əsəri əsasında XV - XVI əsrlərdə Azərbaycanda olan torpaq mülkiyyəti növləri haqqında məlumat verək.

**Vəqf torpaqları.** İslam dini müəssisələrinin çox gəlirli torpaq mülkiyyəti vəqf adlanırdı. Bu torpaqlarda yaşayan rəiyyət ruhanilərdən asılı idi. Vəqfdən götürülən gəlirin bir hissəsi məscid, mədrəsə və başqa dini idarələrin tikilməsinə xərclənir, onun böyük hissəsini ruhanilər mənimsəyirdilər [65, 389]. Dini müəssisələrin ixtiyarında böyük torpaq sahələri, vəqf olunmuş evlər, bazar, emalatxana, karvansara, dəyirman, bağ, suvarma kanalları və mədənlər də vardı [69, 166; 39, 78; 52, 29].

Vəqf torpaq və mülkləri dini müəssisələrin - məscid, mədrəsə və xanəgahların ixtiyarına verilir, əldə edilən gəlirin bir hissəsi onlara sərf olunurdu, lakin bəzən hökmdarların məzarına (gurxanə) vəqf edilən mövqufat oranın mücavirinə çatır və beləliklə, vəqf əmlakının şəxsi mənimsənilməsi hallarından biri yaranırdı. Uzun Həsən qaraqoyunlu Cahanşaha qalib gəldikdən sonra (1467) onun oğlu Əbu Yusifin gözlərini çıxardıb, onu atasının məzarı üstünə mücavir təyin etmişdi. Bir il sonra hücumla Miyanəyə gələn Sultan Əbu Səid də bu kor şahzadəyə hörmət edərək, atasının qəbrinə edilən mövqufatın hamısına yiyələnməyi ona tapşırmışdı [64, 166a].

Vəqf torpaqlarının gəliri vəqfi verən şəxsin vəsiyyətinə əsasən məsrəf edilə bilərdi. Vəqf olunan əmlak vəqfnaməyə müvafiq sürətdə idarə edilməli idi. Bu torpaqlardan hökümət üçün vergi yığılmır, vəqf əmlakı toxunulmaz sayılırdı. Məhz buna görə də feodallar bəzən öz torpaqlarını dini müəssisələrə vəqf edir, beləliklə də, xəzinəyə vergi verməkdən can qurtarırdılar [52, 30; 9, 41].

XV əsrin ikinci yarısında Azərbaycanda olan ən böyük vəqflər bunlar idi: Ərdəbildə Şeyx Səfiəddin məqbərəsi hal-hazırda Təbrizdə mövcud olan Həsən şah məscidi, Cahanşah tərəfindən vəqf edilən Cahanşahiyyə vəqfləri, Qazan xanın məzarı [44, 138].

Həsən bəy Rumlu Cahanşahın vəqfləri və onun Təbrizdə tikdirdiyi məscid barədə yazır: "heç kəs belə kamil işlənmiş bina tikməmişdir... Məscidə bitişən günbəzi... qızılla bəzəmişlər. Bu məscidə doğru küçə aalınmış və (ona) çoxlu əmlak vəqf edilmişdir" [61, 168b].

Əmlak çox halda mədrəsə və türbələrə vəqf edilərdi ki, bu haqda Həsən bəy Rumlu məlumat verir [64, 145b, 204a, 242a].

Vəqf əmlakı satıla və bağışlana bilməzdi [26, 135; 41, 137; 30, 68], lakin onun mənimsənilməsi halları baş verirdi. Həsən bəy Rumlu vəqfi mənimsəyən şəxslərdən birinə misal olaraq uzun müddət I Şah Təhmasibin vəziri olmuş və sonradan vəzifədən kənar edilmiş Qazi Cahanı göstərib I Şah Təhmasibə - Ş. F.)

dedilər ki, vəqf yerlərindən bəzisi uzun müddətdir ki, onun (Qazi Cahanın—Ş. F.) istifadəsindədir (və oranı) öz mülkü kimi zəbt etmişdir. Dinin pənahı olan şahın fikri belə oldu ki, topladığı vəsaiti onun əlindən alsınlar və bu müddətdə yığdığı pulları geri götürsünlər" [65, 375].

Həsən bəy Rumlu bu məlumatı verdikdən sonra sabiq vəzirinin kasıblığını görən Şah Təhmasibin nəinki Qazi Cahan barədə verdiyi hökmü dəyişdirdiyini, hətta ona soyurqal şəklində müəyyən məbləğ pul da verdiyini yazır: "Əhvalat baş verməzdən əvvəl (Qazi Cahan) özünü saraya çatdırdı. Şah Təhmasib onun acizliyini, çarəsizliyini, qocalığını, zəifliyini və halının pərişanlığını görüb, fikrini dəyişdi və soyurqal sifətilə ona pul da verdi" [65, 375-376).

Buradan belə nəticəyə gəlmək olur ki, vəqf gəlirinin mənimsənilməsinə bəzən göz yumulur, vəqf torpaqlarının xüsusi surətdə istismar edilməsinə etinasızlıq göstərilirdi.

"Əhsənüt-təvarix" salnaməsində üç növ şərti feodal torpaq mülkiyyətinin adı çəkilmişdir: iqta, soyurqal, tiyul. XIV əsrin ortalarından etibarən iqta institutu öz yerini soyurqala verdiyindən [39, 155; 26, 182] iqta torpaq mülkiyyəti barədə danışmağı lazım bilmədik. Soyurqal və tiyul institutları haqqında isə Həsən bəy Rumlu və başqa tarixçilərin verdikləri məlumata əsasən ayrı-ayrılıqda danışılaçaqdır.

**Soyurqal**. Özündən əvvəlki iqta institunun inkişafı nəticəsində yaranan soyurqal institutu Azərbaycanda olan feodal mülkiyyətinin əsas növlərindən biridir. Hökmdar tərəfindən müəyyən şəxsə soyurqal verilərkən hökm (ehkam-i soyurqal) yazılır [65, 19; 78, 61, 161], ona soyurqal sənədi (neşan-i soyurqal) verilirdi [102, 159]. Həsən bəy Rumlunun "ərbab-i istihqaq, sahib-i soyurqal" adlandırdığı şəxslər [69, 206] hökmən padşahın hərbi və ya mülki xidmətində olmalı, onun mənafeyindən ötrü çalışmalıydılar [65, 15—16, 239, 385—386].

Soyurqal sahibləri öz torpaqlarında tam müstəqil idilər və dövlət məmurlarının həmin torpaqlardan vergi yığılmalarına nəinki yol verilir hətta məmurların o torpaqlara yaxın düşmələri belə qadağan edilirdi [39, 157; 52, 36].

"Əhsənüt-təvarix"in IX cildi soyurqal torpaq mülkiyyəti növü haqqında bəzi məlumat vermişdir. Müəllif ənam şəklində əyalət, şəhər, kənd, habelə müəyyən məbləğ pulun hansı ad altında verildiyini bəzən bildirmədiyindən bunun müəyyənləşdirilməsinə ehtiyac vardır. 809 (1406)-cu ildə Sultan Əhməd Cəlayiri Təbrizdə sakin olarkən, teymuri Mirzə Ömərin əmri ilə Əlincə qalasının dağıdılmasında iştirak edən naxçıvanlı Qazi İmadəddini həmin qalanın təmirinə yollamışdı. Həsən bəy Rumlunun yazdığına görə, Qazi İmadəddin öhdəsinə düşən tapşırığı yerinə yetirdikdən sonra Sultan Əhmədin Təbrizi tərk edib Bağdada getdiyini eşidən kimi qalada öz "istila və istiqlaliyyət bayrağını" qaldırmışdı. Elə o vaxt da Təbrizi tutan Qara Yusif Əlincəni Qazinin əlindən çıxarmağa səy etmiş, "qalanın alınmasının mümkün olmayacağını" bilərək qala və ətraf yerlərin ona çatdığını rəsmən təsdiq etmək məcburiyyətində qalmışdı [64, 262b – 264b]. Həsən

bəy Rumlu Əlincənin nə adla Qaziyə verildiyini göstərmir. Buna baxmayaraq, məlumdur ki, soyurqal yerinin bütün ixtiyarı soyurqal sahibinin əlində cəmlənmişdi. Qazi də qalaya yiyələndikdən sonra ətraf yerlərdə yaşayan türk və tərəkəmə (yəni azərbaycanlı—Ş.F.) tayfaları qalaya yığmış, əhalidən toplanan ülufə və mərsumu[31] özü müəyyənləşdirmişdi. Bundan başqa, O.Ə. Əfəndiyevin göstərdiyi kimi, qaraqoyunlu və ağqoyunlu padşahları soyurqal verməklə mərkəzi hakimiyyəti möhkəmləndirməyə və dövlətdə birlik yaratmağa çalışırdılar [52, 37]. Qara Yusif də özünə yeni bir düşmən yox, dost qazanmaq istəyərək Əlincənin və ətrafındakı torpaqların Qazi İmadəddinin istifadəsində qalmasını təsdiq etmişdi. Buradan belə nəticəyə gəlmək olur ki, Qara Yusifin hökmü altında olan ərazidə yerləşən Əlincə qalası Qazi İmadəddinə məhz soyurqal şəklində verilmişdi.

Soyurqallar, adətən, hər hansı bir şəxsə onun göstərdiyi xidmət müqabilində verilirdi. Məsələn, Cahanşah qardaşı oğlu Şahqubada atası Qara İsgəndəri öldürdüyünə görə 841 (1437)-ci ildə soyurqal olaraq bir şəhər və qala vermişdi [64, 221b].

Bəzən soyurqal kimi paylanması nəzərdə tutulan yerlər (başqa ölkə torpaqları) hökmdar tərəfindən hücuma məruz qalarkən, "soyurqal əhli" olan şəxslər də döyüşə aparılırdı. Belə ki, Uzun Həsən 881 (1476/77)-ci ildə Gürcüstana yeni yürüş edərək özü ilə bir dəstə seyid və şeyx aparmış, nəticədə "Gürcüstan vilayətini tutmuş, çoxlu əsir götürmüş və xeyli soyurqal paylamışdı" [64, 141a; 39, 150; 52, 34, 51].

Bəzi hökmdarlar çoxlu soyurqal verməklə özlərinə arxa yaratmağa çalışırdılar. Orta əsr tarixçilərinin əksəriyyətinin yazdığına görə, Rüstəm Ağqoyunlunun hakimiyyəti zamanında külli miqdarda soyurqal bağışlanmışdı [65, 15; 98, 127a; 52, 34]. "Onun ərbablara verdiyi soyurqal və vəzifələri ağqoyunlu və qaraqoyunlu sultanlarından heç biri heç kəsə verməmişdi" [65, 15-16]. Rüstəm şahın əksinə olaraq onu devirib taxta əyləşən Əhməd bəy (Gödək Əhməd) isə sabiq sultanlar kimi soyurqal paylamadığına görə öldürülmuşdü [65, 19; 84, 443].

Həsən bəy Rumlu üç növ soyurqal haqqında məlumat vermişdir. Onlardan birincisi torpaqla verilən soyurqal idi ki, bu barədə bir qədər danışıldı. Müəllifin göstərdiyi ikinci soyurqal isə əmlak və torpaqla deyil, pul ilə ödənilirdi ki, bu haqda ətraflı danışmağı lazım bilirik.

I Şah Təhmasib bir müddət onun "səltənət, xilafət, mülk, və din işlərini" idarə etmiş olan Əskuyə kəndinin (Təbriz yaxınlığındadır) seyidlərinə böyük məbləğdə soyurqal bağışlamışdı. Həsən bəy Rumlu yazır: "Əlahəzrət onlara külli məbləğdə olan soyurqallar bağışladı" [65, 302; 39, 159].

Müəyyən məbləğ pul ilə verilən soyurqala Həsən bəy Rumlunun əsərində bir daha rast gəlirik ki, bu da keçmişdə etdiyi xidmətlər müqabilində sabiq vəzir Qazi Cahana 960 (1502/53)-cı ildə I Şah Təhmasib tərəfindən "şəfqət" olunan

[31] Bu istilahlar haqqında bir qədər aşağıda danışılacaqdır

soyurqaldır. Bu haqda oxuyuruq: ("Ona") müəyyən məbləğ soyurqal kimi pul da bağışladı [65, 376].

"Əhsənüt-təvarix"də soyurqal verilişi barədə başqa bir məlumat da vardır ki, bu da müştərək soyurqaldır. Müəllif yazır ki, Cahanşah bir vaxtlar Həmədan şəhərini iki əmirə soyurqal vermişdi. Cahanşahı və Sultan Əbu-Səidi məğlub edən Uzun Həsən də o iki əmirə - Satılmış bəy və Şahsuvar bəy Kavrudiyə qarşı yaxşı münasibətdə olmuş, onları yenidən müştərək soyurqal sahibləri kimi Həmədana göndərmişdi [64, 162b].

"Əhsənüt-təvarix" salnaməsi bədii dil və zəngin üslub vasitələri ilə qələmə alınmış olsa da, oradakı bəzi şer parçalarında da ara-sıra ictimai fikirlərə rast gəlmək olur. Bizim müəlliflə təxminən bir dövrdə yaşayan şair Mövlana Heyrəti (961 (1553/54)-ci ildə vəfat etmişdir) şikayətlə dolu bir qəsidə yazmışdı ki, Həsən bəy Rumlu onun bir neçə beytini öz əsərində vermişdir. Şair Heyrəti qazi və müftidən şikayətləndikdən sonra yazır ki, onlar düşməndirlər, onlar

"Bəlkə də divan malından pul yeyirlər hər biri.
Sərbəsər bol-bol soyurqal sahibi, pul, sahibi"[32]
[65,385 - 386]".

K. S. Ləmbtonun soyurqala verdiyi tərifdən məlum olur ki, soyurqal şəxslərə maaş əvəzinə, yaxud təqaüd əvəzinə bağışlanan torpaq, ya da torpaqdan alınan gəlirdi [90, 773][33]. Fikrimizcə, bu tərifə soyurqal şəklində verilən pul da əlavə edilməlidir. Bundan başqa, "İranda mülkədar və əkinçi" kitabında soyurqal torpaq mülkiyyətinin qaraqoyunlulardan başlayıb qacarlar dövrünə qədər davam etdiyi göstərilmişdir [90, 773]. Lakin, məlum olduğu kimi, soyurqal verilişi hələ qaraqoyunlu hakimiyyətindən əvvəl də vardı [39, 155; 26, 182]

**Tiyul.** Bu şərti torpaq mülkiyyəti növünün məhz hansı əsrdə həyata keçməsi barədə müxtəlif fikirlər vardır. İ. P. Petruşevskiyə istinad edən O. Ə. Əfəndiyev göstərir ki, "səfəvilər dövründə soyurqal... öz yerini tiyula verdi" [52, 37]. Lakin V. F. Minorski teymurilər dövründə tiyul istilahının işlədilməsi ilə əlaqədar olaraq iqta mülkiyyətinin aradan çıxdığını bildirmişdir [39, 185]. Tiyulun məhz nə zaman meydana çıxması xüsusunda K. S. Ləmbtonun da bir-birinə zidd iki fikri vardır. O, gah tiyulun səfəvilər dövründə iqtanı əvəz etdiyini [90, 219], gah da hələ elxanilər zamanı iqtanın tiyul ilə əvəz olunmağa başladığını qeyd etmişdir [90, 754]. Onun bu fikirləri arasındakı ziddiyyət bir yana qalsın, iqtanın tiyul ilə əvəz olunması barədə də onun söylədiyi fikir düzgün deyildir, çünki, bildiyimiz kimi, iqtanı əvəz edən institut tiyul yox, soyurqal institutu olmuşdur [39, 155, 189].

Tiyul müəyyən bir yerin müvəqqəti istifadə olunmasından ötrü şahın dövlət torpaqları hesabına xüsusi şəxslərə verdiyi sahəyə deyilirdi. Tiyul sahibi (tiyuldar) həmin torpaqdan alınan gəlirin hamısını, yaxud böyük bir hissəsini

[32] Beytin tərcüməsi bu sətirlərin müəllifinindir.
[33] Soyurqal haqqında geniş məlumat üçün İ.P. Petruşevskinin monoqrafiyasına baxmaq lazımdır.

mənimsəyirdi [39, 194 - 195]. O, dövlətə hər il “rüsum” adı altında müəyyən məbləğ pul verməliydi [90, 242 - 246]. Bəzən tiyul müəyyən qoşun hissələri hazırlanması məqsədi ilə də verilir və tiyuldar lazımi vaxtda hökümətin sərancamına əsgəri qüvvə verməyə vəzifədar edilirdi [9, 53]. Tiyul soyurqaldan fərqli olaraq əmir, şahzadə və başqa şəxslərə irsən verilə bilməzdi [39, 193, 212; 55, 39], çünki bu torpaq mülkiyyəti növü məhz tiyula layiq görülən hökümət məmurunun etdiyi xüsusi xidmət müqabilində maaş kimi verilirdi [90, 220].

Xidməti böyük olan şəxsin tiyulu da çox olurdu. 809 (1406/07)-cu ildə Qara Yusif Bəstam Cagirluya əmirül-üməra vəzifəsini verdiyi vaxt Sultaniyyə, Ərdəbil və Muğan tiyul kimi həmin əmirə xas idi [64, 299 a].

Dövlət başçısı müharibəyə yollanan vaxt tiyuldarlar da onunla həmrah olmalı, öz qoşunları ilə köməklik göstərməli idilər [64, 175b; 56, 371]. 871 (1465/67)-ci ildə oğlu Pirbudaq əleyhinə müharibəyə hazırlaşan Cahanşah “ətraf vilayətlərdən bir çox əmir və tiyuldarları çağıraraq, onları öz ordusuna birləşdirmişdi” [64, 175b].

Bir qədər yuxarıda tiyulun irsi xüsusiyyətə malik olmadığı söylənilmişdi. Bu fikrin təsdiqi üçün məlumat “Əhsənüt-təvarix”də də vardır. Məsələn, Qara Yusif 818 (1415/16)-ci ildə Sultaniyyə şəhərinin o zaman artıq onunla düşmənçilik edən Bəstam Cagirludan alınıb özünə verilməsini Şahrux şahdan xahiş etmişdi [64, 250b], ancaq məlumdur ki, Sultaniyyə Əmir Bəstamın tiyulu idi [64, 249a]. Əgər tiyul irsi xüsusiyyətə malik olsaydı, Sultaniyyənin əmir Bəstamdan alınmasına cəhd edilməzdi. Başqa bir misal: 915 (1509/10)-ci ildə əvvəllər Abdal bəy Dədənin əlində olan Qəzvin və Savucbulaq şəhərləri əmir Zeynal xan Şamluya verilmişdi [65, 110; 39, 194]. Həsən bəy Rumlu sonradan yazır ki, Qəzvin onun babası Əmir Sultan Rumlunun əcdadına tiyul verilmişdi [65, 278; 39, 194]. Tiyul yerlərinin əldən-ələ keçməsi ilə əlaqədar olaraq, tiyul feodal torpaq mülkiyyəti növünün irsi xarakter daşımadığı bir daha təsdiq edilir.

Tiyulun ləğvi nəticəsində yaranan vahimə bu mülkiyyət formasının tiyuldar əmirlərdən ötru nə qədər gərəkli olduğunu bariz şəkildə əks etdirir. Belə ki, 932 (1525/26)-ci ildə ustaclu tayfasına aid olan tiyulun I Şah Təhmasib tərəfindən ləğv edilməsi ilə əlaqədar həmin tayfa əmirləri hökümətlə düşmənçiliyə başlamışdılar [65, 191; 58, 47; 39, 194].

**Vergi və mükəlləfiyyətlər.** XV əsrdən etibarən soyurqal feodal torpaq institutunun genişləndirilməsi ilə əlaqədar olaraq iri feodal torpaq mülkiyyəti artmağa başladı. Sahibkarlar isə müxtəlif vergi növləri ilə rəiyyəti əldən salır və get-gedə varlanırdılar. Buna görə də kənd və şəhər əhalisinin vəziyyəti olduqca ağır idi. Həsən bəy Rumlu əhalinin istismarı və yoxsullaşmasına səbəb olan bir sıra vergi və mükəlləfiyyətlər haqqında müəyyən məlumat verir.

Bildiyimiz kimi, vergilər xüsusi dövlət vergiyığanları - mühəssillər vasitəsilə toplanırdı [64, 269a; 56, 329, 356]. “Əhsənüt-təvarix”də xalqın

mühəssillərin əlində giriftar olduğu aşkar göstərilmişdir. O yazır: “Hamı mühəssillərin əlində giriftar oldu” [64, 200b].

Mühəssillər vergiləri müəyyən olunmuş miqdardan artıq yığmağa çalışırdılar. Onlar vergi verə bilməyənləri işgəncə ilə məcbur edir, çoxlu mal ələ keçirməyə çalışırdılar [65, 69]. Vergi toplanışı zamanı vergiyığanların özbaşınalığı şəhər və kəndlərdə narazılıq yaradır və bəzi hallarda üsyana səbəb olurdu. 808 (1405/06)-ci ildə qanunsuz olaraq rəiyyət malına əl uzadılmasından həyəcana gələn Təbriz əhalisi üsyan etmiş, vergiyığan Xacə Pirəlini öldürmuş və səngər (küçəbənd) düzəldərək döyüşə başlamışdı (64, 269a).

Vergilər əhalidən məhsul və pul ilə yığılırdı ki, bu haqda əsasən Həsən bəy Rumlunun məlumatını şərh etməyə çalışacağıq.

**Xərac və bac.** XV əsrdən xərac istilahını əvəz edən mal, mal-o çehat, bəhre sözləri daha çox işlənməyə başladı. “Əhsənüt-təvarix” əsərində bu sözlər bir-birinin sinonimi kimi getmişdir. Orada bəzən bac və xərac istilahları birləşdirilərək bac-o xərac kimi göstərilir (64, 257b). Qeyd etdiyimiz bu mənasından əlavə xərac sözü bir dövlətin özünə tabe etdirdiyi vilayət və ölkələrdən aldığı vəsait kimi də işlənmişdir (64, 2146; 77, 165). İ. P. Petruşevski və Ə. Ə. Əlizadə xərac istilahını kənd təsərrüfatından yığılan əsas vergi mənasında vermişlər (39, 267; 26, 210). Lakin məlum olduğu kimi xərac yalnız kənd təsərrüfatı məhsulları ilə yox, pul ilə də ödənilirdi. Buna aid “Əhsənüt-təvarix” salnaməsində müəyyən misallar vardır. Ağqoyunlu Yaqub şah 886 (1481/82)-cı ildə Gürcüstana hücum etdikdə gürcü hökmdarı Kvarkvare bu ağqoyunlu hökmdarına ildə 500 tümən xərac verməyə boyun olmuşdu (64, 1286). Həsən bəy Rumlunun başqa bir məlumatından bilinir ki, Şirvanşah Fərrux Yasar da Yaqub şaha hər il 5000 tümən məbləğində xərac göndərirdi (64, 123-a).

“Əhsənüt-təvarix”dən aydın olur ki, əgər xərac verilişi dayandırılsaydı, xərac verməli olan yer hücuma məruz qalırdı. 906 (1500/01)-cı ildə Şirvanşah Fərrux Yasar qızılbaşlar tərəfindən öldürülmüş və İsmayıl Səfəvi Bakı qalası üzərinə hücuma keçmişdi, çünki “bakılılar onların öhdəsinə qoyulan xəracı ödəmirdilər” (65. 45).

Ümumiyyətlə, xərac ağır vergi olmuşdur. Təsadüfi deyil ki, istər Azərbaycan, Şirvan, istərsə də başqa ölkə və vilayətlər bəzən bu vergini ödəməkdən boyun qaçırır, beləliklə də, bir növ üsyan edirdilər. I Şah İsmayılın Şirvana hücumunun səbəbi “şirvanşahın istiqlaliyyətdən dəm vurmasında və xərac verməkdən boyun qaçırmasında” olmuşdur[34].

Həsən bəy Rumlu göstərir ki, hökmdar tərəfindən təqsirləndirilən şəxs müəyyən cəzalara məruz qalırdı: qətl edilir, yandırılır, yaxud da onun üzərinə

---

[34] I Şah İsmayılın Şirvana bu hərbi səfəri də “Əhsənüt-təvarix”də təfsilatı ilə verilmişdir, lakin səbəb göstərilməmişdir (Bax: 65,108 – 109). Biz həmin səfərin səbəbini A. Bakıxanovdan götürdük (Bax: 6,99)

böyük məbləğdə xərac qoyulurdu. 953 (1546/47)-cü ildə I Şah Təhmasibə qarşı üsyan edən Əlqas Mirzə bağışlanmasından ötrü öz şah qardaşının yanına anası və oğlunu yolladıqda, şah onu əfv etmiş və hər il xəzinəyə 1000 Təbriz tüməni məbləğində xərac verməyini cəza əlaməti kimi ona qəbul etdirmişdi (65, 315; 74, 82).

Orta əsrlər Azərbaycanında ticarət yollarından istifadə olunaraq mal daşınarkən, şəhərə giriş darvazasında bac alınırdı. Bacı, əsasən, tacirlərdən tələb edirdilər (26, 223 - 224) ki, bu da ticarətin inkişafına olduqca pis təsir göstərirdi. (26, 67 - 68). "Əhsənüt-təvarix"də bac istilahı xərac sözünün sinonimi kimi işlənmişdir (64, 251b; 74, 127, 142).

**Mal.** Müxtəlif xüsusi əmlakdan bağ, meşə sahəsi, dəyirman və s.-dən, ümumiyyətlə, rəiyyət və köçərilərdən alınan vergi olmuşdur (26, 240). Bəzən mal dedikdə dövlət xəzinəsinə daxil olan vergilər yığımı nəzərdə tutulurdu (65, 386; 26, 240). Mal məhsul, ya da pulla verilirdi. Bu istilah mülkiyyət, xüsusiyyət və pul mənasında da işlədilir (64, 177a; 26, 240). "Əhsənüt-təvarix"də bu söz qənimət mənasında da göstərilmişdir (64, 263a).

**Aman malı.** (Mal-i əmani). Şəhəri döyüşlə tutan, yaxud, şəhər əhalisindən narazı qalan hökmdar onlardan böyük məbləğdə aman malı tələb edirdi (64, 196a; 30, 26a; 26, 251). 857- (1453/54)-ci ildə Cahanşah İsfahan şəhərini hələ həddi-büluğa çatmayan oğlu Məhəmmədi Mirzəyə vermiş və onun əvəzində şəhəri idarə etməkdən ötrü lələsini yollamışdı. Lələ və isfahanlılar arasında narazılıq baş verdiyindən bu şəhər camaatı qaraqoyunlu hökmdarının qəzəbinə düçar olmuş və onların üzərinə 3000 tümən aman malı qoyulmuşdu (64, 196a).

**Mal-o cehat.** Məhsulun bir hissəsi kimi yığılan renta vergi növüdür (39, 226). Həsən bəy Rumlunun təsvirindən görünür ki, bu vergi olduqca gəlirli olmuşdur. I Şah İsmayıl Diyarbəkrin idarə olunmasını əmiri Qaraxana verdiyi vaxt əmir öz əvəzinə oraya Əhməd Çələbi adlı bir nümayəndəsini yollamışdı. Ancaq Əhməd Diyarbəkrin mərkəzi Amid şəhərinin mal-o cehatını Qaraxana göndərmədiyindən xan onu öldürmüşdü (65, 156).

Bəzən müəyyən bir yerin mal-o cehatı şəxsə məvacib əvəzinə verilirdi. Sübut üçün bu cümlə kifayətdir: "Bu yerin mal-o cehatı məvacibi olan İsgəndər bəy Əfşar..." (61,316a).

**Qan Bahası (Xunbəha).** Döyüş vaxtı çoxlu hərbi qüvvəsini itirən hökmdar məğlubiyyətə uğratdığı yerdən qan bahası tələb edirdi. 906 (1500/01)-ci ildə Bakı qalasının qızılbaşlar tərəfindən çətinliklə alınmasından sonra qala sakinləri qan bahası kimi xəzinəyə 1000 tümən pul vermişdilər (65, 47; 27, 125).

Qan bahası, əsasən, əsirlərin bağışlanmasından ötrü verilən böyük məbləğ pul olmuşdur (64, 253a; 81, 234b: 77, 79)[35]

**Ələfə və Ülufə.** Ələfə istilahı feodal qoşunlarındakı heyvanların yemlənməsindən ötrü əhalidən toplanan vergi olmuşdu. Bu söz altında bəzən hökümətin tələbi ilə döyüşçülər üçün rəiyyətdən yığılan ərzaq da başa düşülür (39, 273—274; 90, 207—208). Ülufə isə vergiyığanlar, dövlət məmurları və əsgərlər üçün toplanan vergi növü idi. Lakin İ. P. Petruşevski ələfə və ülufəni bir-birinin sinonimi kimi göstərir (39, 274). Onun fikrincə, ülufə də ələfə kimi heyvanlar üçün yem, həmçinin döyüşçülər üçün yığılan ərzaqdır (39, 274). Ə. Ə. Əlizadə, K. S. Ləmbton və O. Ə. Əfəndiyev onları sinonim kimi qəbul edirlərsə də, ələfənin döyüşçülər, yaxud hökümət məmurlarından ötrü toplanan ərzaq malları, ülufənin isə heyvan yemi olduğunu göstərirlər (26, 236; 90, 207; -208; 52, 42). Ancaq tarixi mənbələrin bəzilərində ələfənin heyvan yemi, ülufənin isə insanlara verilən mükəlləfiyyət olduğu anlaşılır. Həsən bəy Rumlunun bu cümləsinə diqqət yetirək: "Döyüşçülərə ülufə çatdırılmasında... bir dəqiqə də baxımsızlıq etmirdi (yəni vaxt itirmirdi) (66, 503).

Yaxud, "Name-yi nami" əsərində göstərilir: "Mütəvəlli, vəqf işçiləri, pişnamaz və azançılara sədrlərin razılığı ilə ülufə verilirdi" (69, 167).

**İxracat.** Əyalətlərdə olan döyüşçü və dövlət qulluqçularının ehtiyaclarını ödəməkdən ötrü əhalidən yığılan vergi olmuşdu. (39, 273). Bəzi hökmdarların hakimiyyəti dövründə müvəqqəti olaraq ləğv edilən ixracat barədə mənbələrdə məlumat vardır. Məsələn, Yaqub şah ixracatın bir hissəsini 886 (1481/82)-cı ildə ləğv etmiş (64, 130a), sonradan isə Həsən bəy Rumlunun məlumatına görə ixracatın hamısını aradan götürmüşdü (64, 123a). Gödək Əhmədin dövründə də "ixracat qapıları" bağlanmışdı (65, 19; 61, 274b; 39, 273).

Görünür ki, hökmdar ixracatı azaltmaq, yaxud ləğv etməklə onsuz da halı ağır olan rəiyyətin vəziyyətini bir qədər yüngüllətməyə, öz nüfuzunu isə xalq yanında, heç olmasa, bu yolla artırmağa çalışmışdır.

**Tamğa.** Ticarət və istehsal edilən sənətkarlıq malları satılarkən onların üzərinə qoyulan vergi olub, əsasən, pul ilə yığılırdı (26, 216; 52, 45, 12, 45; 28, 45). Tamğa haqqının ağırlığına görə şəhərlərdə təsərrüfat həyatı pisləşir və ticarət tənəzzül edirdi. Bəzən müəyyən bir yerin tamğası ləğv olunurdu (64, 175b) ki, bu da, şəksiz, ticarət və mal istehsalını artırmaq məqsədilə edilirdi. Həsən bəy Rumlu və başqa tarixçilərin məlumatından aydın olur ki, 872 (1564/65)-ci ildə I Şah Təhmasib 30000 tümən məbləğində olan tamğanı (55, 428; 88, 310: 77, 225 - 226), o cümlədən Naxçıvanın tamğasını da ləğv etmişdi (55, 15). Təbiidir ki, o, belə hərəkət etməklə dövlət xəzinəsinin əsas gəlirlərindən biri olan vergidən məhrum

---

[35] Qara Yusif tərəfindən 817 (1414/15)-ci ildə əsir alınan Şirvanşah I İbrahim azad edilməyindən ötrü 1200 İraq tüməni məbləğində pul verməyə boyun olmuşdu. Həsən bəy Rumlu hadisənin təsvirində "xunbəha" istilahını işlətmirsə də, şübhəsiz ki, o pul qan bahası kimi tələb edilmişdi. (Bax: 64, 253a)

olmaq istəməzdi. Görünür ki, onu belə hərəkətə rəiyyətin yoxsulluğu, xüsusilə sənət və ticarətin getdikcə zəifləməsi vadar etmişdi. Digər tərəfdən, İ. P. Petruşevski haqlı olaraq müəyyən vergilərin ləğvinin səbəbini hökmdarın bu yolla xalq həyəcanlarının qarşısını almaq istəməsində görmüşdür (38, 224).

Tamğanı toplayan şəxs tamğacı adlanmışdır [65, 428]

**Rüsum.** Xüsusi xidmətləri olan nüfuzlu şəxslərə verilən mükəlləfiyyət növüdür (39, 279). Qara Yusif 810 (1407/08)-cu ildə Teymurun nəvəsi Əbubəkrlə döyüşə yollanmazdan əvvəl öz əmir və dövlət başçılarını yanına çağırıb, bu fikrini bildirdikdən sonra "onların hamısını nemətlər və mərcumat ilə ümidzar etmişdi" (64, 263b). Bu misaldan rüsumun bir növ şirnikləndirmə, həvəsləndirmə vasitəsi kimi bəyan edildiyi görünür.

"Əhsənüt-təvarix" salnaməsinin hər yerində rüsum sözü mərsum və mərsumat kimi getmişdir. Orta əsr tarixçiləri bu istilahı çox vaxt məvacib mənasında işlətmişlər (64, 225b; 262a; 50, 437; 61, 315b). Misal üçün aşağıdakı hadisəyə diqqət yetirək:

933 (1526/27)-cü ildə şamlu tayfasının bir dəstə üzvünə mərsum verilmədiyi üçün onlar üsyan edib, Sam Mirzənin vəziri Xacə Həbibullahı öldürmüşdülər. Həsən bəy Rumlu bu hadisəni belə nəql edir: "Bir gün (Xacə Həbibullahı) nərd oynamaqla məşğul idi. Mərsum almayan şamlu camaatı Xacənin yanına gələrək, səslərini ucaldıb dedilər: "Bizə məvacib vermədiyin üçün işdən azad et" (65, 197).

"Əhsənüt-təvarix" əsərində rüsumla məvacibi eyniləşdirən başqa bir fakt da vardır: 981 (1573/74)-ci ildə Mirzə Şükrüllah İsfahanini vəzirlikdən çıxarıb, bu vəzifəni Seyid Hüseyn Fərahani və Xacə Cəmaləddin Təbriziyə verən I Şah Təhmasib onların hər birinə 500 Təbriz tüməni məbləğində mərsum təyin etmişdi (65, 159).

Beləliklə, aydındır ki, XV - XVI əsrlərdə Azərbaycanın iqtisadi vəziyyəti haqqında "Əhsənüt-təvarix" əsərinin verdiyi faktlar bu salnamənin əhəmiyyətini əyani şəkildə nəzərə çatdırır.

## 3. Siyasi tarix

"Əhsənüt-təvarix" əsərinin tariximizlə əlaqədar olan IX cildinin ilk fəsli 807 (1404/05)-ci il hadisələrinin təsviri ilə başlayır. O il istilaçı hökmdar Teymur ölmüş, hakimiyyət uğrunda onun varisləri arasında qanlı vuruş başlanmışdı (66, 15). O vaxt mərkəzi Herat şəhəri olan Xorasan dövləti üstündə Teymurun oğlu Şahrux və nəvəsi Sultan Xəlil (Miranşahın oğlu) arasında narazılıq yaranmış və nəticədə Şahrux qalib gəlmişdir. Bir neçə il əvvəl atası tərəfindən hakimiyyətdən məhrum edilən Miranşah (67, 215b) oğlu Əbubəkr və Mirzə Ömərlə birlikdə Azərbaycan və İranın qərb torpaqlarında səltənətə çıxmaq uğrunda vuruşurdu (66, 8 - 10: 89,414b - 415a; 67, 216b). Daxilən möhkəm olmayan Teymur imperiyası

onun ölümündən sonra parçalanmağa başlamış, hərc-mərclik yaranmışdı. Orta Asiya və Azərbaycanda da feodal araçəkişmələri davam etməkdə idi. Ölkə tez-tez bir hökmdarın əlindən çıxır, başqa birinin ixtiyarına keçirdi. Təbriz elə həmin il Mirzə Ömərin (66, 8 - 9; 67, 216b), 808 (1405/06)-ci ildə əvvəl Mirzə Əbubəkrin və Miranşahın (66, 17), sonradan isə Şirvanşah I İbrahimin əlinə keçmişdi (66, 21 38), 809 (1406/07)-cu ildə isə Sultan Əhməd Cəlayiri Bağdaddan hücuma keçərək Təbrizə üz tutmuş, I İbrahim şəhəri tərk etdikdən sonra Azərbaycan paytaxtını tutmuşdu (66, 38: 26, 396).

Paytaxtın belə tez-tez əldən-ələ keçməsi şübhəsiz ki, ilk növbədə xalqın qarət edilməsinə səbəb olurdu. Azərbaycanın şəhər və qalaları yadelli hücumlar nəticəsində dağılır, əhalisi qətl edilirdi. Teymuri qoşunlarına illərlə fədakarcasına sinə gərən Əlincə qalası nəhayət 807 (1404/05)-ci ildə Mirzə Ömərin yürüşü nəticəsində viran edilmişdi (66, 9; 56, 468; 26, 391). Həsən bəy Rumlu yazır ki, hər bir ərazi ələ keçirməmiş, şəhərdəki türkmən əmirlərinin bir dəstəsi hücumla gələrək, rəiyyətin malına əl uzatmışdılarsa da, əhaliyə qalib gələ bilməmiş və şəhərdən çıxarılmışdılar (66, 17).

Tarixi mənbələrin verdikləri məlumatlarda yadelli işğalçıların soyğunçuluqları dəfələrlə nəzərə çatdırılmışdır. Qara Yusiflə olan döyüşdən qaçan Mirzə Əbubəkr “bir neçə nəfərlə birlikdə özünü Təbrizə yetirmiş və rəiyyətin malına əl uzatmışdı” (66, 36). Bunun əksinə olaraq, I İbrahimdən az əvvəl şəhərə girən Əmir Bəstam xalq ilə yaxşı rəftar etmişdi (66, 21; 80, 25a).

Göstərmək lazımdır ki, Təbriz əhalisi işğalçılara qarşı kütləvi çıxışlar edir, hər vasitə ilə düşməni qovmağa çalışırdı (66, 17). Azərbaycanın cənubunda baş verməklə olan hərc-mərcliyin əksinə olaraq, artıq XV əsrin əvvəllərində müstəqil bir dövlət kimi özünü göstərən Şirvanın əhalisi “ölkəni iqtisadi cəhətcə inkişaf etdirməyə çalışan şirvanşahın siyasətinə tərəfdar olurdu” (5, 220).

Azərbaycan, Şirvan və Şəki dövlətlərini ələ keçirib, mərkəzləşdirilmiş bir dövlət yaratmaq Qara Yusifin hərbi siyasətinin məzmununu təşkil edirdi. O, məqsədinə çatmaqdan ötrü Azərbaycana sahibləndikdən sonra təhlükəli rəqibi olan Mirzə Əbubəkri əzmək qərarına gəlmiş (66, 42) və buna nail olmuşdu (66, 45: 20, 398). 809 (1406/07)-cu ildə Qara Yusifin növbəti hücumu Əlincə qalasını zəbt edərək orada “istila və istiqlaliyyət bayrağı qaldıran” Qazi İmadəddin üzərinə olmuş, qalanın alınmazlığını gördüyündən özünə yeni bir müttəfiq qazanmaq məqsədi ilə Əlincədən əl çəkmişdi (66, 47). Lakin çox keçmədən Qazi İmadəddinə qarşı üsyan qaldırıb, onu öldürən azərbaycanlıların xahişi ilə bu qala Qara Yusifin oğlu Mirzə İsgəndərə verilmiş (16, 124 - 126) və qaraqoyunlu hökmdarı dövlət torpaqlarını daha da genişləndirmək fikrini həyata keçirməyə başlamışdı. İndi onun qarşısında duran növbəti düşmən Qara Osman Bayandur idi.

Yeri gəlmişkən göstərmək lazımdır ki, qaraqoyunlu baharlu qəbilə birləşməsinin barani sülalənin Baharlı adıdır. Qaraqoyunlu qəbiləsinin bayanduri nəslindən idilər (114, 392). Bu iki tayfa arasındakı düşmənçilik Teymurun siyasi

fəaliyyəti zamanı daha bariz şəkildə özünü göstərmişdi: qaraqoyunlular onun əleyhdarı, ağqoyunlular isə müttəfiqi idilər. Bundan başqa, qaraqoyunlular arasında şiəlik, ağqoyunlularda isə sünnilik yayıldığından bu sahədə də onlar bir-birinə əks mövqedə dururdular (36, 167)

811 (1408/09)-ci ildə, nəhayət, Qara Osmana qalib gələn Qara Yusif (66, 59 - 60; 98, 119a) özünün növbəti qələbəsinə doğru can ataraq, bir dəstə döyüşçünü Şirvan və Şəkini zəbt etmək məqsədi ilə göndərmişdisə də (66, 60), onun bu planı baş tutmamışdı. Şirvanşah I İbrahim o vaxtlarda qaraqoyunluların qüvvətlənməsinin Şirvanı təhlükə altında alacağını bilir və cəlayirilərin tərəfində dururdu (66, 61; 36, 158; 30, 29). İ. P. Petruşevski və C. M. İbrahimov şirvanşahın cəlayirilərə tərəfdar olmasının səbəbini o zaman cəlayirilər dövlətinin çox "zəif olmasında" görmüşlər (36, 158; 30, 29). Ancaq məsələyə dərindən yanaşdıqda işin başqa bir cəhəti aydın olur. Məlumdur ki, o vaxt Azərbaycanın rəsmi hökmdarı Qara Yusif yox, Sultan Əhməd Cəlayiri idi. Digər tərəfdən hələ cəlayirilərə qalib gəlməyən Qara Yusif hələ elə bir şöhrətə malik deyildi və öz qüvvəsini lazımi qədər göstərə bilməmişdi. Belə olan halda I İbrahimin onun tərəfində yox, Sultan Əhmədin tərəfində durmasını təbii bir hal kimi qəbul etmək olar. Burası da məlumdur ki, istər cəlayirilər, istərsə də teymurilər Şirvanın müstəqilliyinə toxunmamış və o, şirvanşahlar tərəfindən idarə olunmuşdu. I İbrahim cəlayirilərin Şirvana qarşı tutduğu dinc mövqeyi açıq-aşkar görürdü. O həm də bilirdi ki, artıq bir dəfə Şirvanı tutmağa cəhd edən Qara Yusif (66, 60) qüvvətləndikdən sonra hökmən öz əvvəlki niyyətini həyata keçirməyə çalışacaq və müstəqil Şirvan, dövləti qaraqoyunlu təhlükəsi qarşısında qalacaqdır. Məhz buna görə də I İbrahim özünə müttəfiq qazanmaq naminə qaraqoyunluların deyil, cəlayirilərin tərəfində durmalı idi. Yox, əgər o qaraqoyunluların tərəfini saxlamış olsaydı, məlumdur ki, özünə Qara Yusifin şəxsində bir dost, cəlayirilərin və həmçinin Qara Yusiflə düşmənçilik münasibətində olan teymurilərin şəxsində iki düşmən qazanmış olacaqdı, çünki teymuri Şahruxla Şirvan dövləti arasında hələlik yaxşı münasibət vardı. Məhz bu səbəblərə görə I İbrahim cəlayirilərin tərəfini saxlayırdı. Əgər qaraqoyunlular tərəfindən Şirvana hücum edilərdisə, şirvanşah cəlayiri və teymurilərin köməyinə bel bağlaya bilərdi. Deməli, I İbrahimin Sultan Əhmədə tərəfdar olmasının səbəbini heç də cəlayirilərin zəifləməsində və Şirvana qarşı təhlükə təşkil etməməsində axtarmaq lazım deyil, şirvanşahın müdrik uzaqgörənliyində görmək lazımdır. Məhz bu uzaqgörənlik nəticəsində Şirvan döyüşçüləri Sultan Əhmədi müdafiə etməklə gələcəkdə Azərbaycanın cənub vilayətlərində qalıb möhkəmlənə bilərdilər (36, 158).

"Əhsənüt-təvarix" salnaməsindən aydın olur ki, qaraqoyunlu və cəlayirilər arasında olan zahiri dostluq 812 (1409/10)-ci ilə kimi davam etmişdir. Sultan Əhməd keçmiş əmiri olan Qara Yusifin (89, 414b) Təbrizdən çıxdığını bilən kimi "Bağdaddan Həmədana gəldi, oradan da çoxlu qantökən qoşunla Təbrizə yollandı" (66, 62 - 63). Qara Yusifin oğlu Şahməhəmməd ona müqavimət göstərə

bilməyərək, Xoya qaçandan sonra Sultan Əhməd "əzəmət və şövkətlə Təbriz dövlətxanasında əyləşdi" (66, 63; 26, 398). Bu hadisə 813 (1410/11)-cü ilin rəbiül-əvvəl ayında (iyul) baş vermişdi (134, 60).

Ancaq Sultan Əhmədin Təbrizi tutması xəbərini Ərzincanda eşidən Qara Yusif dərhal qayıtmış, onunla döyüşmüş və Sultan Əhməd əsir alınmışdı (66, 63 - 66; 36, 158 - 159).

Məlumdur ki, XIV əsrin ikinci yarısından sonra Azərbaycan cəlayiri feodal köçəri əyanlarının nümayəndələri tərəfindən idarə olunurdu (1358 - 1410). Əgər cəlayirilərə vurulan birinci zərbə, yəni Teymurun Azərbaycanı tutması və Sultan Əhmədin müvəqqəti olaraq taxt-tacdan kənar edilməsi cəlayirilər dövlətini bərk sarsıtmışdısa, Qara Yusif tərəfindən ona dəyən ikinci zərbə bu dövlətin süqutuna səbəb olmuşdu (30, 20). Məğlubiyyətdən sonra Qara Yusifin təkidi ilə cəlayiri hökmdarı Azərbaycan məmləkətlərinin Qara Yusifin oğlu Pirbudağa verilməsini yazılı surətdə təsdiq etmiş, sonra öldürülmüşdü (66, 67- 80, 52a; 98, 119; 59, 420b; 81, 234b).

Göstərmək lazımdır ki, Azərbaycan Qaraqoyunlu dövlətinin yaradıcısı olmasına baxmayaraq, Qara Yusif özünü yox, oğlu Pirbudağı yeni yaranan dövlətin qaraqoyunlu hökmdarı kimi tanıtmaq istəyirdi. Qara Yusifin bu hərəkəti bir tərəfdən oğluna qarşı onun qəlbində olan atalıq məhəbbətinin ifadəsi kimi qəbul oluna bilər, digər tərəfdən isə məlumdur ki, Sultan Əhməd və Qara Yusif hələ həbsxanada olduqları vaxt Pirbudaq doğulmuş və "Sultan Əhməd onu oğulluğa qəbul etmişdi" (66, 32; 98, 119; 81, 234a). Ehtimal ki, hələ buna görə də Qara Yusif özünün yox, oğlunun hökmdar kimi tanınmasını daha qanuni bir hal sanmışdı.

Əgər Qara Yusif hakimiyyətə çıxdığı ilk vaxtlarda "mənim padşah olmaq arzum yoxdur" (66, 37), "səltənət işləri bizə gərək deyil" (66, 42; 36, 160 - 161) deyirdisə, bunun səbəbi heç də o deyildir ki, qaraqoyunluların ilk hökmdarı şahlıq etməyi arzulamamışdır, bunun səbəbi qaraqoyunlu şahlığını onun öz adı ilə yox, övladının adı ilə qanuniləşdirmək istəyində olmuşdur. Heç də təsadüfi deyildir ki, Sultan Əhmədin Təbrizə hücumundan bir qədər əvvəl Qara Yusif Ərzincana hücum edərkən ərzincanlılar xütbəni onun yox, Pirbudağın adına oxumuşdular (114, 60). Lakin, məlumata görə, Pirbudaq çox yaşamamış, 816 (1413/14)-cı ilin şəban ayında (noyabr) ölmüşdü. Bu hadisədən bir ay sonra Qara Yusif xütbəni öz adına oxutdurub, qaraqoyunlu səltənət taxtına əyləşmişdi (114, 61).

Sultan Əhmədin məğlubiyyətindən sonra Qara Yusif 817 (1414/15)-ci ildə Gürcüstan valisi Konstantin və Şəki hakimi Şəmsəddin Əlinin oğlanları ilə ittifaqa girən Şirvanşah I İbrahim üzərinə böyük hərbi yürüş etdi (66, 82 -83; 98, 119). Kür sahilində baş verən döyüşdə Konstantin əsir alınaraq öldürüldü və I İbrahim zəncirlənərək Təbrizə gətirildi. Ancaq məlum olduğu kimi, o, qaraqoyunlu əsirliyində çox qalmamış, bir sıra nüfuzlu şəxslərin köməyi ilə azad edilmişdi (66, 85; 10, 26). Beləliklə də, I İbrahimin həmişə qorxduğu bir hadisə baş vermiş və

müstəqil Şirvan dövləti qaraqoyunlu hökmdarından asılı vəziyyətə düşmüşdü. Lakin bu asılılıq nominal xarakterdə olduğu üçün elə bir əhəmiyyət kəsb etmədi. Nəticədə şirvanşah Kür çayından cənubda olan torpaqlardan əl üzməli olmuşdusa da, şimaldakı torpaqlarda onun hakimiyyəti dəyişilməmiş qalırdı (36, 162; 5, 222; 30, 29).

O vaxtlarda Şahrux da başçılıq etdiyi Xorasan dövlətinin hüdudlarını qonşu ölkələr hesabına genişləndirməyə cəhd edirdi. Hələ atası Teymurun sağlığında onunla pis münasibətdə olan Qara Yusif indi də onun oğlu Şahruxla yola getmirdi. Buna görə də Şahrux 817 (1414/15)-ci ildə Azərbaycana yürüş etmək məqsədilə Heratdan çıxdı, lakin Xorasan dövləti daxilində üzə çıxan bəzi ixtilaflara görə onun Azərbaycana etmək istədiyi birinci yürüş baş tutmadı (64, 252a).

Qeyd etmək lazımdır ki, Şahrux kimi qüdrətli bir şahla yola getməməyin ona ancaq zərər verə biləcəyini yaxşı duyan Qara Yusif dövlətlərarası münasibətlərin yaxşılaşdırılmasından ötrü iki dəfə cəhd etmiş (64, 249a, 250b), hətta Sultaniyyə şəhərini dostcasına Xorasan hökmdarından xahiş etmişdi. Həsən bəy Rumlu yazır: "Bu xahiş müqabilində Xorasan şahı bildirdi ki, əgər Qara Yusif bir oğlunu girov kimi bizim yanımıza göndərərsə, Sultaniyyəni ona verə bilərik. Qara Yusif bu təklifə razı olmadı" (64, 249a, 250b). Çünki oğlunu Xorasan sarayına göndərməklə o, hökmən, Şahruxdan asılı vəziyyətə düşəcək və tam müstəqil hərəkət edə bilməyəcəkdi.

Həsən bəy Rumlunun məlumatından aydın olur ki, Şahrux Qara Yusifə etibar etmir, Qara Yusif də onun səmimiliyinə inanmırdı. Azərbaycan hökmdarına oğlunu girov göndərməsini tapşırmaqla qaraqoyunluların qüdrətinin get-gedə artmasından Şahruxun təşvişə düşdüyü, həyəcan keçirdiyi məlum olur.

O zamankı bir çox feodal əyanlar arasında olan dostluq və ittifaq yalnız siyasət məqsədi güdür, müvəqqəti xarakter daşıyırdı. Hakim, vali və əmirlərin çoxu tərəfdarı olduqları hökmdarın zəiflədiyini, yaxud ondan daha güclü bir feodalın hücuma keçdiyini bilən kimi öz əvvəlki müttəfiqlərinə xəyanət edirdilər. Bəstam Cagirlunun qardaşı əmir Məsum da belə hərəkət etdi. O, Şahruxun Şirazda olduğunu eşidib, onun hüzuruna gəlmiş və qaraqoyunlu qoşununun hərbi vəziyyəti haqqında Xorasan şahına bir sıra məlumat vermişdi (64, 250b).

Elə Qara Yusifin özü də Şahruxun hərbi qüdrətini öyrənmək məqsədi ilə casus yollayır və vaxtaşırı məlumat toplayırdı. 818 (1415/16)-ci ildə bir qaraqoyunlu casusu Xorasan döyüşçüləri tərəfindən tutulmuş (64, 250b) və Azərbaycanın hərbi vəziyyəti barədə Şahruxun məlumatı bir qədər də artmışdı. Lakin Qaraqoyunlu və Xorasan dövlətləri arasında hələlik dinc münasibət olduğu və elçi gediş-gəlişi davam etdiyi üçün (64, 246a, 251a) hələlik heç bir hərbi münaqişə baş vermirdi. 822 (1419/20)-ci ildə isə Şahrux Xorasandan çıxaraq "köç-köç Təbrizə tərəf, yollandı" (64, 246a).

Xorasan şahının Azərbaycana bu yürüşünün səbəbi onda idi ki, Qara Yusif əlindəki torpaqlarla kifayətlənmək istəmir, hətta Şahruxun hökmü altındakı bir sıra şəhərləri də öz əlinə keçirmək istəyirdi. Yuxarıda göstərildi ki, Qara Yusif Sultaniyyəni Şahruxdan istəmişdisə də, o, buna razı olmamışdı. Lakin Sultaniyyə çox keçmədən Qara Yusif tərəfindən tutulmuşdu (66, 113; 59, 407b; 36, 162; 114, 62). Həsən bəy Rumlu məlumat verir ki, artıq Həmədan, Tarom və Qəzvin də onun əlinə keçmişdi (66, 113).

Şahruxun qəfildən Azərbaycana hücum etməsinin səbəbini bildirən Həsən bəy Rumlu yazır: "Qara Yusifin yanına Təbrizə göndərilən elçi qayıdaraq (Şahruxa) bildirmişdi ki, Qara Yusif orada özünü müstəqil bir şah sayır, ətraf yerlərin bütun hakim və sərdarları ona tabedir. Padşahın (yəni Şahruxun - Ş. F.) şövkəti və qoşununun qələbələrindən qorxmayan Qara Yusifin çoxlu döyüşçü dəstələri vardır" (66, 110).

Doğrudan da, Qara Yusifin səyi və rəhbərliyi nəticəsində Azərbaycanda böyük ordu yaradılmışdı. Təsadüfi deyil ki, Şahruxun əmir və saray adamları "Azərbaycan qoşununun tüğyanını yalnız bahadırların həmləsi yatıra bilər" demişdilər (66, 110). Buna görə də Şahruxun əmri ilə Azərbaycana hərbi yürüş üçün az vaxtda böyük bir ordu toplandı (66, 110).

Xorasan qoşunu ilə döyüş ərəfəsində Qara Yusif tərəfindən orduda hərbi islahat keçirilmişdi. Həsən bəy Rumluya görə teymuri Şahruxun böyük ordusuna həlledici zərbə endirməyə hazırlaşan Qara Yusif ona qarşı miqdarca çox əsgəri qüvvə çıxarmaq məqsədilə piyada qoşun toplanılması üçün də əmr verdi. Beləliklə, Təbriz vilayətindən tarixdə ilk dəfə olaraq piyada qoşun dəstələri hazırlandı (66, 114).

Hücum 822 (1419)-ci ilin şəban ayının 4-də (avqustun 27-də) baş verdi. Mənbələrin bəzisində Şahrux ordusunun 200000 (64, 247b; 81, 234b), Qara Yusifin isə 120000 döyuşçüsünün (114, 62) bu müharibəyə gətirildiyi barədə məlumat vardır.

Ancaq birdən-birə "Qara Yusifin səltənət kökü dağılmağa başladı, onun bədən şəhristanını xəstəlik bürüdu" (66, 113). Belə ki, bir qədər bundan əvvəl qapaqoyunlular tərəfindən məğlub edilən Qara Osman Bayandur təzədən onunla döyüşərək Qara Yusifin göndərdiyi qoşuna qalib gəlmiş, indi də Şahrux hücuma keçmişdi. Bir oğlu İsfahan Mirzə Adilcavazda eyş-işrətə qurşanaraq atasına kömək yetirmək fikrində deyildi, o biri oğlu Şahməhəmməd isə ona qarşı əks mövqe tutaraq Bağdada müstəqil hökmranlıq edirdi, başqa övladı Cahanşah Sultaniyyədə yaşayırdı (66, 113). Beləliklə, Qara Yusifin illərdən bəri zəhmətlə yaratdığı səltənət dağılmaqda idi. Başqa bir tərəfdən də orta əsr feodalına xas olan qürur hissi onu geri çəkilməyə, zəbt etdiyi torpaqlarin bir qarışından belə əl çəkməyə qoymurdu. Hələ Şahrux hücuma keçməmişdən əvvəl Xorasan sarayına yaxın olan əmirlərdən biri Qara Yusifin yanına adam yollayıb, bildirmişdi ki, əgər o, "Sultaniyyə və Qəzvin torpaqlarından əl çəkərsə, Azərbaycanla ərəb İraqı Rum

(Türkiyə - Ş.F.) və Şam (Suriya - Ş.F.) sərhəddinə qədər onda qalar və Şahrux Herata qayıdar" (66, 114). Qürur hissinə qapılan qaraqoyunlu hökmdarı nəinki bu təkliflə razılaşmamış, hətta bunu deyən şəxsi həbs edərək qoşun toplamağa başlamışdı.

Həsən bəy Rumlunun yazdığına görə, döyüşçülərin miqdarını artırmaq məqsədi ilə Qara Yusif Təbriz vilayətində olan, hərbi cəhətcə hazırlıqsız və döyüş avadanlığına hələ bələd olmayan piyada qoşununu da çağırmış, xəstəliyinin şiddətlənməsinə baxmayaraq kəcavəyə əyləşib döyüşə yollanmışdı. Ancaq Uçan yaxınlığına çatarkən "əcəl bəyi də gəlib ona çatdı və o şahlıq taxtından çıxıb, tabut taxtasına girdi" (66, 114)

Qara Yusifin ölümü onun ordusunun tez vaxtda dağılmasına səbəb oldu (66, 116 - 117; 89, 416b; 81, 234a) ki, bu da qaraqoyunlu ordusunda möhkəm hərbi intizam və qayda-qanunun olmamasını nəzərə çatdıran bir faktdır.

Öz qüvvətli qonşusu və rəqibinin ölümünü eşidən Şahrux həmin ilin zilhiccə ayının 9-da (dekabrın 28-də) Qarabağa gedərək orada qışlamış, oğlu Baysunqur isə Təbrizi döyüşsüz ələ keçirmişdi (66, 117 - 118). Göstərmək lazımdır ki, Şahrux Qarabağda, olarkən Şirvanşah I Xəlilullah, Şəki hakimi Seydi Əli, Gürcüstan valisi Aleksandr dəfələrlə çoxlu hədiyyə gətirərək onun yanına gəlmişdilər (66, 123) ki, bununla da onlar özlərinin Xorasan dövlətindən asılı olduqlarını əyani şəkildə nəzərə çatdırırdılar.

Şahrux 823 (1420)-cü ilin rəbiül-əvvəl ayının 19-da (aprelin 5-də) Təbrizə gəldikdə Naxçıvan və Səlması idarə edən qaraqoyunlu şahzadələri Əbu Səid və İsfahan Mirzə də gələrək ona tabe olduqlarını bildirmişdilər (66, 124; 5-9, 414a).

"Əhsənüt-təvarix"dəki maraqlı məlumatlardan biri də Bərdədə olan teymuri əsgərlərinin yerli əhali tərəfindən qarət edilmələridir (66, 124) ki, bu da, heç şübhəsiz, yadellilərə qarşı xalqın qəlbindəki narazılıq və qəzəblə əlaqədar bir hal idi.

Qara Yusifin başqa oğlanları, xüsusilə İsgəndər Şahruxa tabe olmaq istəmirdi. Lakin Xorasan hökmdarı tezliklə onu da məğlub edərək Təbriz hökümətini qaraqoyunlulara düşmən olan Qara Osmanın oğlu Əli bəyə verdi (66, 133). Paytaxtın düşmən tayfa nümayəndəsinə verilməsi qaraqoyunlu və ağqoyunlular arasında olan vəziyyəti daha da gərginləşdirdi. Mirzə İsfahanın Təbrizə, onun üstünə hücum xəbərini eşidən Əli bəy Bayandur Diyarbəkrə qaçdı və Təbriz İsfahan Mirzənin əlinə keçdi. Lakin Həsən bəy Rumlunun məlumatına görə, qardaşı İsgəndərin Təbrizə hücumunu bilən İsfahan Mirzə şəhəri tərk etməyə məcbur olmuş və İsgəndər Azərbaycan taxtına əyləşmişdi (66,133 - 134).

Deməli, Təbriz bir neçə ayda teymuri Baysunqurun, bayanduri Əli bəyin, qaraqoyunlu İsfahan Mirzənin, sonra isə İsgəndərin əlinə keçmişdi. Dövlətşah Səmərqəndi bildirir ki, Şahrux Azərbaycanı öz övlad və əmirlərinə vermək istəyirdisə də, onlar İsgəndərin qorxusundan Azərbaycanda hakim olmaq istəmirdilər (73, 407).

Azərbaycan xalqı onu illərlə istismar edən teymurilərin zülmündən qurtarmağa çalışır, bunun üçün daim mübarizə aparırdı. Hələ XIV əsrin sonlarında Azərbaycan və bir sıra Şərq ölkələrində yadelli əsarətə qarşı yönəldilən dini-siyasi bir hərəkat - hürufilik yayılmağa başlamışdı. Məlum olduğu kimi, bu təlimin başçısı Azərbaycan mütəffəkkiri Fəzlullah Nəimi olmuşdur. Hürufilərin fikrincə, "ərəb əlifbasının hərfləri müqəddəs xarakter daşıyır və dünyanın sirlərini açmaq üçün bir vasitədir" (5, 219). Hürufilər təkcə fikir və əqidə cəhətincə yox, geyimlərinə görə də özlərini başqalarından fərqləndirməyə çalışırdılar. Həsən bəy Rumlu Fəzlullahı "kətan geyimli" hürufilərin başçısı adlandırır (66, 228b).

830 (1426/27)-cu ildə hürufi təriqəti nümayəndələrindən biri olan Əhməd Lur adlı şəxs tərəfindən Şahruxa sui-qəsd edilmiş və o, ağır yaralanmışdı. Həsən bəy Rumlu göstərir ki, bu hadisədən sonra hürufilərə amansız divan tutuldu (64, 228b; 89, 348a – 349a), bir çox hürufi əqidəli adam, o cümlədən Fəzlullah Nəiminin qız nəvəsi və Əhməd Lur ilə ittifaqda olan bəzi şəxslər öldürüldü, şair Şah Qasım Ənvar isə Heratdan çıxarıldı (64, 228a; 59, 419a).

831 (1427/28)-ci ildə Şahrux ikinci dəfə Azərbaycana hücum etdi (66, 195; 59, 419b). Bunun səbəbi İsgəndərin Sultaniyyə şəhərini mühasirəyə alması idi. Həsən bəy Rumlu bildirir ki, döyüş nəticəsində İsgəndər məğlub oldu (66, 198). Lakin bu məğlubiyyət də onu ruhdan salmamış, elə həmin il Şahrux tərəfindən Azərbaycan taxtının sahibi təyin edilən qardaşı Əbu Səidi öldürərək Azərbaycana yenidən sahiblənmişdi (66, 204; 81, 235a). Həsən bəy Rumlu xəbər verir ki, İsgəndər bir ildən sonra Şirvanı ələ keçirmək məqsədi ilə ora çoxlu qoşun göndərdi. Şirvanşah Xəlilullah ona müqavimət göstərə bilmədiyindən qaçdı və "həmin diyarda bir ildən çox əmin-amanlıq olmadı" (64, 226a).

Bu məlumatlardan sonra bizim müəllif bildirir ki, Şahruxun Azərbaycana hakim təyin etdiyi Əbu Səid öldürüldüyü və İsgəndər Şirvan yürüşündə olduğu üçün Təbriz vilayəti sahibsiz qalmış və bir dəstə qarətçi tərəfindən qarət edilmişdi (64, 226a) Bu sözləri mütaliə etdikcə Həsən bəy Rumlunun təəssüfünü duymamaq mümkün deyildir. Doğrudan da, o vaxtlarda Azərbaycanın möhkəm iradəli, mətin bir başçıya ehtiyacı vardı. Qara Yusifin ölümündən sonra isə ölkə əldən-ələ keçir, müxtəlif feodallar tərəfindən qarət edilir, var-yoxdan çıxarılırdı.

İsgəndərin döyüşçüləri də Şirvana girən kimi oranı dağıtmağa və talan etməyə başlamışdılar (66, 210). Qaraqoyunlularla bacarmayacağını başa düşən Xəlilullah dərhal Şahrux və Qara Osman Bayandurdan kömək istədi (66, 211). Atası İbrahimin yolu ilə gedən Xəlilullah, göründüyü kimi, qaraqoyunlulara qarşı onların öz düşmənlərinin köməyindən istifadə etməyi qərara almışdı. Həsən bəy Rumlu göstərir ki, şirvanşahın xahişi müqabilində Şahrux 838 (1434)-ci ilin rəbiüs-sani ayının 2-də (noyabrın 6-da) Azərbaycana üçüncü dəfə yürüş etmiş (66, 211 - 212) və şirvanşah da zilhiccə ayının 11-də (1435-ci il iyulun 9-da) Reydə dayanan Xorasan qoşunu ilə birləşmişdi. O vaxt Şahrux siyasət işlədərək İsgəndərə qarşı

onun öz qardaşı Cahanşahdan istifadə etməyi qərara aldı və Cahanşah da gəlib Reydə onlara qoşuldu (66, 213; 81, 235a).

V. F. Minorski yazır ki, Qara Yusif övladının arasına münaqişə salmayınca Azərbaycanı ələ keçirməyin mümkün olmayacağını bilən Şahrux hiyləgərlik edir, Azərbaycan səltənətini ayrı-ayrılıqda həm Cahanşaha, həm Qara Yusifin nəvəsi Şah Əliyə (Şah Məhəmmədin oğluna), həm də türkmən qoşun başçısı Əmir Bayazidə verəcəyini söyləyərək başqa sərdarları da belə vədlərlə aldadırdı (114, 64).

Xorasan və Şirvanın birləşmiş ordusuna davam gətirə bilməyən İsgəndər Şirvandan Ruma qaçmış (66, 213), orada "ağqoyunlu üsulunun başçısı" Qara Osmanla döyüşərək onu ölümcül yaralamışdı (66, 216; 98, 120a; 89, 416a).

"Əhsənüt-təvarix" əsərinə əsasən bilirik ki, Şahrux İsgəndərin məğlubiyyətindən sonra Azərbaycanı Cahanşaha verdi. Beləliklə də, Azərbaycanda qaraqoyunlu hakimiyyəti yenidən bərqərar oldu. Cahanşah o biri qardaşlardan bacarıqlı olduğundan uzun illər bu dövlətə başçılıq edib hakimiyyəti əlində saxlaya bilmişdi.

Göstərmək lazımdır ki, osmanlı Sultanı I Murad (1360-1389) ilə qaraqoyunlu əmirləri arasında yaxşı münasibət olmuşdur. İsgəndər isə "qürür və nadanlıq üzündən... Rum vilayətini dağıtmaq və camaata əzab-əziyyət verməklə məşğul idi" (66, 225). Məhz buna görə də qaraqoyunlu-osmanlı münasibətləri gərginləşməyə başladı. Tezliklə qarətdən əl çəkib, geri qayıdan İsgəndər Təbrizi yenidən ələ almağa müyəssər oldu (66, 228). Lakin Muğan valisi və Şirvan əmirləri ilə ittifaqa girən Cahanşahın hücumu nəticəsində Əlincə qalasına qaçan İsgəndərin elə orada da həyat yolu qırılmış, o, oğlu Şahqubad və arvadı Leylinin xəyanəti nəticəsində öldürülmüşdü (66, 229; 10, 46). Beləliklə də, Cahanşah müstəqil Azərbaycan hökmdarına çevrildi[36]

Cahanşah da öz sələfləri kimi istila siyasəti yeridirdi. O, 844 (1440/41)-cü ildə Gürcüstana hücum etmiş, qayıtdıqdan sonra Bağdadı vəfat edən qardaşı İsfahan Mirzənin oğlundan alıb öz oğlu Məhəmmədi Mirzəyə vermişdi (66, 243, 250).

850 (1447)-ci il zilhiccə ayının 25-də (martın 13-də) Xorasan hökmdarı Şahrux vəfat etdi (66, 262). Məlum olduğu kimi, Cahanşah ondan asılı idi və apardığı döyüşlərdə ona öz əsgəri qüvvələri ilə kömək edirdi (66, 213)[37]. Xorasan hökmdarının vəfatından sonra Cahanşah özünü müstəqil şah kimi aparmağa başladı (36, 166).

Bu elə bir vaxt idi ki, artıq ağqoyunlu tayfa birləşməsi də qüvvətlənmyə başlamışdı. Bunu hiss edən Cahanşah bir müddət onlarla münasibəti

---

[36] Məlumdur ki, İsgəndərdən sonra Qaraqoyunlu dövlətinin hökmdarı Cahanşah olmuşdur, lakin S.M. Onullahi səhvən "İsgəndər öldükdən sonra qızı Arayeş bəyim hökmdar olur" yazır (11, 43, 44)

[37] Cahanşahla Şahrux arasında qohumluq əlaqəsi də var idi. Şahruxun nəvəsi Sultan məhəmməd (Baysunqurun oğlu) onun qızına evlənmişdi (65, 279)

yaxşılaşdırmaq fikrinə də düşdü. Lakin onun bu fikri həyata keçməmiş qaraqoyunlu-ağqoyunlu münasibətləri yenidən kəskinləşmişdi.

Şahruxun yerinə Xorasan şahı olan Babur (1447-1456) Cahanşahın ona hücum etmək fikrində olduğunu başa düşən kimi Cahanşahı qabaqlamaq məqsədi ilə Azərbaycana yürüş etmək istəmiş (66, 332), sonradan bu fikirdən daşınmışdı. Çünki ona rəqib olan qohumu Sultan Əbu Səid elə həmin vaxt Orta Asiyadan gələrək Bəlx şəhərini tutmuş və Babur şah bu fitnəkarlığın qarşısını almağı Azərbaycana sahiblənməkdən üstün tutub geri qayıtmışdı (66, 333).

Baburun hakimiyyəti çox davam etmədi və o, 861 (1456)-cı ildə vəfat etdi. Həsən bəy Rumlu yazır ki, bu münasibətlə araya çox böyük qarışıqlıq düşdü (66, 366 - 367). Cahanşah bu hadisədən istifadə edərək 862 (1457/58)-ci ildə Xorasan taxtını ələ keçirməyə müvəffəq oldu (66, 389). Lakin teymuri Sultan Əbu Səidin ona hücumu (66, 391) və oğlu Həsənəlinin Maku həbsxanasından çıxıb Təbrizi ələ keçirməsi (66, 401 - 402) Cahanşahın yarım illik Xorasan hakimiyyətindən Azərbaycana qayıtmasına səbəb oldu (66 402; 81, 235b)

Beləliklə də, 862 (1457/58)-ci ildə Sultan Əbu Səidlə Cahanşah arasında sülh müqaviləsi bağlandı ki, həmin müqaviləyə görə Böyük İran səhrası (Dəşt-i kəbir) onların dövlət sərhədi təyin edildi (40, 236).

Atasının hücumla gəldiyini eşidən Həsənəli onun əmirləri ilə qarşılaşmadan qüvvə toplamaqdan ötrü Makuya tərəf getdi (66, 402; 56, 360). Həsən bəy Rumlu yazır ki, Cahanşah Təbrizə gəldikdən sonra Həsənəliyə kömək edənləri amansızcasına cəzalandırmışdı (66, 403). Elə o vaxtlarda Cahanşahın digər oğlu Pirbudaq da atasına qarşı düşmən mövqe tutmağa başladı (66, 404, 429).

Göstərməliyik ki, qaraqoyunlularda olduğu kimi ağqoyunlular arasında da daxili çəkişmə və mübarizə davam etməkdə idi. Bu vəziyyət ən nəhayət Uzun Həsənin xeyrinə həll edildi. 860 (1455/56)-cı ildə o Diyarbəkr hakimi olan qardaşı Cahangirin şəhərdən çıxdığını bilərək Amid şəhərini tutmuş və taxta əyləşmişdi (66, 355 – 356)

862 (1458)-ci ilin əvvəllərində Uzun Həsən Gürcüstana hücum etdi (64, 188b) ki, bununla da ağqoyunluların artıq Cahanşahın hökmü altındakı yerlərə də əl uzatmağa başladıqları aydın olur.

XV əsrin ortalarına yaxın ərəb İraqı və Xuzistanda qatı şiələr olan müşəşə ərəb qəbilələri qaraqoyunlu hökmdarlarını qorxuya salmışdı. Başqa bir yandan Ərdəbilin Səfəvi şeyxləri də şiəliyi təbliğ edirdilər. Cüneyd Səfəvinin sünnilərə mənfi təsirinin artmasından qorxuya düşən Cahanşah 864 (1459/60)-cü ildə onun Ərdəbildən çıxarılması əmrini verdi (52, 70). Cahanşahın hökmü altında olan torpaqlardan Cüneydin çıxarılmasının başqa bir səbəbi də bu səfəvi şeyxinin qaraqoyunluların tabeliyində olan erməni və gürcülərlə mübarizə etməsində idi; onlar bu mübarizə zamanı qarətkarlıq edir və müsəlman olmayan əhalini qul halına salırdılar ki, bu da Cahanşahın maddi marağının əksinə olan bir hal idi (66, 407; 33, 78).

Həsən bəy Rumlu bildirir ki, Cüneyd Diyarbəkrə gələndən sonra Cahanşahla düşmənçilik edən Uzun Həsən ona məktub yazaraq, "öz məhəbbət və etimadını bildirmişdi". Cüneyd dörd il orada qaldıqdan sonra yenidən Ərdəbilə qayıdıb çoxlu süvari toplamış və Şirvana hücum etmişdi (66, 407 – 409; 52, 71). Məlum olduğu kimi onun bu hərbi yürüşü uğursuz olmuş və o, cəmadül-əvvəl ayının 10-da (3 mart 1460-cı il) Şirvanşah I Xəlilüllah ilə olan döyüşdə öldürülmüşdü (66, 409; 60, 442a; 10, 74; 52, 72).

Cahanşah başqa ölkə başçıları və iri feodallarla olan əlaqələrini pisləşdirmək istəmirdi. O, Sultan Əbu Səidlə dost olmasa da nifaq mövqeyində də durmurdu. Onun 864 (1459/60) və 869 (1464/65)-cu illərdə Herata göndərdiyi elçilər Xorasan hökmdarı tərəfindən qarşılıqlı hörmət görüb geri qayıtmışdılar (66, 412, 439).

Orta əsr feodal şüuru ata-oğul, qohum-qardaş münasibətlərini kəskinləşdirdiyi üçün şahzadələr atalarına, yaxud bir-birlərinə qarşı çox vaxt mübarizə aparır, nə yolla olur-olsun böyük hakimiyyətə doğru can atırdılar. Yuxarıda göstərildiyi kimi Cahanşahın oğlanları Həsənəli və Pirbudaq da hakimiyyət uğrunda çalışır, bu məqsədə yetmək naminə müxtəlif yollara əl atırdılar. Hətta Həsənəli 868 (1463/64)-ci ildə Uzun Həsənin yanına getmiş, orada bir neçə gün qaldıqdan sonra qayıdıb Bağdad hakimi olan qardaşı Pirbudağın yanına gəlmişdi (66, 431 - 432). O vaxta qədər aralarında yaxınlıq və səmimiyyət hiss olunmayan qardaşlar hakimiyyəti ələ keçirmək məqsədi güddüklərindən yəqin ki, bir-birinin köməyinə ehtiyac hiss edirdilər.

Qardaşların sazişi və onların Uzun Həsənlə münasibətləri barədə yeni sözlər eşidən Cahanşah hələ 868 (1463/64)-ci ildə hücum edib onlarla birdəfəlik hesablaşmaq qərarına gəlmişdi (66, 429 - 430).

Qeyd etmək lazımdır ki, apardıqları mübarizədə kömək əldə etmək üçün Həsənəli ağqoyunlulara, Pirbudaq teymurilərə meyl edirdi. Həsən bəy Rumlu bildirir ki, 871 (1466/67)-ci ildə Sultan Əbu Səid Pirbudağa bir məktub yollamışdı (64, 175b). Həmin məktubun məzmunu barədə "Əhsənüt-təvarix" əsərində məlumat verilmirsə də ehtimal ki, həmin yazışma Cahanşah əleyhinə olmuşdur.

Bu hadisələrdən xəbərdar olan Cahanşah 871 (1466/67)-ci ildə Bağdadı aylarla mühasirə etdikdən sonra oğlu Pirbudağı öldürməyə müvəffəq oldu (64, 175b; 80 314a; 56, 373).

Cahanşah Pirbudaqla vuruşan vaxtlarda ağqoyunlular Uzun Həsənin başçılığı ilə ətraf vilayətlərə qarətçi yürüşlər təşkil edirdilər. Belə ki, 871 (1466/67)-ci ildə Gürcüstanı yenidən talan edən Uzun Həsən bununla kifayətlənməyərək Ərzruma da döyüşçü dəstələri yollamış, Qarahasarı alıb oğlu Uğurlu Məhəmmədə vermişdi (66, 446 - 447).

Ağqoyunluların dövlət hüdudlarının get-gedə genişləndiyini görən Cahanşahın səbri tükənir və Uzun Həsənlə vuruşmaq barədə düşünürdü. Nəhayət 872 (1467)-ci ildə şəvval ayının 10-da (mayın 4-də) çoxlu döyüşçü ilə Təbrizdən

çıxan Cahanşah Diyarbəkrə tərəf yürüş bayrağı qaldırdı (66, 452; 81, 235b). Lakin əmir və dövlət başçılarının məsləhəti ilə bu hərbi yürüşünü sonraya saxlamağı qət edən Azərbaycan hökmdarı qoşunun çox hissəsini geri qaytarmış, özü isə bir neçə yaxın adamı ilə Səncəqdə eyş-işrət etdiyi vaxt Uzun Həsənin qəfil hücumuna məruz qalmış, nəticədə öldürülmüşdü (66, 457 – 460; 89, 417a 36, 168). Bu hadisə 4 oktyabr 1467-ci ildə olmuşdur (115, 276). Beləliklə də, Azərbaycan qaraqoyunlu dövlətinə uzun illər başçılıq edən Cahanşahın hakimiyyəti qurtardı və Dövlətşah Səmərqəndinin təbirincə desək "tərəkəmə dövlətinin hakimiyyəti bitdi" (73, 474).

Həsən bəy Rumlu göstərir ki, Cahanşahın ölümündən hətta ad-sansız döyüşçülər də istifadə etməyə başladılar. Sarvanqulu adlı bir əsgər dərhal Təbrizə girib oranı zəbt etdi. O vaxtlarda Cahanşah tərəfindən həbsdə saxlanılan Arayeş və Şahpəri bəyim (İsgəndərin qızları) həbsxanadan çıxıb Sarvanqulunu həbs etdilər. "Arayeş bəyim qadın bəzəklərini döyüş silahları ilə əvəz edərək, səltənət taxtına əyləşdi" (66, 462). Lakin onun Sultan Əbu Səiddən qorxduğu dərhal hiss olunurdu. Belə ki, Arayeş bəyim qardaşı Həmzə bəyi paytaxta gətirdərək xütbəni onun və Sultan Əbu Səidin adına oxutmuşdu. Cahanşahın Xoy şəhərində olan hərəm və qızları Təbrizə döyüşçü dəstələri yollayaraq tezliklə hər iki bacını həbs etdilərsə də, şəhərdə çox qala biləcəklərinə ümid etmədiklərindən qarətlə kifayətlənib Təbrizdən çıxdılar (66, 463; 56, 434 - 436).

Vaxtilə atasına qarşı üsyan etdiyinə görə üç dəfə həbs edilmiş Həsənəli Cahanşahın öldürülmsindən sonra qoşun toplamağa başladı. Lakin tezliklə Uzun Həsən tərəfindən əzilən bu şahzadə (66, 467 - 470) əvvəlcə Bərdəyə qaçmış, oradan da artıq hücumla Ərdəbilə gəlib çatan Sultan Əbu Səidə pənah gətirmişdi (66 470; 81, 236a)

Cahanşahın öldürülməsi ilə araya düşən qarışıqlıqdan istifadə edən Uzun Həsən dərhal böyük oğlu Sultan Xəlili Təbrizə yollamış, beləliklə də, Azərbaycan taxtına sahiblənmişdi (66, 470). Ancaq elə o vaxt da Sultan Əbu Səidin Azərbaycana hücumu baş verdi və Uzun Həsən oğluna Təbrizdən çıxmağı əmr etdi (66, 470).

Sultan Əbu Səidin Azərbaycana hücumunun səbəbi onun Qərbi İranı və Azərbaycanın cənub hissəsini öz dövləti tərkibinə daxil etmək və beləliklə də, tabeliyində olan vilayətlərin sayını daha da artırmaq istəyi idi (40, 237).

Həsən bəy Rumlunun göstərdiyinə görə, teymuri döyüşçüləri Təbrizə yaxınlaşan vaxt yerli camaat onlara qarşı üsyana qalxmışdı (66, 471). Bu məlumatdan bir daha aydın olur ki, Azərbaycan xalqı yadelli işğalçılar əleyhinə çıxaraq öz azadlığı uğrunda mübarizə edirdi.

Cığatay qoşununun cəbbəxanası Sultan Əbu Səidin əmrinə əsasən döyüş üçün ordunun arxasınca gətirildiyi vaxt Uzun Həsən siyasətlə bu cəbbəxananı ələ keçirmiş və müharibədə həmin hərbi əməliyyatın ağqoyunlulara böyük köməyi dəymişdi (66, 480; 80, 32; 56 48). Uzun Həsənlə təkbaşına bacara bilməyəcəyini hiss edən Əbu Səid Şirvanşah Fərrux Yasarın yanına adam yollayıb onun

köməyindən istifadə etmək məqsədi ilə qızını ona verməsini xahiş etmişdi. Sultan Əbu Səid eyni zamanda Şəki valisi Əbdül Qafarın da yanına adam yollayaraq onunla dostluq arzusunda olduğunu bildirmişdi (66, 481). Bu təkliflərlə əvvəlcə razılaşan Şirvanşah və vali cığatay ordusuna taxıl göndərmələrinə baxmayaraq sonradan Fərrux Yasar fikrini dəyişmiş, Uzun Həsənə elçi yollayıb onunla ittifaqa girmişdi (66, 483; 10, 48).

Əlli ildən artıq bir vaxtda teymurilər siyasətinin şirvanşahlar tərəfindən müdafiə edilməsi bu iki dövlət arasında formal dostluq yaratmışdı. Ancaq Fərrux Yasar tərəfindən teymuri dövləti ilə əlaqənin birdən-birə kəsilməsi təəccüb doğurmaya bilməz. İ. P. Petruşevski mənbələrin məlumatına əsasən yazır ki, Uzun Həsən o zaman şirvanşahın yanına elçi göndərib ona kömək edəcəyi təqdirdə Şirvana sülh və təhlükəsizlik vədi vermişdi (36, 170). Doğrudan da belə bir vəd edilə bilərdi, lakin bu vəd yalnız Uzun Həsən qalib gələn halda özünü doğrulda bilərdi. Bəs məğlub olardısa necə? Fərz etmək olar ki, Fərrux Yasar tərəfindən belə bir addımın atılmasının səbəbi Sultan Əbu Səidin vəziyyətinin pisləşməsi, Uzun Həsənin son vaxtlardakı qalibiyyətli döyüşləri və şirvanşahın bütün bunlardan faydalı ola biləcək nəticə çıxarmasında olmuşdur. Hadisələrə ara-sıra öz fikrini də bildirməyə çalışan Həsən bəy Rumlu yazır ki, əgər Sultan Əbu Səidlə Fərrux Yasar arasında ixtilaf yaranmasaydı, Uzun Həsən qalib gələ bilməzdi (65, 55).

Sultan Əbu Səidin vəziyyətinin çıxılmaz olduğunu artıq onun döyüşçüləri də duymuşdular. Ağqoyunlu əsgərləri cığatay ordusuna çatar-çatmaz, Xorasan əmirlərinin böyük hissəsi öz hökmdarlarından dönərək onlara qoşuldular. Vəziyyətdən başqa bir çıxış yolu tapmayan Sultan Əbu Səid qaçarkən tutulmuş, gecə yarısı Uzun Həsənin hüzuruna gətirilmiş və öldürülmüşdü (66, 485 – 488; 67, 217a).

Qeyd edilməlidir ki, Sultan Əbu Səidin məğlubiyyətinin bir neçə səbəbi olmuşdur: ağqoyunlu qoşununun sayı və hərbi vəziyyəti haqqında ətraflı məlumatın olmaması, şirvanşahın gözlənilməz dönüklüyü və bununla da ərzağın dəniz yolu ilə teymuri döyüşçülərinə çatdırıla bilməməsi, cəbbəxananın ağqoyunluların əlinə keçməsi, sultanın əmir və döyüşçülərinin xəyanəti əsas səbəblərdəndir. Əbu Səid Azərbaycanda olarkən onun qohumu Sultan Hüseyn Bayqara (hakimiyyət illəri: 1469 - 1506) Herat taxtını ələ keçirmiş və öz adına xütbə oxutmuşdu (66, 491 - 493).

Həsən bəy Rumlu göstərir ki, qaraqoyunlular arasında nifaq hələ də davam etməkdə idi. Öz qəddarlığı ilə məşhur olan şahzadə Mirzə Əbil Qasım 873 (1468/69)-cü ildə qardaşı Həsənəlinin əmri ilə öldürülmüşdü (66, 490). Az sonra Həsənəlinin özü də Uğurlu Məhəmmədlə olan döyüş zamanı həlak olmuş (66, 505 – 507; 81, 236a)[38] kiçik qardaşı Əbu Yusif Mirzə də qətl edilmişdi (66,490).

[38] Mir Yəhya Qəzvini Həsənəlinin Uğurlu Məhəmməd tərəfindən əsir alınıb özü-özünü öldürdüyünü yzır ki, başqa mənbələrdə bu fakta təsadüf etmədik. (Bax: 98, 123a).

Beləliklə, Azərbaycan tarixində 58 illik bir iz qoymuş olan qaraqoyunlu dövləti süquta uğradı və onu tərkibində ərəb İraqı, Azərbaycanın cənubu Azərbaycanın şimalının bir hisssi (Kür çayına qədər), həmçinin bütün Qərbi İran (əcəm İraqı, Xuzistan, Fars və Kirman) olan Ağqoyunlu dövləti əvəz etdi (25 6).

Həsən bəy Rumlu göstərir ki, Uzun Həsən 875 (1470/71)-ci ili Savucbulaq, Qəzvin və Səhənddə keçirəndən sonra 876 (1471)-cı ilin məhərrəm ayının əvvəllərində (iyun-iyul) Təbrizə gəldi (66, 519 - 520). Bir ay sonra əmirlərindən Mahmud bəyi, Süleyman bəy Pornakı və Bayandur bəyi iki min süvari ilə "Tiflis və Ərmən diyarına" yolladı ki, oraları tutduqdan sonra Rum ölkəsinə hücum edilsin (66, 521).

Uzun Həsən hələ Azərbaycan və İraqa yiyələnməmişdən əvvəl osmanlıların da bu ölkələrə hücum edəcəyi təhlükəsini duymuşdu, çünki XV əsrin ortalarından başlayaraq türklər fəallaşmağa doğru üz qoymuşdular. I Sultan Məhəmmədin (hakimiyyət illəri: 1451 - 1481) dövlət sərhədi artıq ağqoyunluların sərhədinə qədər uzanırdı ki, bu da Uzun Həsəni narahat etməyə bilməzdi (25, 13). Bundan əlavə, türk sultanı şərq istiqamətincə də təcavüzə başlamışdı. Hələ 1461-ci ildə ağqoyunluların Qara dənizə yeganə çıxış yolu olan Trabzon osmanlılar tərəfindən tutulmuş və bu imperiya süqut etmişdi. Məlum olduğu kimi, Uzun Həsən Trabzon hökmdarının yaxın qohumu idi (36, 172). Buna görə də, II Sultan Məhəmmədin nəhayət Zaqafqaziya və İrana da hücum edəcəyini duyan Uzun Həsən "gec-tez sultan Türkiyəsi ilə toqquşacağını yaxşı bilirdi" (8, 23). Odur ki, o, döyüşə hazırlaşır və rəqibini qabaqlamaqdan ötrü bir fürsət gözləyirdi.

Keçmişdə qaraqoyunluların əllərində olan yerlərə bütünlüklə yiyələnən Uzun Həsən Suriyanı da almaq fikrinə düşdü (66, 523). Ancaq tezliklə bu fikrini dəyişən ağqoyunlu hökmdarı Türkiyənin əlində olan Qaraman ölkəsinə qoşun göndərməyə başladı, çünki II Sultan Məhəmmədin yaxın qohumu və Qaramanın hakimi İbrahim bəyin oğlanları Pirəhməd bəy və Qasım bəy sultanın hücumuna məruz qaldıqlarından Uzun Həsəndən kömək istəmişdilər (66, 524; 8, 37). Belə bir bəhanə gözləyən ağqoyunlu hökmdarı Türkiyə istiqamətinə dərhal qoşun yollamış və beləliklə də, ağqoyunlu-osmanlı müharibəsi başlanmışdı (66, 524). Hadisələrin gedişini araşdırıb osmanlıların qalib gəldiyi bu müharibədə ağqoyunluların məğlubiyyətini iki mərhələyə ayırmaq olar ki, onların hər biri ayrı-ayrılıqda şərh ediləcəkdir.

Məlumdur ki, ağqoyunluların osmanlılara etdikləri ilk hücum Toqat şəhərinin dağıdılmasından sonra dayandırılmışdı (66, 524). Az fasilədən sonra Uzun Həsən qardaşı oğlu Yusif bəyin başçılığı ilə Ruma 20 minlik qoşun göndərdi. Türk şahzadəsi Sultan Mustafa ilə olan döyüşdə ağqoyunlu qoşununun yarısı qırılmışdı ki, bu məğlubiyyəti ağqoyunlu məğlubiyyətinin ilk mərhələsi kimi qələmə vermək olar.

Birinci məğlubiyyətdən özü üçün nəticə çıxaran Uzun Həsən daha osmanlılarla müharibə etməkdən çəkinərək hücumun istiqamətini nisbətən zəif bir dövlətə doğru yönəltdi və 876 (1471/72)-cı ildə əvvəllər də ələ keçirmək istədiyi "Şam diyarına" (Suriyaya) hücum etdi. Ancaq qələbəyə böyük ümidi olan Uzun Həsən orada da Misir sultanı Qayıtbayın göndərdiyi qoşun tərəfindən məğlub edildi. (66, 526).

877 (1472/73)-ci ildə isə osmanlıların təşəbbüsü ilə ağqoyunlu-osmanlı müharibəsi yenidən başlandı. Döyüşün ilk günündə üstünlüyü ələ alan Uzun Həsən Uğurlu Məhəmmədin "osmanlılar üzərinə dərhal hücum etmək lazımdır" sözlərinə əhəmiyyət vermədiyindən hücumu təxirə salmış və bunun nəticəsində güclü osmanlı qoşunu tərəfindən məğlubiyyətə uğramışdı (66, 532; 98, 124a). Bu, ağqoyunlu döyüşçülərinin osmanlı qoşununa məğlub olmalarının ikinci və son mərhələsi idi.

Göstərmək lazımdır ki, II Sultan Məhəmmədlə etdiyi müharibədən əvvəl Uzun Həsənin təşəbbüsü ilə osmanlılar əleyhinə bir ittifaq yaradılmışdı. Həmin ittifaqa ağqoyunlu dövləti, Roma papalığı, Neapol krallığı, Venetsiya, Macarıstan, Polşa, Burqun hersoğluğu, Kipr krallığı və Kiçik Asiyanın yuxarıda adı çəkilən Qaraman knyazlığı cəlb olunmuşdu (36, 173; 25, 13; 5, 7 - 8). Lakin osmanlılarla olan müharibədə müttəfiqlərin ağqoyunlulara köməyi dəyməmişdi (36, 173).

Ağqoyunlu məğlubiyyətindən sonra Uğurlu Məhəmməd dövlətdə mərkəzləşdirmə ənənəsini həyata keçirən atasına qarşı düşmən mövqe tutmuş, qardaşı Maqsud bəy də onunla əlbir olmuşdu (66, 545). Bu münasibət məlum olandan sonra qardaşı Sultan Xəlilin təqibinə məruz qalan Uğurlu Məhəmməd Türkiyəyə getmiş (66, 545 - 546), sultanın kürəkəni olmuş, sonradan Ərzincanda analığı Səlcuqşah xanımın sui-qəsdi nəticəsində öldürülmüşdü (66, 545 - 546)[39]

Həsən bəy Rumlu yazır ki, Uğurlu Məhəmmədin ölümündən bir neçə gün sonra 882-ci ilin fitrə bayramı axşamı (5 yanvar 1478-ci il) Uzun Həsən də vəfat etdi (66, 567, 98; 124a) onun ölümü ilə əlaqədar olaraq dövlət daxilində bir-birinə əks olan qüvvələrin qruplaşması başlandı, lakin əmir və dövlət başçılarının fəal köməyi sayəsində səltənət taxtına böyük oğlu Sultan Xəlil çıxdı (66, 569 – 583; 98, 124a; 61, 272a; 92, 235). O Diyarbəkri qardaşı Yaquba verib, həbsdə olan digər qardaşı Maqsud bəyi qətl etdikdən sonra[40] Türkiyə ilə münasibətləri yaxşılaşdırmaq məqsədi ilə oraya elçi heyəti göndərmişdi (66, 568 - 569).

Göstərmək lazımdır ki, bayanduri xanədanının bir sıra üzvləri onun hakimiyyəti ilə razılaşmaq istəmirdilər. Ona qarşı əmisi oğlanları Murad bəy və İbrahim bəyin üsyanları baş vermiş və onların hər ikisi qətl edilmişdi (66, 569 -

[39] Y. Mahmudovun əsərində Uğurlu Məhəmmədin atası tərəfindən öldürüldüyü bildirilir. (Bax: 5,91). Lakin farsdilli mənbələr bu fikri təsdiq etmir. (Bax: 66, 566; 81, 238a).

[40] Bir müddət ağqoyunlu sarayında səfir olan Ambroco Kontarini Maqsud bəyin Uzun Həsənin əmri ilə öldürüldüyünü bildirir. (Bax: 75, 300). Lakin farsdilli mənbələr bu fikri təsdiq etmir. (Bax: 66, 568; 98, 124a; 81, 238a).

571). Bir neçə ay sonra qardaşı Yaqub bəy Diyarbəkr əmirləri ilə Təbrizə hücum edərək (66; 573 - 574) Sultan Xəlili məğlub etdi və onu öldürüb taxta əyləşdi (66, 580; 75, 300).

Beləliklə İ.P. Petruşevskinin dediyi kimi Uzun Həsənin vəfatından sonra ağqoyunlu dövlətinin daxili zəifliyi dərhal üzə çıxdı. Bayanduri sülaləsinin müxtəlif şahzadələrini səltənət taxtına çıxarmaq və onların adından dövləti öz mənafelərinə uyğun şəkildə idarə etmək üçün qrupların mübarizəsi başlandı (36, 175). Məlum olduğu kimi, Uzun Həsənin varislərindən yalnız ikisinin - Yaqubun və Rüstəmin hakimiyyəti nisbətən uzun çəkmiş, başqaları isə hərbi-köçəri əyanların toqquşmaları zamanı məhv olmuşlar.

"Əhsənüt-təvarix" əsərində Sultan Yaquba himayəçilik etmiş və onun tərəfindən irəli çəkilmiş üç görkəmli sərkərdə ilə tanış oluruq. Onlar bayanduri qəbiləsindən olan Bayandur bəy, mosullu tayfasının üzvü Sufi Xəlil və sonralar səfəvi Heydərə qarşı döyüşmək üçün Fərrux Yasara kömək məqsədi ilə Şirvana göndərilən Süleyman bəy Bicənoğlu idilər. Sonrakı hadisələrin təsviri ilə əlaqədar olaraq bu sərkərdələrin öz mənafeləri uğrunda necə mübarizə apardıqlarından bəhs ediləcəkdir.

Həsən bəy Rumlu göstərir ki, əvvəllər Sultan Yaquba sədaqətlə xidmət edən Bayandur bəyin xəyalından şah olmaq keçirmiş, lakin Sultan Yaqub onu götürməyə nail oldu (66, 597 - 601).

Məlumdur ki, Ərdəbil səfəvi şeyxləri tərəfindən idarə olunurdu. Atası Cüneydin öldürülməsindən sonra Ərdəbildə yaşayan Sultan Heydər 889 (1484/85)-cu ildə Dağıstana hücum etmiş, oradan zəfərlə qayıdaraq Şirvana qarşı döyüş hazırlığına başlamışdı [66, 611 - 612]. Çünki atasını öldürən "Xəlilullah yurdundan" intiqam almaq arzusu ona rahatlıq vermirdi. Bu hazırlıq üç il çəkdi. Nəhayət o, Şirvanla döyüş ərəfəsində hərbi qənimət əldə etmək məqsədi ilə yenidən Dağıstana hücum etdi [66, 614 -615]. 893 (1487/88)-cü ildə isə Heydərin Şirvana yürüşü başlandı [66, 615; 98, 125a]. Mahmudabadda xalq ona müqavimət göstərdiyi üçün "qəhr qəhrəmanı o şəhər xalqının qətlinə fərman vermişdi". Həsən bəy Rumlu yazır ki, "az bir vaxtda qan arxı Ceyhun (çayı) kimi axdı" [66, 616].

Lakin Yaqub şahın Fərrux Yasara yaxından hərbi yardım göstərməsinə görə səfəvi qoşunu məğlub olmuş, Heydər isə öldürülmüşdü [66, 616 – 618; 60, 442a; 10, 75; 52, 76]. Beləliklə müstəqil dövlət yaratmaq uğrunda hələ XV əsrin ortalarında başlayan mübarizə müvəffəqiyyətsizliyə uğradı. Bu müddət ərzində səfəvilərin böyük hakimiyyətə can atmaları qaraqoyunlu və ağqoyunlu hakimləri tərəfindən müqavimətlə qarşılanmışdı [52, 77].

Həsən bəy Rumlu yazır ki, Sultan Heydərin ölümündən sonra Ərdəbil sufiləri onun böyük oğlu Sultanəlini hakimiyyətə çıxardılar, lakin qızılbaşların nüfuzunun get-gedə artdığını görən Yaqub şah səfəvi qardaşları Sultanəli, İsmayıl və İbrahimi anaları Aləmşah bəyimlə birlikdə Ərdəbildən çıxarıb həbs etdi [66, 618 – 619; 98, 125a; 52, 80].

894 (1488/89)-cü ildə şirvanşahla Yaqub şah arasında olan dostluq çox möhkəmlənmişdi [66, 624]. Görünür ki, bu dostluğun səbəbi onların arasındakı qohumluqdan əlavə ağqoyunlu padşahının Sultan Heydərə qarşı şirvanşaha göstərmiş olduğu köməklə daha çox əlaqədardır. Ümumiyyətlə, Yaqub atasının əksinə hərəkət edərək səfəvilərə qarşı düşmən münasibətdə olmuşdur ki, bu, Ərdəbil şeyxlərinin getdikcə artmaqda olan nüfuzunun onda təşviş hissi doğurması ilə izah edilə bilər.

896 (1490)-cı ildə 12 il hakimiyyət sürən Yaqub şah zəhərlənib öldürüldü. Bu ölümün səbəbini Həsən bəy Rumlu belə izah edir: Yaqubun anası Səlcuqşah bəyim ögey oğlu Məsih Mirzəni zəhərləmək istərkən, təsadüfən həmin zəhəri Yaqub və qardaşı Yusif bəy yemiş, işi belə görən ana da özünü zəhərləmişdi [66, 626 - 627][41].

Ağqoyunlu şahının vəfatından sonra əmirlər onun azyaşlı oğlu Baysunqur Mirzəni (hakimiyyət illəri: 1490 - 1492) taxta çıxardılar [66, 628; 52, 80]. Onun şah olmasında sərkərdə Sufi Xəlilin böyük xidməti olmuşdur. Buna görə də Baysunqur bütün dövlət işlərinin idarə olunmasını ona tapşırmışdı [66, 628 - 632; 61, 274a; 92, 238].

Ancaq Uzun Həsənin vəfatından sonra başlanmış olan saray çəkişmələri Sultan Yaqubun ölümündən sonra da davam etdi: bayandurilər İraqda Uzun Həsənin oğlu Məsih Mirzəni şah elan etdilər [66, 629; 81, 239a]. Pornak tayfası Həmədanda Uğurlu Məhəmmədin oğlu Mahmud bəyi taxta çıxarmaq istədi. Əmirlərin şah etmək istədiyi üçüncü şəxs Uzun Həsənin nəvəsi Rüstəm bəy (Maqsud bəyin oğlu) idi [66, 629 - 630].

Məsih Mirzə qardaşı oğlu Baysunqurla olan döyüş zamanı Sufi Xəlil tərəfindən öldürüldü və bundan sonra bayandurilərə divan tutulmağa başladı: Rüstəm bəy həbs edilib, Əlincə qalasına salındı, Mahmud bəy isə qaçmaqla canını qurtara bildi [66, 629 - 630], lakin tezliklə ələ keçirilib öldürüldü. [66, 630].

Həsən bəy Rumlunun göstərdiyinə görə Sufi Xəlil öz rəqibi Süleyman bəy Bicənoğlu tərəfindən öldürüləndən sonra gənc ağqoyunlu şahının bütün dövlət işlərini indi də bu sərkərdə idarə etməyə başlamışdı [66, 632].

Həmin dövrdə Baysunqur Mirzəyə qarşı Uzun Həsənin əmisi Dana Xəlilin oğlu Eybə Sultanın mübarizəsi başlanmışdı. Buna səbəb hakimiyyətin tamamilə əmirül-üməra Süleyman bəy Bicənoğlu tərəfindən idarə edilməsi və başqa qüdrətli əmirlərin o cümlədən də Eybə Sultanın bundan narazı olması idi. Nəticədə Eybə Sultan 897 (1492)-ci ildə Əlincədə dustaq olan Rüstəm bəyi qaladan çıxarıb Təbrizə hücum etdi. Əmir və döyüşçülərin xəyanəti nəticəsində Baysunqur Şirvana, Bicənoğlu isə Diyarbəkrə qaçdı [66, 632 - 634] ki, bununla da ağqoyunlu qoşununda hərc-mərclik olduğu bir daha bizim müəllif tərəfindən qeyd edilir.

[41] Həsən bəy Rumlunun bu faktına başqa mənbədə təsadüf etmədik.

Baysunqurun devrilməsindən sonra beşinci ağqoyunlu şahı olan Rüstəmin (hakimiyyət illəri: 1492 - 1497) hakimiyyəti başlandı [66, 632 – 634, 10, 75, 52, 80]. Doğrudur, Baysunqur sonradan qayınatası Fərrux Yasarın köməyi ilə onun üzərinə hücum etmişdisə də, Rüstəm şah Sultanəli Səfəvinin əli ilə onu məğlub etmiş və Baysunqur həmin ilin şəban ayının 7-də (5 iyun 1492-ci ildə) öldürülmüşdü [66, 633 - 635]. Rüstəm şah bu qələbədən sonra səfəvi qardaşlarını yenidən Ərdəbilə qaytarmışdısa da, onların ətrafına çoxlu sufi və qazi toplanmasından qorxuya düşərək, qardaşları Təbrizə gətirdib orduda nəzarət altında saxlamışdı [66, 635; 52, 82]. Bununla da "Əhsənüt-təvarix" salnaməsinin tariximizlə sıx surətdə əlaqədar olan IX cildinin siyasi hadisələrinin şərhi sona çatır.

Salnamənin X cildi isə 900 (1494/95)-cü ildə Azərbaycanda olan bir sıra hadisələrin təsviri ilə başlanır. Həmin il yenidən Ərdəbilə yolladığı səfəvi qardaşlarının ətrafına çoxlu sufi toplandığına görə Rüstəm şahın əmri ilə onlar ikinci dəfə həbs edilmişdir. Bu dəfə ağqoyunlu padşahı birdəfəlik onlarla hesablaşmağı qərara almışdı. Həsən bəy Rumlunun məlumatına görə bu niyyəti başa düşən qardaşlar Ərdəbilə qaçdılar. Sultanəli onların üzərinə gələn şah qoşununa müqavimət göstərə bilməyəcəklərini görərək kiçik İsmayıl Mirzəni özündən sonra "irşad sahibi" təyin etdi [65, 3, 52, 82]. Sonra döyüş nəticəsində Sultanəli öldürülmüş [65, 3], İsmayıl isə ağqoyunlu təqibindən qorunmaqdan ötrü bir müddət Ərdəbildə gizli vəziyyətdə qalmış [65, 4 - 5], oradan Rəştə getmiş [65, 7] və bir müddət vali-Karkiya Mirzə Əlinin himayəsində Lahicanda yaşamışdı [65, 8].

Rüstəm şahın hakimiyyəti zamanı ağqoyunlu hərbi qüvvəsinin olduqca zəiflədiyini bildirən Həsən bəy Rumlu [65, 13] Uğurlu Məhəmmədin oğlu Əhməd bəyin 902 (1497)-ci ildə Türkiyədən Azərbaycana olan hücumunu məhz həmin zəifliklə əlaqələndirir. Onun məlumatına görə, Əhməd bəyin hücumunu eşidən Rüstəm şah Araz çayı sahilində onunla döyüşmüş, lakin tezliklə əsir alınaraq öldürülmüşdü [65, 14, 16]. Bizim müəllifə görə Rüstəm şahın məğlubiyyətinin səbəbi ilk növbədə onun əmirlərinin, xüsusilə Eybə Sultanın xəyanət edərək müxtəlif tərəfə keçmələrində olmuşdur [65, 13-14].

Əhməd hakimiyyətdə olduğu az müddətdə dövlətdə mərkəzi hakimiyyət aparatını qüvvətləndirməyə və vergi islahatı keçirməyə cəhd etdi. Onun vergi islahatı dövlət torpaqlarının böyük bir hissəsini əllərində saxlayan hərbi-köçəri əyanların gəlirlərinin olduqca azalmasına səbəb olmuşdu [36, 178].

"Əhsənüt-təvarix" müəllifinin verdiyi məlumatdan aydın olur ki, Əhməd şahın ağqoyunlu taxtına əyləşməsi Eybə Sultanı qane etmirdi. Buna görə də o, 903 (1487)-cü ildə Şiraz valisi Qasım bəy Pornakla ittifaqa girərək Şirvanda yaşayan Sultan Muradı (Yaqub şahın oğlu) taxta çıxarmaq fikrinə düşdü [36, 178].

Aralarında baş verən döyüş nəticəsində Eybə Sultan cəmi 6 ay hakimiyyətdə olan Əhməd şahı [65, 19][42] devirməyə müvəffəq oldu [65, 17]. Ancaq Sultan Muradın şahlığı ilə də kifayətlənməyən Eybə Sultan onunla vuruşaraq qalib gəlmiş və Uzun Həsənin başqa nəvəsi Əlvənd bəyi (Yusif bəyin oğlu) Təbriz taxtına əyləşdirmişdir [65, 17].

Həsən bəy Rumlu göstərir ki, qardaşı Məhəmmədi Mirzənin ona müxalif olduğunu görən Əlvənd bəy qardaşını dəf etmək üçün Eybə Sultanla birlikdə Reyə tərəf yollandı [65. 21]. Döyüşdə Eybə Sultan həlak olmuş, Əlvənd bəy Diyarbəkrə qaçmışdı [65, 21].

Beləliklə də, Əlvənd Diyarbəkrdə, Məhəmmədi Mirzə isə Azərbaycanda taxta əyləşdilər. Həsən bəy Rumluya görə Əlvənd tezliklə Təbrizə hücum etdi. Qardaşının gəldiyini eşidən Məhəmmədi Mirzənin şəhəri tərk edib qaçmasından sonra Təbriz yenidən Əlvəndin ixtiyarına keçdi [65, 21]. Lakin Əlvəndin daha bir rəqibi olduğu zahirə çıxdı. O 905 (1499-1500)-ci ildə Məhəmmədi Mirzəni öldürüb, Təbrizə hücum edən Sultan Murad idi [65, 24]. Həsən bəy Rumlunun məlumatına görə, Sultan Muradla Əlvənd arasında sülh müqaviləsi bağlandı. İkitərəfli razılığa əsasən Qızılüzən çayı sərhəd kimi qəbul edilməklə Azərbaycan, Aran və Diyarbəkr Əlvəndin, İraq (hər ikisi), Fars və Kirman Sultan Muradın oldu [65, 25; 81, 240b]. Həqiqətdə isə yalnız əcəm İraqının bir hissəsi Sultan Muradın əlində idi. Yəzd, Kirman və Diyarbəkri bayanduri sülaləsinin başqa üzvləri idarə edirdilər. Fars və ərəb İraqı isə pornak tayfasından olan hakimlərin əlində idi ki, onlar işləri Sultan Muradın adından icra etsələr də, əslində, müstəqil idilər [36, 225].

XV əsrin sonlarında Şirvan və Şəki feodal dövlətləri öz müstəqilliklərini saxlamaqda idilər[43]. Ağqoyunlular arasında baş verən hərc-mərcliyi görən Fərrux Yasar həmişə Şirvanı tutmağa cəhd etmiş və səfəvi sülaləsinin gənc üzvlərini ələ keçirmək və beləliklə də, gələcəkdə Şirvana qarşı ola biləcək təhlükənin qabağını irəlicədən almaq məqsədi ilə Karkiya Mirzə Əliyə böyük məbləğdə pul yollamış, İsmayılı Şirvana gətirdib məhv etmək istəmişdi [65, 28-29]. Lakin məqsədinə nail olmayan Fərrux Yasarın özü 906 (1500)-cı ildə İsmayıl Səfəvi ilə baş verən döyüşdə öldürülmüş [65, 45; 36, 231] və beləliklə də, Şirvan dövləti qızılbaşların təsiri altına keçmişdi.

907 (1501)-ci ildə Naxçıvanda Əlvəndlə vuruşan İsmayıl qələbədən sonra "alişan padşahların xilafət mərkəzi" olan Təbrizdə taxta çıxmış [65, 60, 61; 52, 90-91] və beləliklə də, Azərbaycan Səfəvi dövləti yaranmışdı[44]

[42] Əhməd şahın hakimiyyət müddətini Budaq Qəzvini səhvən bir il göstərmişdir. (Bax: 61, 274b).
[43] B.N. Zaxoder Azərbaycandan danışarkən Şəki dövlətinin adını çəkməmişdir (Bax: 29, 558). Halbuki 1551-ci ilə qədər Şəki də müstəqil dövlət olmuş və Şəki xanları tərəfindən idarə edilmişdir.
[44] Səfəvi dövlətinin yaranmasında Azərbaycan tayfalarının deyil, Kiçik Asiya və Suriya köçərilərinin həlledici rol oynadığını sübut etməyə çalışan İ.P. Petrovun fikri əsassızdır. (Bax: 33, 79). Məlumdur ki,

Həsən bəy Rumlu göstərir ki, 908 (1502/03)-ci ildə Əlvəndlə qızılbaşlar arasında olan ikinci döyüş də səfəvilərin qələbəsi ilə nəticələndi. Əlvənd Azərbaycanı tərk edərək Bağdada, oradan da Diyarbəkrə getdi [65, 63, 64, 67...]. Tezliklə Sultan Murada da qalib gələn şah İsmayıl [65, 68-69; 52, 93] Azərbaycan və Şirvan uğrunda ölüm-dirim mübarizəsinə girmiş rəqiblərindən yaxa qurtarmış oldu.

Bu müvəffəqiyyətlərdən az sonra fars və əcəm İraqı da səfəvilərin əlinə keçdi [65, 73]. "Əhsənüt-təvarix"in verdiyi məlumatdan aydındır ki, bir-birinin ardınca yeni-yeni ölkə, şəhər, qala fəth edən Şah İsmayılın istilaçılığı getdikcə artmaqda idi: 909 (1503/04) - 914 (1508/09)-cü illər arasında qonşu ölkələrin Firuzkuh (65, 75), Gülxəndan [65, 75; 76], Osta [65, 78] Ərk [65, 80] qalaları, Yəzd [65, 83-84], Təbəs [65, 85] şəhərləri, bütün Diyarbəkr [65, 94, 96, 105, 106], ərəb İraqı [65, 103] Kürdüstanın bəzi vilayətləri [65, 92-93], o cümlədən Hüveyzə [65, 104], Dizful [65,m104], Şüştər [65, 104], Larkuçek [65, 104] və Xürrəmabad [65, 104] qızılbaş qoşunları tərəfindən tutuldu. Dini şüar altında istilaçı siyasət yeridən I Şah İsmayıl haqqında K. Marks yazmışdır: "Səfəvi sülaləsinin əsasını qoyan... Şah İsmayıl... hökmranlığının 14 ili müddətində 14 vilayət ələ keçirdi"[45]

Göstərmək lazımdır ki, bu vaxt ərzində Şirvan dövləti qızılbaşların təsiri altına düşmüşdüsə də, oranı Fərrux Yasarın oğlu İbrahim (Şeyxşah) müstəqil idarə etməkdə idi. Onun sərbəstliyi ilə razılaşmayan I Şah İsmayıl 915 (1509)-ci ildə ikinci dəfə Şirvana hücum edərək qələbə ilə Təbrizə qayıtmışdı [65, 108-109; 81, 247a].

I Şah İsmayılın bütün bu siyasi müvəffəqiyyətləri vaxtı Xorasan hökmdarı Sultan Hüseyn Bayqara vəfat etmiş, hakimiyyət üstündə onun oğlanları arasında mübarizə başlanmışdı [65, 89-90]. Bundan istifadə edən Mavərənnəhr hakimi Məhəmməd xan Şeybani (Şeybək xan) Xorasana hücum edərək Bəlx şəhərini tutmuş [65, 92], 913 (1507/08)-cü ildə bütün Xorasan özbək qoşunu tərəfindən fəth edilmişdi [65, 97-99]. Şeybək xan bu müvəffəqiyyətindən qürurlanıb qızılbaşların hakimiyyəti altında olan Kirmana hücum etdi. Həsən bəy Rumlu bildirir ki, o hətta Şah İsmayıla təhqiramiz bir məktub da göndərmişdi [65, 109-110]

Qeyd etmək lazımdır ki, özbəklərin Xorasanı tutmalarından sonra I Şah İsmayıl Şeybək xanla müharibə etmək haqqında düşünür, lakin müxtəlif hadisələr üzündən bu iş baş tutmurdu [65, 111].

Artıq 916 (1510)-cı ildə I Şah İsmayılın hökmü altında bu ölkələr vardı: Azərbaycan, Şirvan, Diyarbəkr, əcəm İraqı, Fars, Kirman, Şeybək xan isə Xorasan, Bədəxşan və Mavərənnəhrin hökmdarı olmuşdu [65, 111].

---

səfəviyyə ordeni nümayəndələrinin daimi məskəni Ərdəbil olmuşdur və onların tərəfdarlarının çoxu da məhz Azərbaycan qızılbaş tayfalarının nümayəndələri idilər.

[45] Архив К. Маркса и Ф. Энгельса, т. VII, 1938, səh. 206.

“Əhsənüt-təvarix”in məlumatına görə, həmin il I Şah İsmayıl ilə baş verən müharibə vaxtı Şeybək xan həlak olmuş və az müddət ərzində bütün Xorasan qızılbaşların əlinə keçmişdi [65, 122; 81, 248a].

916 (1510/11) - 917 (1511/12)-ci illərdə Bədəxşan hakimi Məhəmməd Sultan Üveys (Sultan Əbu Səidin nəvəsi), Mavərənnəhr hakimləri Übeyd xan və Teymur Sultan da I Şah İsmayıla tabe olduqlarını bildirdilər [65, 123-125]. Lakin az sonra bu Mavərənnəhr hakimlərinin qızılbaşlarla bir neçə hərbi toqquşması baş vermişdisə də, onlar məğlub edilmişdilər [65, 129-130; 132-133]. Həsən bəy Rumlu yazır ki, nəhayət 918 (1512/13)-ci ildə Übeyd xan Heratı ələ keçirib, Xorasanı tutmağa nail oldu [65, 133-134]. Lakin bu da uzun sürmədi. Özbək hakimləri arasında başlanan ixtilaf onların Heratı tərk etmələrinə və I Şah İsmayılın yenidən Xorasan paytaxtını tutmasına səbəb oldu [65, 137-138].

Göstərmək lazımdır ki, 917 (1511/12)-ci ildə qızılbaş qoşunu ilə osmanlıların ilk hərbi toqquşması baş vermişdi [65, 125-126]. Həsən bəy Rumlunun yazdığına görə, 918 (1512/13)-ci ildə Şah İsmayıl Ruma qoşun yolladı və osmanlılarla qızılbaşlar arasında yeni döyüş oldu [65, 134-135]. 920 (1514)-ci ildə isə Sultan Səlim xəbərdarlıq elan etdikdən sonra 200 min nəfərlik bir qoşunla Azərbaycan üzərinə hücuma keçdi. Həsən bəy Rumlu yazır ki, türk sultanının bu hücumunun səbəbi qızılbaşların dəfələrlə Rum ölkəsinə olan basqın və təhqiramiz hərəkətlərində idi [65, 143].

Rəcəb ayının əvvəllərində (avqustun axırlarında) Təbriz yaxınlığındakı Çaldıran adlı yerdə böyük müharibə başlandı. Türklər qələbə əldə etdilərsə də, səkkiz gündən sonra geri qayıtmaq məcburiyyətində qaldılar [65, 149]. Bu, I Şah İsmayılın ilk və son böyük məğlubiyyəti idi. Həmin ildən 930 (1524)-cu ilə qədər I Şah İsmayılın siyasi fəaliyyətində və Səfəvi dövlətinin inzibati quruluşunda elə bir mühüm hadisə olmamışdır. 922 (1516/17)-ci ildə səfəvi hökmdarı gürcü knyazları arasında olan ixtilafı həll etmək məqsədi ilə Gürcüstana qoşun yollamış [65, 162-163], 924 (1518/19)-cü ildə Mazandaran valisi Ağaməhəmmədin üsyanını yatırmışdı [65, 167-168]. 927 (1521/22)-ci ildə üç dəfə Xorasana hücum edən Übeyd xanın cəhdləri müvəffəqiyyətsizliyə uğramış və o, Buxaraya qayıtmağa məcbur olmuşdu [65, 170-171]. Yenə həmin il gürcü hakimi Levonun (Ləvənd xanın) Şəkiyə etdiyi basqın qızılbaş əmiri Div Sultan Rumlu tərəfindən dəf olunmuşdu [65, 173].

Bu illər ərzində şirvanşah II İbrahim və Şəki valisi Hüseyn bəy səfəvi şahının itaətindən çıxmağa səy göstərmir, vaxtaşırı onunla görüşür və peşkəş göndərirdilər [65, 168-180].

930 (1523/24)-cü ildə Ləvənd xan yenidən Şəkiyə hücum etdi. Həsən bəy Rumlu xəbər verir ki, döyüşdə Şəki hakimi Hüseyn bəy öldürüldü və Ləvənd xan geri qayıdandan sonra şəkililər öldürülən hakimin oğlu Dərviş Məhəmməd xanı özlərinə hakim qəbul etdilər [65, 180-181]. “Əhsənüt-təvarix”də verilən bu məlumat olduqca əhəmiyyətlidir. Müəllif Şəki hakiminin səfəvi padşahı tərəfindən

deyil, yerli xalq tərəfindən təyin olunduğunu bildirmiş ki, bu da Şəkinin müstəqilliyinə dəlalət edir.

930 (1524)-cu ildə I Şah İsmayıl [65, 181], az sonra isə Şirvanşah II İbrahim vəfat etdi [65, 184]. Onların əvəzinə səfəvi taxtına şahzadə Təhmasib [65, 184], Şirvan taxtına isə II Xəlilullah əyləşdi [65, 184].

Səfəvi dövlətinin qüvvətli banisinin ölümündən istifadə edən Übeyd xan 4-cü dəfə Xorasana hücum etmiş, lakin qızılbaşlar tərəfindən məğlub olaraq geri qayıtmışdı [65, 185-187]. I Şah Təhmasibin gəncliyi ilə əlaqədar olaraq qızılbaş əmirləri arasında baş verən ixtilaflar [65, 191-194] Übeyd xanı 932 (1526/27)-ci ildə yeni Xorasan səfərinə ruhlandırdı [65, 196]. Ancaq Heratın 7 ay sürən mühasirəsi də ona qələbə qazandırmadı [65, 205-207]. Nəhayət, Cam şəhəri yaxınlığında böyük döyüş oldu. Bu, I Şah Təhmasibin hərbi əməliyyatda birinci iştirakı idi. Übeyd xan məğlub edilsə də [65, 213-320], bir neçə aydan sonra yenidən Xorasana hücum etdi. Bu onun 7-ci hərbi yürüşü idi. Übeyd xan bu dəfə "çoxlu döyüşçü ilə Herata girərək, səltənət taxtına oturdu" [65, 222]. 936 (1530/31)-cı ildə I Şah Təhmasibin Herata hücumu nəticəsində Übeyd xan Xorasanı yenidən tərk etmək məcburiyyətində qaldı [65, 225-233].

938 (1532/33)-ci ildə Übeydin Xorasana 8-ci həmləsi oldu. Heratın il yarımlıq mühasirəsindən sonra I Şah Təhmasib üçüncü dəfə özbək qoşunu üzərinə hərəkət etdi və özbək xanı şəhərdən qaçmağa məcbur oldu [65, 240-243]

Übeyd xanın Xorasana növbəti hücumu 942 (1535/36)-ci ildə həyata keçirildi və Herat yenidən özbəklər tərəfindən zəbt olundu [65, 269-272]. Həsən bəy Rumlunun məlumatına görə, I Şah Təhmasib 4-cü dəfə Xorasana qoşun çəkmiş və Übeyd xan yenidən Buxaraya qayıtmışdı [65, 274-276]. 946 (1539/40)-cı ildə isə bu özbək xanı Xorasana 10-cu və sonuncu səfərini etdi, lakin hələ yolda ikən xəstələnib öldü [65, 294-295].

Göstərmək lazımdır ki, Übeyd xanın vəfatı ilə də özbək-qızılbaş münasibətləri yaxşılaşa bilməmiş, müxtəlif illərdə onların arasında qanlı vuruşmalar olmuşdur. Özbəklər 950 (1543/44), 952 (1545/46), 955; (1548/49), 957 (1550/51), 967 (1559/60), 971 (0,163/64, 973 0,6506), 974 (1566/67) və 977 (1596/70)-ci illərdə (bax: 65, 305, 313, 337-338, 343-344, 413, 421, 430, 431, 449-450) Xorasan əyalətinin müxtəlif şəhərlərinə basqınlar etmiş və hər dəfə geri çəkilməyə məcbur olmuşdular.

I Şah Təhmasib hələ gənc ikən Səfəvi dövlətindəki daxili çəkişmələrdən istifadə edən Sultan Süleyman 940 (1533/34)-cı ildə Azərbaycana qoşun çəkdi. Türklərin Azərbaycana bu yürüşü zamanı səfəvi hökmdarı özbəklərlə müharibəyə yollanmışdı. Azərbaycanın çox hissəsinin osmanlılar tərəfindən tutulmasına baxmayaraq, I Şah Təhmasib gəlib onları Azərbaycan torpaqlarından çıxarmışdı [65, 247-252].

“Əhsənüt-təvarix” müəllifi göstərir ki, bu hadisədən bir il sonra Bağdadı ələ keçirən Sultan Süleyman 2-ci dəfə Azərbaycan üzərinə gəlmiş və yenə orada qalıb yerini möhkəmlədə bilməmişdi [65, 256-260].

955 (1548)-ci ildə Sultan Süleyman səfəvi hökmdarına qarşı üsyan etmiş şahın qardaşı Əlqas və sabiq Azərbaycan hakimi Üləma Təkəlu ilə birlikdə 3-cü dəfə Azərbaycana hücum etdi [65, 327]. Həsən bəy Rumlu bildirir ki, Şah Təhmasibin əmri ilə düşmənlərin keçəcəyi yollar boyu olan bütün taxıl zəmiləri yandırılmış, quyu və kəhrizlər dağıdılmışdı [65, 328]. Bu dəfə də Təbrizə girə bilən türklər orada cəmi 4 gün qala bildilər [65, 329]. Onlar bu 4 gündə şəhəri talan etmiş [65, 329], qızılbaşlar hücuma keçdiyi üçün Təbrizdən çıxmışdılar. Həsən bəy Rumlu yazır ki, Sultan Süleyman şəhəri tərk edərkən yerli camaat ona hücum etmişdi [65, 330]. Müəllifin bu faktı ilə təcavüzkarlara qarşı azərbaycanlıların nifrəti əks etdirilir.

961 (1553/54)-ci ildə Sultan Süleyman 4-cü dəfə Azərbaycana qoşun yürütdü. O zaman Naxçıvanda olan I Şah Təhmasib şəhəri tərk edəndən sonra osmanlı sultanı gələrək bu şəhəri yandırmış və Ərzruma qayıtmışdı [65, 377-378]. Həsən bəy Rumlunun məlumatına görə, I Şah Təhmasib osmanlılar üzərinə hücuma keçən kimi “xandgar” (yəni Sultan Süleyman) tərəfindən sülh xahişi edildiyi üçün dinin pənahı olan şah (Şah Təhmasib - Ş. F.) razılaşdı və hər iki tərəfin küdurəti aradan götürüldü [65, 379].

Doğrudan da, sonralar qızılbaş-osmanlı münasibətləri bir müddət normal şəkildə davam etdi. Belə ki, 961 (1553/54) və 964 (1556/57)-cü illərdə I Şah Təhmasib tərəfindən Türkiyəyə iki dəfə elçi göndərilmiş [65, 384; 401], 970 (1562/63)-ci ildə Sultan Süleyman da səfəvi sarayına çoxlu hədiyyə yollamışdı [65, 419]. Həsən bəy Rumlu yazır ki, türklərlə bağlanan sülh şərtlərindən biri “tərəflərin birisinə pənah gətirən hər iki dövlət adamının geri qaytarılması” şərti idi [65, 417]. Məhz buna görə də 966 (158/59)-cı ildə atası Sultan Süleymana qarşı üsyan etmiş və səfəvi şahına pənah gətirmiş şahzadə Bayazid 969 (1561/62)-cu ildə türk elçilərinə təslim edilmiş və onlar tərəfindən öldürülmüşdü [65, 417; 58, 104].

İndi də tariximizlə bağlı olan bir sıra siyasi hadisələrin o cümlədən üsyanların “Əhsənüt-təvarix” əsərində necə əks etdirilməsinə nəzər yetirək.

Həsən bəy göstərir ki, 937 (1530/31)-ci ildə qızılbaş əmirləri arasında düşmənçilik yenidən qızışmış, tayfalararası ixtilaf yaranmışdı [65, 235-237]. Azərbaycan əmirül-ümərası Üləma Təkəlu vəkalət vəzifəsini ələ keçirmək məqsədi ilə I Şah Təhmasibə qarşı üsyan etmiş, məqsədi baş tutmadığından Türkiyəyə qaçmış [65, 237], Sultan Süleymanın Azərbaycana birinci yürüşündə qızılbaşlara qarşı vuruşmuşdu [65, 247]. 942 (1535)-ci il cəmadül-əvvəl ayının 9-da (noyabrın 7-də) Şirvanşah II Xəlilullah ölmüş, yerinə 15 yaşlı qardaşı oğlu Şahrux keçmişdi [65, 273; 60, 449a; 58, 80; 10, 132; 52, 13]. Mənbələrdən məlumdur ki, Şeyxşah (II Xəlilullah) sonsuz olmuşdur [65, 273; 58, 80]. Həsən bəy Rumlu da bununla əlaqədar olan bir üsyanı ətraflı təsvir edir. Onun məlumatından aydın olur ki, 944

(1437/38)-cü ildə Şirvanda “Mən Şeyxşahın oğlu Sultan Məhəmmədəm” deyən bir qələndərin üsyanı baş verdi. O, Salyanı ələ keçirib, Şamaxıya gəldiyi vaxt Şahrux müqavimət göstərə bilməmiş, qaçıb Buğurd qalasına sığınmışdı. Az sonra Salyan yaxınlığında şirvanşahla olan döyüşdə qələndər öldürülmuş və şirvanşah Şamaxıya qayıtmışdı [65, 382; 10, 132-133]. Həsən bəy Rumlu yazır ki, bu hadisədən bir qədər sonra Şah Təhmasib Şirvana qoşun yolladı [65, 286]. Müəllif bu hərəkəti “Şirvan əyanlarının Şahruxdan narazı olub” Şah Təhmasibdən kömək istəmələri ilə izah edir ki, fikrimizcə, bu düzgün deyildir. Əslində, səfəvi şahı Şirvanın müstəqilliyini ləğv etmək və oranı öz dövlətinə qatmaq fikrində idi.

I Şah Təhmasibin Şirvana yolladığı qoşunlar bir-birinin ardınca Sürxab və Qəbələ qalalarını aldılar [65, 286], döyüşçülərin bir hissəsi Gülüstan, digər hissəsi Buğurd qalasına tərəf hücuma keçdi [65 287]. “Əhsənüt-təvarix”in məlumatına görə Buğurd dərəsində səfəvi və Şirvan qoşunları arasında qızğın döyüş baş verdi. Ələ keçməyən bu qala 4 ay mühasirədə qaldı [65, 288, 81, 2b4a]. O zaman Şəki hakimi Dərviş Məhəmməd xan da “dağ qoşunlarını toplayaraq Şahruxun köməyinə gəlmiş”, ancaq tezliklə məğlub edilmişdi. Həsən bəy Rumlu göstərir ki, Şirvan əməliyyatının ləngidiyini görən Şah Təhmasibin özü Buğurd qalasına gəlmiş, şirvanşah təslim olduqdan sonra bu qalanı dağıtmağı əmr etmişdi [65, 289].

Qeyd etmək lazımdır ki, Şahrux 940 (1539/40)-cı ildə qətl edilmiş və Həsən bəy Rumlunun yazdığına görə “onun öldürülməsi ilə əlaqədar olaraq Şirvan sultanlarının hakimiyyəti sona çatmışdı” [65; 295]. Şirvanın idarəsi isə I Şah Təhmasibin qardaşı Əlqas Mirzəyə verildi [65, 290; 10, 135].

“Əhsənüt-təvarix”də oxuyuruq ki, 947 (1540/41)-ci ildə I Şah Təhmasib birinci dəfə Gürcüstana qoşun çəkdi. Orada islam dinini möhkəmlətmək şüarı ilə hərəkət edən qızılbaşlar Tiflisi aldı [65, 296]. Yürüş cahad adı ilə davam etməkdə idi. Hakim Ləvasanın qaçmasından sonra Şah Təhmasib Təbrizə qayıtdı [65, 297-298].

Qeyd olunmalıdır ki, qızılbaş əmirləri soyğunçuluq edir, şəhərləri talayırdılar. 947 (1540/41)-ci ildə Salyan və Mahmudabad şəhərlərini tiyul şəklində səfəvi şahından alan Qazi xan Təkəlu elə həmin il Bakı qalasını da ələ keçirərək əhalinin çox hissəsini qırmışdı [65, 300].

Həsən bəy Rumlu feodal sinfinə mənsub şəxslərin də üsyan və qiyamlarından bəhs edir. Onlardan biri Şirvan hakimi Əlqas Mirzənin qardaşı Şah Təhmasibə qarşı olan çıxışı idi. Bu hadisənin gedişini bir neçə mərhələyə bölmək olar ki, onlardan birincisi 953 (1546/47)-cü ildə Əlqasın üsyan etmək cəhdi hesab edilə bilər. O vaxt Əlqas heç bir şey edə bilməyəcəyini başa düşüb, anası Xanbikə xanım və oğlu Sultan Əhmədi üzrxahlıqdan ötrü şah qardaşının yanına yollamış və onun günahı bağışlanmışdı [65, 314-315; 81, 267; 77, 198]. Lakin az sonra I Şah Təhmasibin Gürcüstana yeni bir yürüşü də baş verdi [65, 316]. Məlum olduğu kimi, gürcü hakimlərinin ara-sıra baş verən narazılıqlarının qabağını almaqdan ötrü səfəvi hökmdarının əmri ilə oraya döyüşçü dəstələri göndərilir və onlar vəziyyəti

silah gücü ilə sakitləşdirdikdən sonra geri qayıdırdılar. Şah Təhmasibin Gürcüstana bu dəfəki yürüşünün səbəbi “Əhsənüt-təvarix” əsərində göstərilmirsə də, hadisələrin gedişindən aydın olur ki, bu səfərdən onun məqsədi heç də gürcüləri cəzalandırmaq olmamışdır. Fikrimizcə, Şah Təhmasib bu yürüşə qardaşı Əlqas Mirzəni həbs etmək xatirinə çıxmışdı. Həsən bəy Rumlu yazır: “Dinin pənahı olan şah köç-köç Gəncəyə gəldi. Oradan çıxdıqdan sonra Yevlaxda dayandı. Yevlaxdan da İbrahim xan Zülqədər, Hüseynxan Sultan Rumlu, Göyçə Sultan Qacar, Şahverdi Sultan Ziyadoğlu və Xacəbasanı 500 döyüşkən süvari ilə haqtanımaz Əlqasın olduğu Şamaxıya hücuma göndərdi” [65, 317]. Yuxarıda göstərmişdi ki, Əlqasın xoşagəlməz hərəkətini Şah Təhmasib bağışlamışdı, lakin görünür, qardaşının üsyan etmək cəhdi onu təşvişə salmış və məhz buna görə də o, Gürcüstana yürüş bəhanəsi ilə Təbrizdən çıxaraq Əlqasa hücum etmişdi. Demək lazımdır ki, Şah Təhmasibin təşvişi əsassız deyildi. 941 (1534/35)-ci ildə Herata hakim təyin etdiyi ortancıl qardaşı Sam Mirzə də ona qarşı düşmənçilik mövqeyində durmuş, ancaq tezliklə bağışlanmasını xahiş etmiş və həbs edilib qalaya salınmışdı [65, 260-262].

I Şah Təhmasibin Şamaxıya qoşun göndərməsi ilə Əlqas üsyanının ikinci mərhələsi başlanmış oldu. O vaxt Əlqas Dağıstana hərbi səfərə çıxmışdı. Hadisədən xəbərdar olub geri qayıdan səfəvi şahzadəsi Samur çayı sahilində və Qəbələdə şah qoşunları ilə döyüşüb məğlub olmuşdu [65, 320]. Əlqasın İstambula qaçması ilə onun üsyanının ikinci mərhələsi bitdi.

Əsərdə biz bir daha Əlqasla 955 (1548)-ci ildə Sultan Süleymanın Azərbaycana 3-cü hücumu zamanı qarşılaşırıq. Əvvəlcə türklərlə əlbir olan, sonradan isə osmanlı sultanından üz çevirən Əlqas çox keçmədən Şah Təhmasibə təslim olub qalaya salınmışdı [65, 340; 81, 270a; 76, 516] ki, bununla da Əlqas üsyanının son mərhələsi tamamlanmış oldu.

Göstərmək lazımdır ki, qızılbaş yürüşü zamanı mühasirədə saxlanılan Gülüstan və Dərbənd qalaları, nəhayət, 954 (1547/48)-cü ildə fəth olunmuş və adı çəkilən birinci qala Şah Təhmasibin əmri ilə dağıdılmışdı [65, 321-322]. Həsən bəy Rumlu yazır ki, Sulut (?) qalasının hakimi Məsih Şirvaninin təslim olmasından sonra “Şirvan vilayəti ikinci dəfə dinin pənahı olan şahın əlinə keçdi. O, bütun Şirvan məmləkətini oğlu İsmayıl Mirzəyə verdi” [65, 323]. Lakin məlum olduğu kimi, elə həmin il Şirvanın qızılbaşların əlindən çıxarılmasından ötrü cəhd edilmişdi. Görünür ki, şirvanşahların varisləri öz nəsli hakimiyyətlərindən əl çəkmək istəmirdilər. Həsən bəy Rumluya görə, 954 (1547/48)-cü ildə şirvanşahların nəvələrindən biri olan Bürhan Dağıstandan Şirvana hücum edərək qızılbaş əsgərləri ilə döyüşmüş və məğlub olmuşdu. Elə o vaxtlarda da Sultan Süleymanın Azərbaycana 3-cü yürüşü başlanmış və bunu eşidən İsmayıl Mirzə Şirvanı tərk edib, atasının köməyinə getmişdi. Bundan istifadə edən Bürhan Şamaxını ələ keçirmişdi [65, 326-327]. Bizim müəllif yazır ki, Şirvan iki il Bürhanın əlində qaldı. Ancaq 956 (1549/50)-cı ildə Bürhan qəflətən vəfat etdi, məhz bu zaman I Şah Təhmasib öz qohumu Abdulla xan Ustaclunu Şirvanı

tutmağa yolladı və qızılbaşlar təzədən ora sahibləndilər [65, 341]. Göstərmək lazımdır ki, şirvanlılar onlara rəğbət bəsləmir, özlərinə şirvanşahların nəslindən hakim istəyirdilər. Təsadüfi deyil ki, 954 (1547-48)-cü ildə Şirvana hücum edən Bürhan üstünə göndərilən qızılbaşlarla döyüşən vaxt onun tərəfində çoxlu yerli əhali vardı. Bürhanın məğlubiyyətini təsvir edən Həsən bəy Rumlu həmin məğlubiyyəti "Bürhan məğlub oldu" kimi yox, "Şirvan məğlub oldu" deyə ifadə etmişdir [65, 326]. Bu məsələ ilə əlaqədar bir faktı da göstərmək lazımdır ki, 956 (1549/50)-cı ildə Bürhanı dəfn edən şirvanlılar ölkələrini ələ keçirən Abdulla xana onun qəbrinin yerini göstərməmişdilərsə də, qızılbaşlar qəbri tapıb, meyiti oradan çıxarmış, ölü başı bədənindən ayırmışdılar. Həsən bəy Rumlu bildirir ki, bu hadisəyə görə şirvanlılar yenidən üsyan etdilərsə də, Abdulla xan üsyanı qanla yatırtdı [65, 341]. Bu misallarda öz hakimiyyətlərini bərpa etmək uğrunda şirvanlıların inadla apardıqları mübarizə nümayiş etdirilmişdir.

I Şah Təhmasib Şəki dövlətini də ələ keçirməyi qət etmişdi. O, osmanlıların Azərbaycana 3-cü yürüşündən sonra qorçibaşı Sevindik bəy Əfşarı Şəki üzərinə göndərmiş [65, 334], əmr yerinə yetirilmişdi [65, 334]. Lakin qorçilərin hücumu zamanı qaçıb Kiş qalasına sığınan Dərviş Məhəmməd xan onlar geri qayıdandan sonra yenidən Şəkiyə gəlmişdi.

Şəki 958 (1551)-ci ilə qədər Dərviş Məhəmməd xan tərəfindən idarə edildi. Nəhayət, "Şəki hakimi Dərviş Məhəmməd xandan dəfələrlə müxalifət üz verdiyinə görə" I Şah Təhmasib çoxlu qoşunla Şəkiyə hücum etdi. Həsən bəy Rumlu göstərir ki, Şəki xanının olduğu Gələsən-Görəsən qalası Şirvan hakimi Abdulla xan və ona qoşulmuş gürcü Ləvənd xan tərəfindən mühasirə edildi [65, 350]. Yalnız 20 gündən sonra qala alınıb dağıdılmışdı [65, 350]. Bir qədər sonra Gələsən-Görəsəni tərk edib qaçmaq istəyən Dərviş Məhəmməd xan öldürüldü və beləliklə də, Şəki Səfəvi dövlətinin bir əyalətinə çevrildi [65, 351; 81, 271a; 61, 322a; 77, 204; 58, 83].

Həsən bəy Rumlu şirvanlıların müstəqil olmaq arzularını əsərində əks etdirmişdir. Sultan Süleymanın 961 (1554)-ci ildə Azərbaycana etdiyi 4-cü hücum zamanı Türkiyədən onunla birlikdə şirvanşahlar nəslindən olan Qasım bəy Şirvani adlı bir şəxs də gəlmiş və Şirvana yürüş etmişdi. Bu xəbəri eşidən şirvanlılar dərhal Abdulla xandan dönüb ona qoşulmuşdular [65, 382; 81, 273a; 58, 82]. Qasım bəyin və üsyan edən şirvanlıların üzərinə yollanan Abdulla xan Təngədə onlara çatmışdı. Bu haqda "Əhsənüt-təvarix"də oxuyuruq: "qızılbaşlar hücum edən vaxt şirvanlılar da qılınclarını sıyırıb döyüşə başladılar. Tezliklə Abdulla xan Şamaxıya qayıtmağa məcbur oldu və Qasım bəy Buğurda gedib, 40 gün orada gözlədi. Sonralar Abdulla xanın olduğu Gülüstan qalasına Qasım bəyin hücumu zamanı 1500 qızılbaş döyüşçüsü şirvanlılar tərəfindən öldürülmüşdü. Buna baxmayaraq səfəvi döyüşçüləri Qasım bəyi məğlub etdilər" [65, 383].

Güman ki, bu hadisədən sonra 961 (1553/54)-ci ildə 985 (1577/78)-ci ilə qədər Şirvanda qızılbaşlara qarşı elə mühüm ixtilaf olmamış və buna görə də

“Əhsənüt-təvarix” müəllifi bu barədə məlumat verməmişdir. Lakin Həsən bəy Rumlu Şirvanda 985 (1577-78)-ci ildə baş verən üsyan haqqında bildirir ki, həmin il Şirvanlılar qızılbaşlar əleyhinə hərəkət edərək Bürhanın bacısı oğlu Kavus Mirzəni hakimiyyətə qaldırdılar. Şabrana hücum edən Kavusla Şirvan valisi Ərəs Sultan Rumlu arasında başlanan döyüşdə üsyançılar məğlub edildilər [65, 491].

Tariximizlə əlaqədar hadisələrdən biri də Təbrizdə iki il üsyan edən xalq kütlələrinin 981 (1573/74)-ci ildə qətl edilməsidir [65, 455]. Həsən bəy Rumlu bu üsyanın səbəbini Təbriz hakimi Allahqulu bəy Ustaclunun bir mülaziminin yerli camaat tərəfindən döyülməsində görmüşdür [65, 455]. Müəllifin məlumatından anlaşılır ki, mülazimin döyülməsi xalqın qızılbaş əsgərlərinə qarşı nifrətinin ifadəsi olmuşdur.

Bu üsyan haqqında İ.P. Petruşevski müfəssəl danışdığından [bax: 36, 214-224] kiçik bir qeydlə kifayətlənəcəyik. Həsən bəy Rumlunun təsvirindən belə çıxır ki, iki il davam edən bu üsyanın vaxtında yatırılmamasının səbəbi şah Təhmasibin üsyan yatırılan zaman rəiyyət qırğını baş verəcəyini düşünməsində olmuşdur. Lakin əslində belə deyildir. Məhz üsyançıların sayca çox olması və üsyanın mütəşəkkil davam etməsi qızılbaşların onlar üzərinə hücuma keçməsini ləngitmişdi. Əsərdə verilmiş bir beytdən o zaman minlərlə üsyançının ayağa qalxdığı məlum olur:

“Minlərlə fədayi vuruşa gəldi,
Qorxunc fillər kimi xuruşa gəldi”[46]

Göstərmək lazımdır ki, 984 (1576)-cü ildə vəfat edən I Şah Təhmasibin yerinə tərəfdarı olan əmirlərin köməyi ilə uzun müddət həbsdə saxlanılan şahzadə İsmayıl Mirzə II Şah İsmayıl adı ilə taxta əyləşmişdi [65, 480]. Onun il yarımlıq hakimiyyəti zamanı nəzəri cəlb edən hadisələrdən biri yuxarıda danışdığımız Kavus Mirzənin üsyanı olmuşdur ki, Həsən bəy Rumlu bu xalq hərəkatı haqqında məlumat vermişdir.

985 (1577)-ci il ramazan ayının 13-də (noyabrın 25-də) sui-qəsd nəticəsində öldürülən II Şah İsmayılın [65, 495] yerinə onun kor qardaşı Məhəmməd Xudabəndə taxta çıxmışdı [65, 500] ki, bu səfəvi hökmdarının hakimiyyəti dövründə baş verən hadisələr “Əhsənüt-təvarix” salnaməsində işıqlandırılmamışdır.

[46] Beytin (65, 465) tərcüməsi bu sətirlərin müəllifinindir.

# NƏTİCƏ

XV – XVI əsrlər Azərbaycan tarixinin hadisələrlə zəngin və olduqca maraqlı dövrlərindən biridir. O zaman Azərbaycan ərazisində Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri yaradılmış, Şirvan və Şəki feodal dövlətləri mövcud olmuşdur, həmin əsrlərin ictimai-iqtisadi və siyasi tarixinin öyrənilməsində "Əhsənüt-təvarix" əsərinin xüsusi yeri vardır.

İndiyə qədər tarixşünaslıqda bu salnamə əsasən 12 cilddən ibarət zənn edilirdi. Lakin "Əhsənüt-təvarix"in M. E. Saltıkov-Şedrin adına Leninqrad Dövlət Kütləvi kitabxanasında saxlanılan əlyazma nüsxənin tədqiqinə əsasən belə qənaətə gəlmək olur ki, əsər 10 cilddə qələmə alınmış, onun yalnız son IX və X cildləri dövrümüzə gəlib çatmışdır. Əsərin cildləri haqqında Həsən bəy Rumlunun öz qeydlərinə əsaslanaraq, ehtimal etmək olur ki, "Əhsənüt-təvarix"in əlimizdə olmayan VI, VII və VIII cildləri XII - XIV əsr hadisələrini əhatə etmişdir.

Dövrün bir sıra tarixi mənbəyinin "Əhsənüt-təvarix"lə müqayisəsi göstərir ki, Həsən bəy Rumlu əsərini yazmaqdan ötru zəngin məxəzlərdən istifadə etmişdir. Xüsusilə İdris Bidlisinin "Həşt behişt", Əbdürrəzzaq Səmərqəndinin "Mətləüs-sədeyn və məcməül-bəhreyn", Mirxondun "Rövzətüs-səfa", Dövlətşah Səmərqəndinin "Təzkirətüş-şüəra", Əbubəkr Tehraninin "Kitab-i Diyarbəkriyyə", Xandəmirin "Həbibüs-siyar" və başqa əsərlər "Əhsənüt-təvarix" salnaməsinin IX cildinin yazılmasından ötrü vasitə olmuşdur.

"Əhsənüt-təvarix" və başqa mənbələrə əsasən müəyyən edilmişdir ki, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilərin dövlət quruluşunda əmirül-ümara və vəkil vəzifələri bəzən şərikli aparılmış, XVI əsrin ikinci yarısında qorçibaşı mənsəb əmirül-ümara vəzifəsini qismən əvəz etmişdir.

Soyurqal torpaq mülkiyyəti institutu feodallarda mərkəzdənqaçma ehtirasını gücləndirdiyindən Səfəvi dövlətində tiyul torpaq mülkiyyəti növü mahiyyət etibarilə soyurqalı əvəz edərək dövlətdə mərkəzləşdirməni gücləndirməyə başlamışdı. Səfəvilər məhz belə bir siyasət həyata keçirməklə öz ilk hakimiyyətləri dövründə nisbətən mərkəzləşmiş dövlət yaratdılar ki, "Əhsənüt-təvarix" salnaməsinin zəngin məlumatları bunu təsdiq edir. Həsən bəy Rumlunun əsərinə əsasən müəllif bu nəticəyə gəlmişdir ki, XVI əsrdə soyurqal feodal mülkiyyətinin daha iki növü - pulla verilən və müştərək soyurqal növü mövcud olmuşdur.

"Əhsənüt-təvarix"in öyrənilməsi göstərir ki, XV - XVI əsrlərdə Azərbaycan və ona qonşu ölkələrdə xalq kütlələrinin həyat şəraitinin ayrı-ayrı dövrlərdə həddən artıq ağırlaşması sinfi mübarizənin kəskinləşməsinə və nəticədə üsyanlara səbəb olurdu. Bir sıra sovet tarixçisi "Əhsənüt-təvarix" əsərində əks olunan sinfi mübarizə məsələlərinə xüsusi diqqət yetirdikləri halda, burjua tarixçiləri bu məsələlərin üstündən sükutla keçmişlər. Həsən bəy Rumlu XV-XVI əsrlərdə feodal zülmü və təcavüzünə qarşı baş verən aşağıdakı iğtişaş və üsyanlar

haqqında xüsusilə qabarıq məlumat vermişdir. 1408-ci ildə Naxçıvanın Əlincə qalasında yerli feodala qarşı baş vermiş qiyam, 1420-ci ildə teymurilər əleyhinə baş verən silahlı qiyamı, 1537-ci ildə Şirvanda qələndər-dərvişin üsyanı, Sultan Süleymanın 1548-ci ildə Azərbaycana 3-cü hərbi yürüşü zamanı təbrizlilərin türk əsgərlərinə qarşı çıxışı, 1571-1573-cü illərdə Təbrizdə yerli hakimiyyət orqanlarına qarşı xalq kütlələrinin iki il davam edən üsyanı.

"Əhsənüt-təvarix" əsərinə əsasən müəyyən etmək olur ki, XV-XVI əsrlərdə baş verən müxtəlif feodal araçəkişmələri kənd təsərrüfatı və şəhər iqtisadiyyatında məhsuldar qüvvələrin inkişafını ləngidir, bu da xalqın vəziyyətinin ağırlaşmasına gətirib çıxarırdı.

Mənsub olduğu feodal sinfinə qarşı tez-tez baş verən xalq etiraz və çıxışlarının əsil səbəbini pərdələməyə çalışan Həsən bəy Rumlu üsyanların əsil baş verme səbəbini I Şah Təhmasibin Azərbaycan şəhərlərinə hakim göndərməməsi və mərkəzi hakimiyyətin zəifliyi ilə izah etmişdir ki, bu da onun sinfi dünyagörüşünün məhdudluğundan irəli gəlir. Müəllifin öz məlumatına əsasən 1571-1573-cü illər Təbriz üsyanı baş verərkən şəhərdə hakim olduğu məlumdur. Buna baxmayaraq, şəhər əhalisi yerli hakimiyyətə qarşı qəti üsyandan imtina etməmişdi, əksinə, hakim və feodalların həddini aşan zülmü sinfi mübarizənin kəskinləşməsinə səbəb olmuşdu. Xalq üsyanları, etirazları, əsasən, dini təriqətlər şəklində təzahür edirdi. Bu qəbildən Həsən bəy Rumlunun hürufi hərəkatı haqqında məlumatı diqqəti cəlb edir. F. Engelsin göstərdiyi kimi, "hakim feodal siniflərə qarşı xalqın sinfi mübarizəsi bütün orta əsrlər boyu gah mistika, gah büdət, gah da silahlı üsyan şəklində baş vermişdir"[47].

Göstərmək lazımdır ki, Həsən bəy Rumlu şərh etdiyi müəyyən məsələ və siyasi hadisələrə həmişə biganə qalmamış, onları orta əsr tarixçilərinə xas olan seyirci gözü ilə nəzərdən keçirməmiş, bəzən öz fikir və münasibətini də bildirmişdir. Müəllif dövrün səviyyə tələbatını nəzərə alaraq, əsərində əsas hadisələrin məğzini böyük ustalıqla verməyi bacarmışdır. Həsən bəy Rumluda hadisələrə analitik yanaşma qabiliyyəti vardır.

Bütün bunları nəzərə alaraq, bir daha söyləmək olar ki, "Əhsənüt-təvarix" əsəri XV-XVI əsrlər Azərbaycan tarixinin öyrənilməsində dəyərli bir mənbədir.

[47] К. Маркс и Ф. Энгельс. Соч. т. VIII, 1930, səh. 128 - 129

## ƏDƏBİYYAT


1.Маркс К. и Энгельс Ф. Сочинения. Изд. I, т. УШ, М., 1930.
2.Энгельс Ф. Происхождение семьи, частной собственности и государства. М., 1973
3.Ленин В. И. Полн. собр. соч., т. XXVI, М., 1961
4.Ленин В. И. Государство и революция. М., 1974


### Azərbaycan dilində


5.Azərbaycan tarixi, I cild, Bakı, 1961.
6.Bakıxanov A. Gülüstan-i İrəm, Bakı, 1951.
7.Zərinəzadə H. H. Fars dilində Azərbaycan sözləri, Bakı, 1962.
8.Mahmudov Y. Öyrənilməmiş səhifələr, Bakı 1972.
9.Musəvi T. M. Bakı tarixinə dair orta əsr sənədləri, Bakı 1967.
10.Nemətova M. X. Şirvanın XIV-XVI əsrlər tarixinin öyrənilməsinə dair, Bakı 1959.
11.Onullahi S. M. XV əsrdə Azərbaycan dövlət quruluşunun bəzi məsələlərinə dair, “Azərb. SSR EA Xəbərləri” (tarix, fəlsəfə və hüquq seriyası), №4, Bakı, 1966.
12.Onullahi S. M. XV əsrdə Azərbaycanda bəzi vergilərin miqdarı və ölçüsü haqqında, “Azərb. SSR EA Xəbərləri” (tarix, fəlsəfə və hüquq seriyası), №1, Bakı, 1967.
13.Rəhimov Ə. Əbdi bəy Şirazi, Bakı 1970.
14.Fərzəliyev Ş. F. Həsən bəy Rumlu xətt və xəttatlar haqqında, S. M. Kirov adına ADU-nun Elmi əsərləri, Şərqşünaslıq seriyası, №2, Bakı, 1971.
15.Fərzəliyev Ş. F. Həsən bəy Rumlunun “Əhsənüt-təvarix”əsərinin tədqiq olunma tarixindən, S. M. Kirov adına ADU-nun Elmi əsərləri, Şərqşünaslıq seriyası №″, Bakı, 1972.
16.Fərzəliyev Ş. F. 1408-ci ildə baş vermiş Əlincə üsyanı və tarixçi Həsən bəy Rumlunun ona münasibəti, Azərb, SSR EA aspirantlarının elmi konfransının tezisləri, Bakı, 1973.
17.Fərzəliyev Ş. F. Tarixçi Həsən bəy Rumlu və onun “Əhsənüt-təvarix” əsəri. S. M. Kirov adına ADU-nun Elmi əsərləri, Tarix və fəlsəfə seriyası №5, Bakı 1973.
18. Fərzəliyev Ş. F. Həsən bəy Rumlunun “Əhsənüt-təvarix” əsərində bəzi hərbi istilahlar (XV-XVI əsrlərə dair), “Azərb SSr EA Məruzələri”, XXXII cild, №3, Bakı, 1976.
19.Fərzəliyev Ş. F. Arayeş bəyim, Azərbaycan Sovet Ensiklopediyası, I cild, Bakı, 1976.
20.Fərzəliyev Ş. F. Baranilər, Azərbaycan Sovet Ensiklopediyası, Bakı, II cild, 1977.

21.Fərzəliyev Ş. F. XV-XVI əsrlərdə Azərbaycanda işlədilən ad, ləqəb və titulların etimologiyası haqqında, “Azərb. SSR EA Xəbərləri” (tarix, fəlsəfə və hüquq seriyası) №3, Bakı, 1977.
22.Fərzəliyev Ş. F. 1585-1588-ci illər Azərbaycan tarixinə aid bir nadir türk əlyazması haqqında, “Azərb. SSR EA Məruzələri” №1, Bakı, 1978.
23.Həqiqi. Şerlər, Yerevan, 1966
24.Şəmsi M. İ. Şərəf xan Bidlisinin “Şərəfnamə” əsəri kürd xalqının tarixi mənbəyi kimi, Bakı, 1972.

**Rus dilində**

25.Абидова М. Государство Ак-Коюнлу в Иране во второй половине XV века. Автореф. канд. Дисс. Л., 1953.
26.Ализаде А. А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, 1956.
27.Ашурбейли С.Б. Очерк средневекового Баку. Баку, 1964.
28.Гейдаров М. Х. Ремесленное производство и торговля в городах Азербайджане в XVII в. Автореф. докт. дисс. Баку, 1971.
29.Заходер Б. Н. Государство Сефевидов. В кн.: «Всемирная история», т. IV, гл. XXII, М.,1969.
30.Ибрагимов Д. М. Феодальные государства на территории Азербайджана XV века. Баку, 1962.
31.Источниковедение Теоретические и методические проблемы. М., 1969.
32.Мамедбейли Ш. Шах Исмаил — основатель азербайджанского Сефевидского государства. Автореф. канд. дисс. Баку, 1950.
33.Петров И. П. Данные источников о составе воинских контингентов Исмаила I. «Журнал Азии и Африки», №3. М.,1964.
34.Петрушевский И. П. Из истории Ширвана. «Исторический журнал», № 1, М., 1944.
35.Петрушевский И. П. Внутренняя политика Ахмеда Ак-Коюнлу. В кн.: «Сборник статей по истории Азербайджана». Баку, 1949.
36.Петрушевский И. П. Государство Азербайджана в XV веке. В кн.: «Сборник статей по истории Азербайджана». Баку, 1949.
37.Петрушевский И. П. Азербайджан в XV-XVII вв. В кн.: «Сборник статей по истории Азербайджана». Баку,1949.
38.Петрушевский И. П. Восстание ремесленников и городской бедноты в 1571-1573 гг. В кн.: «Сборник статей по истории Азербайджана». Баку, 1949.
39.Петрушевский И. П. Очерки по истории феодалъных отношений в Азербайджане и Армении в XVI — начале X1X вв. Л., 1949.
40.Петрушевский И. П. Иран в составе государство Сефевидов. В кн.: «История Ирана с древнейших времен до конца XVIII века». Л., 1958.

41.Рахмани А. А. «Тарих-и алем арай-и Аббаси» как источник по истории Азербайджана. Баку, 1960.
42.Ромаскевич А. А. Иранские источники по истории Туркмении XVI—XIX вв. В кн.: «Материалы по истории туркмен и Туркмении», т. 11, М.—Л., 1938.
43.Стори Ч. А. Персидская литература. Biобиблиографический обзор, переработал и дополнил Ю. Э. Брегель, ч. II, М., 1972.
44.Ф а р з а л и е в Ш. Ф. Относительно томов «Ахсан ат-таварих» Хасан-бека Румлу. «Ученые записки» АГУ им. С. М. Кирова, серия востоковедения», № 1, Баку, 1972.
45.Ф а р з а л и е в Ш. Ф. Сочинение Хасан-бека Румлу «Ахсан ат-таварих» как источник по истории Азербайджана. Автореф. канд. дисс. Баку, 1974.
46.Ф а р з а л и е в Ш. Ф. О некоторых особенностях сойургала в XV—XVI вв. (по «Ахсан ат-таварих» Хасан-бека Румлу). Бартольдовские чтения. Тезисы докладов и сообщений. М., 1975.
47.Ф а р з а л и е в Ш. Ф. О статусе даруга. Бартольдовские чтения. Тезисы докладов и сообщений. М., 1976.
48.Ф а р з а л и е в Ш. Ф. Об османско-закавказских политических отношениях в 1578—1579 гг. (по материалам «Зафарнаме-йи Султан Мурад-и салес»). История и филология Турции. Тезисы докладов и сообщений. М., 1976.
49.Ф а р з а л и е в Ш. Ф. Об уникальной рукописи сочинения Хуршаха в Британском музее. Принципы научного описания археографических памятников народов Востока. Материалы Всесоюзного совещания. Баку, 1977.
50.Фильрозе Н. К вопросу о формах земельной собственности в государстве Сефевидов. В кн.: «Очерки по новой истории стран Среднего Востока». М., 1951.
51.Эфендиев О. А. К некоторым вопросам внутренней и внешней политики Шаха Исмаила I. Труды Института истории АН Азерб. ССР, т. XII. Баку, 1957.
52.Э ф е н д и е в О. А. Образование азербайджанского государства Сефевидов в начале XVI века. Баку, 1961.
53.Эфендиев О. А. Некоторые сведения о последних ширваншахах дербентской династии (1500—1538). В кн.: «Ближний и Средний Восток». Сборник статен. М., 1961.
54.Э ф е н д и е в О. А. О малоизвестном источнике XVI в. по истории Сефевидов. «Изв. АН Азерб. ССР», Баку, 1964.
55.Э ф е н д и ев О. А. Азербайджанское государство Сефевидов в XVI веке. Автореф. докт. дисс. Баку, 1968.

## Türk dilində

56.Kütükoglu Bekir. Osmanlı-iran münasibetleri, İstanbul, 1962.

## İngilis, alman və fransız dillərində

57. Aubin Jean. Un Soyurgal Qara-Qoyunlu, Concernant la buluk de Bawanat-Harat-Marvast, Documents from İslamic chanceries, Oxford, 1965.
58. Blochet Edgard. Catalogue des manuscrits persans de la Bibliotheque nationale, Tome premier, Paris, 1905.
59. Chanykov V. Sammlung von morgenlandischen Handschriften velche die Kaiserliche Öffenliche Bibliothek zu St. Petersburg, im Jahre 1864.
60. Dorn B. Catalogue des manuscrits et xylographes orientaux de la bibliotheque imperial Publique. St. Petersburg, 1852.
61. Dorn B. Muhammedanischen Schrifts teller Betreffend die Geschichte und Geographie des Südlichen Küstenlander des Kaspischen Meers, St. Petersburg, 1958.
62. Edward C. Browne A literary history of Persia, vol. IV Cambridge, 1930.
63. Glassen Erika. Die frühen Safawiden nach Qazi Ahmad Qumi, Freiburg im Breisgau, 1970.
64. Hinz W. Schah Esmail II. Ein Beitrag zur Geschichte Safawiden, Berlin, 1933.
65. Minorsky V. La Perse au XV-e siècle entre La Turque et Venise, Paris, 1933.
66. Minorsky V. A chronicle of the Early safawis. (BSOS), London, vol. VII, pt. 2, 1934.
67. Minorsky V. A Civil and Military Review in Fars in 881 1476, BSOS, vol. X, p. 1, 1940.

68. Minorsky V. Tadhkirat-al-müluk. A manual of Safawid Administration. Gibb Memorial Series, n. s.. vol. XVI, London, 1943.
69. Minorsky V. The Clan of the Qara-Qoyunlu Rulers, Melanges F. Köprülü, İstanbul, 1953.
70. Minorsky V. Jihan-shah Qara-Goyunlu and his Poetry, BSOAS, XXI/2, 1954.
71. Minorsky V. The Qara-Qoyunlu and the Qütb-shahs BSOAS, XVII/1.
72. Oktay Efendiew. Le role des tribus de langue turdue clans la creation de l΄Etat safavide, Turcica, tome VI, 1975.
73. Rieu C. Supplement to the Catalogue of the Persian Manuscrits in the British Museum, vol. I, London, 1895.
74. Seddon C. N. Hasan-I Rumlu΄s Ahsanut-tawarikh, Journal of the Royal Asiatic Society, July, 1927.
75. A Chronicle of the Early Safawis being the Ahsanut-tawarikh of Hasan-I Rumlu, vol. II, English translation, ed. by C. N. Seddon, Baroda, 1934.

76. Story C. A. Persian Literature. A bio-bibliographical survey. Section II, Fascicules ʺ, London, 1936.

## GÖSTƏRİCİLƏR

### "Əhsənüt-təvarix" əsərində işlədilən Azərbaycan sözləri

Monoqrafiyaya əlavə edilən sözlərin əksəriyyətinin Azərbaycan dili, onun yazılı abidələri və eləcə də dialekt və şivələrində qeydə alınan sözlərlə eyni və ya oxşar fonetik tərkibdə işləndiyini nəzərə alıb, onların yuxarıdakı başlıq altında verilməsini məqsədəuyğun hesab etdik. Fikrimizi sübut etmək məqsədi ilə bir neçə fakta diqqət edək.

Nəsimidə: - dəlu (dəli), doquz (doqquz), səksən, gözəl, yil (il), yüz, ağac, aruq (arıq) və s. (Bax: C. Q\əhramanov. Nəsimi divanını leksikası, Bakı, 1970).

"Kitabi-Dədə Qorqud"da:- çomaq, dəlu (dəli). Budaq (şəxs adı) və s. (Bax: Ə. Dəmirçizadə. "Kitabi Dədə Qorqud" dastanlarının dili", Bakı, 1959).

Şah İsmayıl Xətaidə:-qapuçu (qapıçı), yəraq (yaraq), yengi (yeni), və s.

Kişvəridə:-saru (sarı), eşik və s.

"Şühədanamə"də:-yengi (yeni), yil (il) və s.

H. Mirzəzadə. Azərbaycan dilinin tarixi morfologiyası, Bakı, 1962.

Dialekt və şivələrimizdə:-yil, yıl (il), yüz (üz), dədə (ata) və s. (Bax: M. Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları, Bakı, 1967).

Heç şübhəsiz ki, bizim fikrimizi linqvistik faktlarla yanaşı, monoqrafiyada göstərdiyimiz bir sıra tarixi faktlar da təsdiq edir.

**a) Rəhbərlik bildirən "başı" ifadəsi ilə düzələnlər:**

Qorçibaşı, eşikağasıbaşı, yüzbaşı, mingbaşı, topçibaşı, subaşı, ovçubaşı

**b) "çı", "çi", "çu" şəkilçisi ilə bitənlər:** Axtaçı, təmurçi, qapuçi, qorçi, qulluqçi, quşçi, ilçi, süfrəçi, tupçi, tüfəngçi, həlvaçi, şirəçi

**c) "lu" şəkiçisi ilə bitənlər:** Qanlu, gögərçinlu, pambuqlu, çiçəklu

**ç) "lər" şəkilçisi ilə bitən söz:** Qüllər

**d) "liq" şəkilçisi ilə bitən söz:** Xınalıq

**e) "si" şəkilçisi ilə bitən söz:** Ağasi

**Müxtəlif sözlər:** Ay (xitab), ağ, ağac, aruq, açuq, ata, baş, bik, bəy, bölük, bulağ, qəra, qəya, qapu, qeysi, qızıl, qızılbaş, qışlaq, qoyun, qoç, dəngiz, dərzi, dəlu, donquz, ey (xitab), eşik, yil, yəylaq, yəraq, yel, yengi, yüreş, kənd, kəpənək, kök, köç, gözəl, güdəçə, oğlan, oğli, olka, saru, sığınaq, uzun, ulağ, üz, üzən, çoban, çomaq, çöl.

**Saylar:** Biş, doqquz, yüz, səksən, üç.

**Məkan adları:** Ağdağ, Ağsəray, Acıçay, Bişbərmaq, Qəraağac, Qərabağ, Qəradərə, Qəratəpə, Qanlu çəmən, Qəraçə dağ, Qoyunülumi, Gələsən-Görəsən, Gözəldərə, Gögçə dəngiz, Pambuqlu, Saru qəya, Saru çiçək, Çiçəklu.

**“Əhsənüt-təvarix” əsərində təsadüf olunan tayfa və qəbilə adları:** Ayinlu, Bəyəndur, Barani, Baharlu, Bəyat, Biktaş, Bərlas, Bəxşi, Vərsaq, Qacar, Qaramanlu, Qəriblu, Dəxxarlu, Eynallu, Əmirlu, Əlpavut, Ərəbkirlu, Orlat, Əfşar, Əhmədlu, Zülqədər, İnaq, Kəngərlu, Koroğli, Mosullu, Oyrat, Pornak, Rumlu, Sədlu, Ustaclu, Xunuslu, Hacilu, Həzarə, Həmzəhacilu, Çəndərlu, Çəpəni, Cagirlu, Cəlayiri, Şamlu.

**Tədiyə vasitələri:** Ağçe-yi rumi, dinar, dinar-i İraqi, dinar-i Təbrizi, dinar-i təla-yi əhmər, dirhəm, əşrəfi, zər, zər-i Qazibəyi, lək, miri, tingə, tümən, tümən-i İraqi, tümən-i kəpəki, tümən-i Təbrizi, fluri, flus.

**Ölçü, ağırlıq və çəki istilahları:** Zər, mən, misqal, xərvar.

**Uzunluq və məsafə bildirən istilahlar:** Gəz, fərsəx.

## Şəxs adları

Abdal bəy Dədə (I Şah İsmayılın əmiri) - 646, 6064 82
Abdulla (Qaraqoyunlu Məhəmmədi Mirzənin lələsi) - 48
Abidova M. - 7, 11, 21
Ağa Məhəmməd Fərahani (Şirvan vəziri) - 55
Akimuşkin O. F. - 6
Aleksandr (Gürcüstan hakimi) - 95
Aləmşah bəyim (I Şah İsmayılın anası) - 109 Allahqulu bəy Ustaclu (Təbriz hakimi) - 123
Ambroco Kontarini - 107
Arayeş bəyim (Qara İsgəndərin qızı) - 54, 98, 102
Arens A. K - 20
Aşurbəyli S. B. - 11, 22
Babur (teymuri) - 99
Bayazid (osmanlı sultanı) – 22, 24, 27
Bayazid sultan (Çayan sultan Ustaclının oğlu, divan əmiri) - 47, 61
Baysunqur (Ağqoyunlu Sultan Yaqubun oğlu) - 45, 46, 50, 109, 110
Baysunqur (teymuri Şahruxun oğlu) - 95, 96
Bakıxanov A. - 83
Behzadi İ. P. - 3
Bəkir Sidqi Kütükoğlu - 23
Bəgə Ərdəlan - 9
Bəstam Cagirlu - 46, 59, 80, 82, 88, 93
Bəhram Mirzə (I Şah İsmayılın oğlu) - 8
Braun E. - 19
Брегел Ю. Е. - 40
Budaq Qəzvini - 49, 62, 112
Bürhan Mirzə - 36, 121, 122, 123
Qazan xan (monqol hökmdarı) - 14, 75

Qazi Bayazid (Şirvanşah I İbrahimin vəziri) - 54
Qazi Əhməd Qəffari (tarixçi) - 24, 35, 36, 62, 64
Qazi Əhməd Qumi (tarixçi) -13, 38
Qazi İmaməddin (Əlincə qalasının hakimi) - 77, 88
Xazi İsa (ağqoyunlu sədri) – 48, 58
Qazi Məhəmməd Kaşi (I Şah İsmayılın dövlət aparatında sədr) - 48
Qazi Cahan (I Şah Təhmasibin vəziri) - 75, 76, 78,
Qazi xan Təkəlu (əmir) – 45, 55
Qara İsgəndər (Qara Yusifin oğlu) - 54, 61, 77, 88, 97, 98
Qara Yusif (Qaraqoyunlu hökmdarı) - 17, 28, 29, 44, 46, 49, 61, 62, 68, 69, 77, 80, 84, 86, 87, 89, 91, 93, 94, 95
Qara Osman Bayandur - 88, 89, 94, 95, 97, 98
Qara Piri bəy Qacar (əmir) - 34
Qasım bəy Pornak (Şiraz valisi) - 50
Qasım bəy Şirvani - 36, 123
Qlassen E - 13, 39
Dədə bəy Zülqədər (qorçibaşı) - 63
Dərviş Məhəmməd xan (Şəki hakimi) - 37, 115, 122, 123
Div sultan Rumlu (qızılbaş əmiri) - 46, 47, 51, 53, 62, 116
Dorn B. A. - 7, 12, 19
Dövlətşah Səmərqəndi (təzkirəçi) - 17, 30, 96, 102, 125
Durmuş xan Şamlu - 45, 63
Eybə sultan (əmir) - 50, 110, 111, 112
Engels F. - 126
Əbdi bəy Şamlu (qızılbaş əmiri) - 34
Əbdi bəy Şirazi (tarixçi) - 45, 46, 47
Əbdül Qafar (Şəki valisi) - 103
Əbdürrəzzaq Səmərqəndi (tarixçi) – 28, 29, 125
Əbdülhüseyn Nəvayi - 24, 66
Əbülfəttah bəy (darğa) - 57
Əbülhəy Həbibi - 24
Əbubəkr (teymuri) - 27, 86, 87, 88
Əbubəkr Tehrani (tarixçi) - 24, 30, 31, 69, 125
Əbu Yusif (Cahanşahın oğlu) - 75, 104
Əlaüddövlə İsmayıl - 8
Əlaüddövlə Zülqədər - 15, 63
Əlaəddin Sədiq Keçəçi (Arayeş bəyimin vəziri) - 54
Əlqas Mirzə (I Şah İsmayılın oğlu) - 41, 45, 64, 67, 83, 117, 120, 121
Əlvənd (ağqoyunlu hökmdarı) - 24, 51, 56, 112, 113
Əli bəy Bayandur - 96

Əlizadə Ə. Ə. - 6, 82, 85
Əli sultan (qorçibaşı) - 63
Əmir bəy Mosullu (Diyarbəkr valisi) - 63
Əmir Qara (lələ) - 44
Əmir Qaraman - 46
Əmir sultan Rumlu (Həsən bəy Rumlunun babası) - 8, 55, 82
Əmir Teymur (Teymurləng) - 58
Ərəs sultan Rumlu (Şirvan valisi) - 123
Əsgər Müntəzirsahib - 39
Əfəndiyev O. Ə. - 6, 7, 11, 21, 33, 50, 64, 66, 77, 79, 85
Əhməd bəy Ustaclu (Şirvan qorçibaşısı) - 64
Əhməd Lur - 96
Zaxoder B. N. - 113
Zeynal bəy Şamlu (əmir) - 60, 82
Zərinəzadə H. H. - 22
Ziya Ordubadi - 16
I İbrahim (şirvanşah) - 28, 41, 42, 43, 54, 58, 69, 84, 87, 88, 90, 92, 97
II İbrahim (Şeyxşah, Fərrux Yəsarın oğlu) -114
İbrahimov S. - 7, 11, 22, 40, 89
ibn-Müqlə (xəttat) - 13
İdris Bidlisi (tarixçi) - 27, 125
İsgəndər Münşi (tarixçi) - 3, 9, 22, 23, 37, 44, 66, 67
İsfahan Mirzə (Qara Yusifin oğlu) - 94, 95, 96, 98
Yaqut Qulam (xəttat) – 13, 14
Yar Əhməd Xuzani (səfəvi sədri) - 51
Yusif Ağqoyunlu - 109, 112
Kavus Mirzə - 123, 124
Kahi (şair) - 25
Konstantin (Gürcüstan valisi) - 69, 91
Gödək Əhməd (ağqoyunlu şahı) - 50, 78, 85, 111
Lətif bəy (ağqoyunlu sədri) - 51
Lətif Hüseynzadə - 17
Leyli (Qara İsgəndərin arvadı) - 98
Maqsud Ağqoyunlu – 107, 110
Marks K. -114
Mahmud Y. - 106
Məhəmmədbəyli Ş. - 21
Məsih Mirzə (Sultan Yaqub Ağqoyunlunun qardaşı) – 109, 110
Məsum bəy Səfəvi (I Təhmasibin dövlət aparatında vəkil) - 45, 61
Məhəmməd bəy Ustaclu (qızılbaş əmiri) - 34
Məhəmmədi Mirzə (Cahanşahın oğlu) - 45, 48, 51, 57, 70, 88, 98

Məhəmmədi Mirzə (Uzun Həsənin nəvəsi) - 112
Məhəmməd Möhsün - 7
II Məhəmməd (osmanlı sultanı) - 27, 105, 106
Məhəmməd Sədr Haşemi - 67
Məhəmməd xan Şeybani (Şeybək xan) - 114, 115
Məhəmməd Xudabəndə (səfəvi hökmdarı) - 35, 55, 59, 124
Məhəmməd Hümayun (Hindistanın moğol hökmdarı) - 67
Minorski V. F. - 7, 12, 20, 35, 58, 61, 65, 72, 79, 97
Miranşah (Teymurləngin oğlu) - 87
Mir Zeynəddin Seyid Əli - 49
Mir Yəhya Qəzvini (tarixçi) - 17, 47, 61, 104
Mirzə Əbülqasım (Qara Yusifin oğlu) - 104
Mirzə Ətaulla Xuzani (vəzir) - 55
Mirzəşah Hüseyn (vəzir) – 52, 53
Mir Əli Təbrizi (xəttat) - 17
Mir Əli Şükür (Pirbudaq Qaraqoyunlunun divan əmiri) – 61
Mir Şəmsəddin Məhəmməd Yusif (sədr) - 49
Mirzə Ömər (teymuri) - 87
Mirzə Salman Cabiri (II Şah İsmayıl və Məhəmməd Xudabəndənin vəziri) - 55
Mirxand (tarixçi) - 30, 125
Mövlana Əbülhəsən - (Həsən bəy Rumlunun təcrid elmi müəllimi) - 10
Mövlana Heyrəti (şair) - 79
Müntəşa sultan (əmir) - 59, 66
Müstəsim (Abbasi xəlifəsi) -13
I Murad (osmanlı sultanı) - 98
Murad bəy Ağqoyunlu (Uzun Həsənin qardaşı oğlu) – 16, 57
Mustafa sultan Ustaclu (Köpək sultan, əmirül-ümərа) - 46
Nemətova M. X, -7, 11, 22
Nəvayi Ə. H. – 7, 10, 15, 26, 27, 68, 71
Nəsimi – 16
Nəfisi s. – 7
Nəcməddin Məsud (sədr) – 51, 52
Nizaməddin Mücir Şeybani - 24
Onullahi S. M. – 6, 11, 23, 64, 98
Padar (Şirvanşah Şahruxun qorçibaşısı) – 64
Petrov İ. P. – 113
Petruşevski İ. P. – 6, 7, 11, 20, 21, 79, 82, 84, 86, 89, 103, 108, 124.
Pirbudaq (Cahanşahın oğlu) – 28, 29, 44, 61, 70, 80, 90, 91, 100, 101
Piriyev V. Z. – 6
Pir Məhəmməd bəy (Cahanşahın təvaçisi) - 70
Rəhimzadeyi-Səfəvi - 24

Rəhimov Ə. - 23
Rəhmani Ə. Ə. - 3, 6, 22
Riyö - 7, 17
Romaskeviç A. A. - 7, 12, 20
Röhrborn K. M. - 56, 57, 65
Rüstəm Ağqoyunlu - 50, 71, 78, 108, 110, 111
Sarvanqulu - 102
Sam Mirzə (I Şah İsmayılın oğlu) - 45, 52, 86, 121
Sarı Qaplan (Əlaüddövlə Zülqədərin oğlu) - 15
Sarı Əli (I Şah İsmayılın möhürdarı) - 63
Sarı Pirə (qorçibaşı) - 63, 72
Sevindik bəy Əfşar (qorçibaşı) – 64, 122
Seddon Ç.N. - 7, 11, 12, 15, 19, 20, 24, 25, 26, 27, 23, 35, 70, 71, 72
Seydi Əli (Şəki hakimi) - 95
Seyid Əhməd (Cahanşahın tuqaçisi) - 71
Seyid Mahmud (Qara İsgəndərin vəziri) - 54
Seyid Həsən Fərahani (vəzir) - 55
Səlim (osmanlı sultanı) – 15, 115
Səlcuqşah bəyim (Sultan Yaqub Ağqoyunlunun anası) – 38, 43, 107, 109
I Süleyman (osmanlı sultanı) - 22
II Süleyman (osmanlı sultanı) - 40, 67, 117, 118, 119, 121, 122, 126
Sümer F. - 14, 23, 24, 26, 29, 30
Stori Ç. A. – 7, 13, 40
Sultan Qansu (Misir padşahı) - 15
Sultan Əbu Səid – 28, 29, 58, 69, 75, 78, 95, 97, 99, 100, 101, 102, 104, 126
Sultanəli Səfəvi (I Şah İsmayılın böyuk qardaşı) – 71, 109, 110, 111
Sultan Əhməd Cəlayiri - 27, 28, 62, 65, 77, 87, 89, 90, 91
Sultan Yaqub Ağqoyunlu - 38, 50, 56, 58, 82, 85, 107, 108, 109, 110
Sultan Murad (Sultan Yaqubun oğlu) - 50, 112, 113
Sultan Xəlil (Sultan Yaqubun qardaşı) - 35, 70, 87, 103, 107
Sultan Hüseyn Bayqara - 104, 114
Sufi Xəlil (Ağqoyunlu vəkili) - 45, 48, 50, 107, 109, 110
Taclı bəyim (I Şah İsmayılın arvadı) - 45
Tayer F. - 14
Teymur (Teymurləng) - 27, 86, 87, 89, 92
Uzun Həsən (ağqoyunlu hökmdarı) – 16, 27, 28, 31, 35, 44, 50, 56, 58, 60, 70, 75, 77, 100-106, 108, 110
Uğurlu Məhəmməd (Uzun Həsənin oğlu) - 101, 104, 106, 107, 110
Übeyd (özbək xanı) - 20, 41,60, 115, 116, 117
Üləma Təkəlu (əmirül-üməra) - 52, 117
Fəzullah ibn Ruzbehan Xunəçi (Xacə Mövlanayi-İsfahani, tarixçi) - 35

Fəzlullah Nəimi - 96
Fərrux bəy (Baysunqur Ağqoyunlunun əmirül-ümərası) - 46, 50
Fərrux Yasar (şirvanşah) - 29, 38, 43, 82, 103, 104, 108, 109, 113, 114
Filroze H. - 21
Xadim bəy Xüləfa (qızılbaş əmiri) - 34
Xandəmir (tarixçi) - 15, 16, 24, 33, 35, 125
Xanməhəmməd Ustaclu (çərxçibaşı) - 72
Xanıkov V. - 7
Xacə Qiyasəddin Əli (vəzir) - 55
Xacə Əmir bəy Keçəçi (I Şah Təhmasibin vəziri) - 25, 55
Xacə Həbubulla (Sam Mirzənin vəziri) - 86
Xacə Cəmaləddin Əli Təbrizi (vəzir) - 55
Xacə Şəmsəddin (Həsənəli Qaraqoyunlunun vəziri) -54
I Xəlilullah - 43, 95, 97, 100
II Xəlilullah - 116, 119
Hayeri Ə. - 7
Heydər Mirzə (I Şah Təhmasibin oğlu) - 45
Heydər Səfəvi (I Şah İsmayılın atası) - 38, 108
Heydərov M. X. - 6, 23
Həqiqi (Cahanşah) - 16, 17, 30, 31
Həsən bəy Rumlu (tarixçi) - 3,4, 5...
Həsənəli (Cahanşahın oğlu) - 28, 54, 99, 101, 102, 104
Hins V. - 12, 20
Hümayun (moğol hökmdarı) - 9
Hüseyn bəy Lələ Ustaclu (əmir) - 34
Hüseyn bəy Şamlu (əmir) - 46, 47, 51, 52
Hüseyn bəy (Şəki hakimi) - 116
Hüseyn bəy (Şirvanşah Şahruxun vəkili) - 52
Hüseunqulu xəlifə - 9
Hüseynov R. Ə. - 3
Hüseyn xan Şamlu (əmir) - 45
Çayan Sultan Ustaclu (Məhəmməd bəy Süfrəçi Ustaclu, əmir) - 47, 53, 60, 61, 62
Cahangir (Uzun Həsənin qardaşı) - 100
Cahanşah (Qaraqoyunlu hökmdarı) - 16, 17, 28, 29, 31, 43, 45, 48, 54, 59, 68-71, 75, 77, 80, 83, 94, 97-102
Cəlaləddin Məhəmməd Xandəmir Təbrizi (vəzir) - 46, 53
Cəlaləddin Mahmud Şirazi (Həsən bəy Rumlunun müəllimi) - 10
Cünabadi (tarixçi) - 40
Cüneyd Səfəvi (I Şah İsmayılın babası) - 68, 100, 108
I Şah Abbas - 50
Şahverdi bəy (qızılbaş döyüşçüsü) - 9

Şah Qasım Ənvar (şair) - 30, 96
Şah Qubad (Qara İsgəndərin oğlu) - 77, 98
Şah Qubad (qızılbaş əmiri Çuhə Sultanın oğlu) - 51
Şahqulu (qızılbaş döyüşçüsü) - 9
Şah Əli (Qara Yusifin nəvəsi) - 98
Şahsuvar Lənkərani (Sultan Heydərin əmiri) - 38
I Şah İsmayıl - 11, 15, 16, 21, 24, 32, 43, 45-54, 60-64, 66, 70, 72, 82-84, 109, 111, 113, 114, 116
II Şah İsmayıl - 5, 10, 12, 20, 21, 40, 43, 55, 59, 64, 65, 121, 122, 124
Şahməhəmməd (Qara Yusifin oğlu) – 90, 94, 98
Şahpəri (Qara İsgəndərin qızı) - 102
Şahrux - 37, 43, 52, 64, 80, 87, 90, 92, 94, 95, 96, 97, 98, 99, 119
I Şah Təhmasib - 5, 8-10, 19-21, 23, 25, 35, 37, 40, 41, 43, 45, 47, 51, 52, 56, 59, 60, 61, 64, 65, 67, 75, 76, 78, 81, 83, 85, 116-124
Şeyx Məhəmməd Bəqa Səxaranpuri (tarixçi) - 40, 52
Şeyx Nəcməddin Məsud (Sultan Yaqubun vəkili)-50
Şəmsəddin Əli (Şəki hakimi) - 69, 91
Şəmsəddin Gilani (I Şah İsmayılın müəllimi və qızılbaş sədrlərindən biri) - 48
Şəmsi M. İ. - 3, 11, 12, 23
Şərəf xan Bidlisi (tarixçi) - 23

## Coğrafi adlar:

Adilcəvaz— 94
Azərbaycan—3, 4, 5...
Amid—84, 100
Anqara—24
Araz—74, 111
Aran—74, 112
Bağdad—48, 61, 77, 87, 90, 94, 98, 101, 113, 117
Bakı—22, 33, 57, 73, 82, 84, 120
Baroda—19
Bəlx—99
Bərdə—43, 74, 95, 102
Buğurd—22, 118, 123
Bursa—28
Qarabağ—68, 74, 95
Qarahasar—101
Qəbələ—74, 121
Qəzvin—8, 10, 43, 59, 82, 93
Qəhqəhə—25

Qum—7, 10
Dərbənd—121
Dizful—8
Diyarbəkr—63, 84, 96, 100, 102, 107, 110, 112, 113, 114
Ermənistan—21
Əlincə—61, 71, 77, 87, 88, 98, 110, 125
Ərdəbil—74, 75, 80, 100, 102, 108, 109, 110, 111, 113
Ələmut—25
Ərzincan—49, 90, 91, 107
Ərzrum—101
Əskuyə—78
İraq—49, 55, 59, 100, 105, 110, 112, 113
İran—11, 23, 24, 27, 33, 87,
İstambul—35, 121
İsfahan—45, 71, 83
Yevlax—37, 74, 120
Kabul—24
Kirman—50, 55, 112
Kiş—74, 122
Kür —74, 91, 92, 105
Kürdustan—9, 23, 114
Gəncə—37, 74, 120
Gələsən—Görəsən—74, 122, 123
Gilan—8, 19, 55
Gözəldərə— 51
Gülüütan—22, 34, 74, 118, 12
Gürcüütan—9, 22, 35-37, 55, 69, 78, 82, 91, 98,  100, 101, 115, 120, 121
Leninqrad—12, 13, 50
Lənkəran—38
Mavərənnəhr—60, 115
Maku—74, 99
Marağa—74
Mahmudabad—74, 108, 120
Miyanə—75
Misir—13, 106
Muğan—68, 74, 80, 98
Naxçıvan—66, 73, 86, 95, 113, 118
Paris—35
Rey - 97, 112
Savucbulaq—82
Salyan—38, 74, 118, 120

Samur—74, 118, 120
Səlmas—95
Səncəq—102
Səhənd—105
SSRİ—27, 35
Sultaniyyə—80, 82, 92, 93, 94, 97
Sürxab—22
Tarom—93
Tehran—11
Təbəristan—19
Təbriz—28, 31, 37, 43, 54, 57, 65, 74, 75, 77, 78, 81, 87, 88, 90, 92 - 99, 102, 103, 105, 110 - 114, 118, 120 - 125
Təkkə—123
Tiflis—105, 120
Türkiyə—23, 27, 30, 67, 105, 107, 118
Türkmənistan—20
Ucan—95
Fars—49, 55, 105, 112
Xəzər dənizi—19
Xoy—90, 102
Xorasan—31, 41, 49, 55, 60, 87, 92, 101, 115, 116
Xuzistan—8, 49, 100, 105
Herat—20, 87, 92, 94, 96, 101, 104, 117, 121
Həmədan—90, 93, 110
Hindistan—9, 67
Çaldıran—33, 49, 52, 62, 72, 115
Cavad—74
Şabran—123
Şamaxı—38, 74, 118, 121, 123
Şiraz—50, 63, 93
Şirvan—4, 6, 22, 29, 32, 33, 36 - 38, 41, 42, 45, 46, 49, 50, 55, 58, 59, 64, 68, 74, 82, 83, 88 - 90, 92, 97, 98, 100, 103, 108, 110, 112 – 114, 116, 118 - 123, 125
Şəki—4, 6, 32, 37, 43, 55, 69, 74, 88, 89, 91, 103, 113, 116, 118 - 123, 125
Şəhrizur—9

## İstilahlar:

Atabəy (lələ)—44
Baş vəzir (etimadüd-dövlə)—53, 55
Bac—81, 82, 83
Bəylərbəyi—65

Borangăr (sağ cinah)—69
Bəhre—82
Vali—41, 63
Vəqf—48, 74, 75, 70
Vəzir—23, 43, 46, 47, 53, 54, 55, 57, 53, 61
Vəkil-vəkalət—47, 49, 50, 51, 52, 53, 54, 57, 61
Qazi—57, 58, 68
Qaziye-əsgər—58
Qarovul—70
Qorçi—8, 9, 55, 63, 64, 65, 66, 67
Qorçibaşı—23, 63, 64, 65, 122
Qul (ordunun mərkəzi)—09
Qulluqçu—68, 72
Qurxanə (silah ambarı)— 68
Daruğə—56, 57
Divan əmiri—23, 47, 61, 62
Etimadüd-dövlə—45
Əmiraxur—62
Əmir, əmarət—23, 40, 41, 43, 44, 45, 51, 52, 54, 57, 58 - 64, 69 - 71, 80, 84, 102, 107
Əmirül-üməra—45 - 47, 50 - 53, 62, 64, 65, 118
Ələfə—84, 85
İqta—76, 79, 80
İstimalətnamə (dəvət məktubu)—69
İxracat—85
Yasaq (qoşun toplayışı)—70
Kərənay (uzun zurna)—68
Kəcim (örtük)—68
Kutval (qala hakimi)—56
Gəbrəkə (böyük nağara)—68
Lələ—44, 45, 83
Mal—82, 83
Male-əmani—83, 84
Mal-o-cehat—82, 83
Mancanaq—68
Mənqəlay (qoşunun ön hissəsi)—69
Meymənə (sağ cinah)—69
Meysərə (sol cinah)—69
Möhürdar—62, 63
Muçi—72
Mübəşşir (xəbəryayan)—73

Mühəssil (vergiyığan)—81
Məqbəçi (lağımatan)—72
Nəfir (şeypur)—68
Nəfirçi—73
Rəadə (qaladağıdan silah)—68
Rüsüm, mərsum,mərsumat—86
Sahibdivan (vəzir)—53, 86
Sədr, sədarət—43, 47, 48, 49, 55, 57, 58, 61, 85
Soyurqal—58, 59, 73, 76, 77, 78, 79, 80, 125
Sultan—41, 43
Surən (əsgərlərin nərəsi)—68
Sülhnamə—69
Tamğa—37, 85, 80
Tamğaçı—86
Təvaçi—70
Təcrid (elm)—10
Tiyul—8, 59, 73, 70, 79, 80, 81, 120, 126
Tiyuldar—80
Topçu—23, 72
Topçubaşı—72
Tuqaçi—71
Tüfəngçi—23, 72
Ülufə—84, 85
Xassə—49
Xərac—81, 82, 83
Xunbəha—84
Hakim—12, 43, 44, 55, 56, 57, 63
Çağırçı (carçı)—73
Çərxçi—71
Çərxçibaşı—71
Cəbbədar (cilah ambarının başçısı)—68
Cəvanğar (sol cinah)—69
Şəmsiyyə (bədii sənət növü)—10
Şərtnamə—43

# Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri əsasında tərtib edilən şəcərə cədvəlləri

Dərbəndi-şivanşahlar (1382-1538)
I İbrahim (1382-1417)



Qaraqoyunlular (1410-1468)



## Ağqoyunlular (1468-1501)



Şəki hakimləri (1405-1551)

Sidi Şəmsəddin Əli

Sidi Əhməd

Əmir Əli Əynaq

Əbdül Qafar

Hüseyn bəy (7-1523/24)

Dərviş Məhəmməd xan (1523/24-1551/52)

# MÜNDƏRİCAT

Giriş.........................................................................................................

I fəsil. HƏSƏN BƏY RUMLUNUN HƏYATI

VƏ ONUN "ƏHSƏNÜT-TƏVARİX" ƏSƏRİ.................................................

II fəsil. "ƏHSƏNÜT-TƏVARİX" ƏSƏRİNİN ÖYRƏNİLMƏSİ

"Əhsənüt-təvarix"in tədqiq olunma tarixi.........................................................

"Əhsənüt-təvarix"in ilk məxəzləri və ondan

istifadə edən orta əsr tarixçiləri........................................................................

III fəsil. "ƏHSƏNÜT-TƏVARİX" ƏSƏRİ

XV-XVI ƏSRLƏR AZƏRBAYCANININ

İCTİMAİ-İQTİSADİ VƏ SİYASİ TARİXİNİN MƏNBƏYİ KİMİ

Dövlət quruluşu məsələləri..............................................................................

İqtisadi vəziyyət...............................................................................................

Siyasi tarix.......................................................................................................

Nəticə...............................................................................................................

Ədəbiyyat.........................................................................................................

Göstəricilər.......................................................................................................

Şəcərə cədvəlləri..............................................................................................